Bu rəqabətin qanuni sərhədlər daxilində olmaması rəqabətin ədalətsiz olması deməkdir ki, buna haqsız rəqabət deyilir. Doktrinada haqsız rəqabət anlayışı daha çox kommersiya rəqiblərinə zərər verən, onları iqtisadi fəaliyyətdən uzaqlaşdıran, ədəb, əxlaq və dürüstlük qaydalarına zidd olan hərəkətlər kimi ifadə edilir. Lakin kommersiya əməliyyatlarında qanunla müəyyən edilmiş qaydalara uyğun gələn rəqabət haqlı rəqabət sayılır və qanuni sayılır [14, s.193].

Əslində həm kommersiya müəssisələri, həm də onların fəaliyyət göstərdiyi bazarda iştirak edən istehlakçılar ədalətli və təhrif olunmamış rəqabət mühitinin təmin edilməsində paya malikdirlər və bu mühit onların hamısına fayda verir. Odur ki, haqsız rəqabət aktı daha çox rəqib kommersiya müəssisələri tərəfindən həyata keçirilsə də, istehakçıların da bu aktda iştirak etməsi mümkündür.

Bu halda ədalətsiz rəqabət hüququ azad rəqabət qaydasının yaradılmasını və sahibkarların, kommersiya müəssisələrinin, istehlakçıların və digər iqtisadi birliklərin ümumi maraqlarının müdafiəsini təmin edir. Bu istiqamətdə hüquqi tənzimləmələr rəqabət hüququnun dürüstlük qaydaları çərçivəsində həyata keçirilməsini təmin edir və bu hüquqdan sui-istifadənin qarşısını almağa yönəlib.

Türkiyə Ticarət Qanununa nəzər salsaq görərik ki, haqsız rəqabət məfhumuna verilən anlayış yuxarıda qeyd edilən yanaşma ilə çox yaxından səsləşir. Belə ki, həmin anlayışa əsasən "Aldadıcı və ya başqa şəkildə dürüstlük qaydasına zidd olan və rəqiblər arasında və ya təchizatçılar və müştərilər arasında münasibətlərə təsir edən kommersiya təcrübəsi ədalətsiz və qanunsuzdur".

Bu anlayışın ifadə etdiyi əsas qayə odur ki, dürüstlük qaydası haqsız rəqabət aktlarının müəyyən edilməsində həlledici rol oynayır və haqsız rəqabətin əsas elementini təşkil edir. Bazarın bütün aktorları dürüstlük qaydalarına uyğun hərəkət etməlidirlər. Bunun pozulması halında kommersiya etibarı və rəqabət mühiti pozulacağı üçün haqsız rəqabət yarana bilər.

Əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayət əməlinin Cinayət Məcəlləsindəki yerinə gəlincə qeyd etmək lazımdır ki, sözügedən cinayət əməli Cinayət Məcəlləsinin İqtisadi sahədə cinayətlər bölməsinin İqtisadi fəaliyyət sahəsində cinayətlər adlanan 24-cü fəslində yerləşir.

Qeyd edilən fəsilə nəzər yetirdikdə bəlli olur ki, iqtisadi fəaliyyət sahəsi çoxşaxəli bir sahə olduğu üçün iqtisadi fəaliyyətin ayrı-ayrı sferalarında yaranan ictimai münasibətlərə qəsd edən cinayət əməlləri müstəqil cinayət tərkibləri kimi həmin fəsildə yer almışdır. İqtisadi fəaliyyət sahəsində cinayətlər elə ictimai təhlükəli əməllərdir ki, onlar istehsal, mübadilə, maddi nemətlərin və xidmətlərin istehlakı sahəsində yaranan ictimai münasibətlərə qəsd edir [13, s.643].

Bu cinayətlərin iqtisadi fəaliyyət sahəsində törədilməsi onları birləşdirən cəhət olsa da, bu cinayətlər onların qəsd etdiyi obyektlərin növü baxımından bir-birindən fərqlənir.

Bu baxımdan belə qənaətə gəlmək olar ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin müəyyən dərəcədə təsnifləşdirilməsinə və ayrı bir fəsildə ehtiva olunmasına zərurət yaranmışdır. Bu fəsildə yerləşən cinayətlərin bəziləri, o cümlədən əmtəə nişanlarından qanunsuz istifadə edilməsi bazarda haqsız rəqabətin yaranmasına səbəb olmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak mənafelərinə qəsd edir. Buna görə də Cinayət Məcəlləsinin 24-cü fəslində yer alan bəzi cinayət əməllərini, yəni Əmtəə nişanlarından qanunsuz istifadə etmə (CM-in 197-ci maddəsi), Bilə-bilə yalan reklam etmə (CM-in 198-ci maddəsi), İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma (CM-in 199-cu maddəsi), İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma (CM-in 200-cü maddəsi), Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma (CM-in 202-ci maddəsi) əməllərinin törədilməsi ilə yaratdığı nəticələr baxımından Cinayət Məcəlləsində “Haqsız rəqabətə səbəb olan əməllər” adı altında təsnifləşdirmək uğurlu hesab edilə bilər. Bu termin Cinayət Məcəlləsi üçün yeni anlayış olmaqla qeyd edilən cinayət əməllərinin qəsd etdiyi ictimai münasibətlər baxımından daha uyğun fəsildə yer almasını təmin etmiş olacaq.

01 iyul 2024-cü il tarixindən qüvvəyə minən Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi bir çox qanunvericilik aktlarına, o cümlədən Cinayət Məcəlləsinə dəyişiklik edilməsi üçün bir təkan olmuşdur. Bu Məcəllə Azərbaycan Respublikasında iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinin öz aralarında yaranan və rəqabətə təsir edən münasibətləri tənzimləməklə haqsız rəqabətin kokret formalarının dairəsini müəyyən etmişdir. Müştərilərin çaşdırılması və aldadılması bazarda haqsız rəqabətin yaranmasına səbəb olmaqla bir tərəfdən istehlakçıların, digər tərəfdən sahibkarlıq fəaliyyəti subyektinin mənafeyinə ziyan vurulmasını şərtləndirən müxəlif formalarda ifadə olunur [4, s.44].

Bu formalardan biri kimi başqa şəxsə məxsus olan əmtəə və ya xidmət etmə nişanından qanunsuz istifadə etməni misal göstərmək olar.

Oxşar yanaşmanı Türkiyə Ticarət Qanununa (bundan sonra TTQ) nəzər yetirdikdə də görmək mümkündür. Belə ki, TTQ-nin Haqsız rəqabət haqqında müddəaları ehtiva edən 4-cü hissəsinin “Dürüstlük prinsipini pozan davranışlar və kommersiya praktikaları” adlı 55-ci maddəsində “Başqasının əmlakı, iş məhsulları, fəaliyyəti və ya işləri ilə çaşqınlığa səbəb olan tədbirlər görmək” haqsız qərabətə səbəb olan əməllərdən biri kimi nəzərdən keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyinin sistemindən də göründüyü kimi haqsız rəqabətə səbəb olan əməllər Azərbaycan Respublikasının

Rəqabət Məcəlləsində, haqsız rəqabətə səbəb olan cinayət əməlləri isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ifadə olunub.

Bundan fərqli olaraq Türkiyə Ticarət Qanununda həm haqsız rəqabətə səbəb olan əməllər, həm də haqsız rəqabət cinayətləri ifadə olunmuş və "Haqsız rəqabət" adı altında bir fəsildə cəmlənmişdir.

Bu təcrübəni müəyyən dərəcədə mill qanunvericiliyə tətbiq etməklə "haqsız rəqabətə səbəb olan cinayətlər" adı altında bu sahədə törədilən cinayətləri bir fəsildə ifadə etmək həm cinayət qanunvericiliyində sistemliliyin yaranmasına, həm də haqsız rəqabətə səbəb olan cinayət əməllərinin dairəsini müəyyən etməyə səbəb olacaqdır.

Qeyd edilən təcrübənin tətbiqi zamanı nəzərə almaq lazımdır ki, Türkiyə Ticarət Qanununun "Haqsız rəqabət cinayətləri" adlanan 62-ci maddəsi göndərici norma olmaqla həmin Qanunun 55-ci maddəsində sadalanan haqsız rəqabətə səbəb olan əməllərə göndəriş edir, 55-ci maddə isə məzmun etibarilə dürüstlük prinsipinə zidd olan əməllərin məhdud şəkildə sadalanmasını deyil, daha çox nümunələr göstərməklə əsas əməlləri sadalayır və haqsız rəqabətə səbəb olan əməllərin sadalanan əməllərlə kifayətlənmədiyini ifadə edir, bu isə cinayət hüququnun əsas prinsiplərindən olan qanunçuluq prinsipi ilə ziddiyyət təşkil edir.

Belə ki, Türk Cəza Qanunun "cinayət və cəzada qanunilik prinsipi" adlı 2-ci maddəsinin birinci bəndində aşağıdakı tənzimləmə yer alır: "Heç kim qanunla açıq-aşkar cinayət sayılmayan əmələ görə cəzalandırıla və ya onun barəsində təhlükəsizlik tədbirləri görülə bilməz" [10].

Analoji prinsip Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir" formasında təsbit edilmişdir.

Bu da onu deməyə əsas verir ki, Türkiyə Ticarət Qanununda yer alan "haqsız rəqabət cinayələri" maddəsi normanın quruluşu baxımından uğurlu ifadə olunsa da, müəyyən qüsurlarla müşayiət olunur. Sözügedən təcrübənin milli qanunvericiliyə tətbiqi zamanı bu çatışmazlıqların nəzərə alınması və cinayət hüququnun ümumi prinsiplərinə uyğun normaların milli qanunvericiliyə daxil edilməsi zəruridir.

Beləliklə, araşdırmanın nəticəsi olaraq bu qənaətə gəlmək olar ki, əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayəti haqsız rəqabətə səbəb olan əməllərdən biri kimi rəqabət qanunvericiliyində və hüquq doktrinasında nəzərdə tutulsa da Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "haqsız rəqabət" anlayışı hüquqi kateqoriya kimi nəzərdə tutulmamış, haqsız rəqabətin yaranmasına səbəb olan cinayət əməlləri iqtisadi fəaliyyət sahəsində olan cinayət əməli kimi kriminallaşdırılmışdır.

Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin İqtisadi sahədə cinayətlər bölməsinə "haqsız rəqabətə səbəb olan cinayətlər" adlı yeni fəsil əlavə edlməli və əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayəti həmin fəsilə əlavə edilməlidir.

Həmçinin şərh edilənlər onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 197-ci maddəsinin adı qüsurludur. Belə ki, maddənin adı "əmtəə nişanlarından qanunsuz istifadə etmə" adlandırılsa da, maddənin dispoziyasında təkcə əmtəə nişanlarından yox, həmçinin xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından, eynicinsli əmtəələrin adına oxşar adlardan qanunsuz istifadə etmə nəzərdə tutulmuşdur. Buna görə də hesab edirik ki, AR Cinayət Məcəlləsinin 197-ci maddəsinin adı dispoziyaya uyğunlaşdırılmalı və ya maddənin adında ümum ifadədən istifadə edilməklə maddəyə Qeyd hissəsi əlavə edilməli və müvafiq ifadəyə izah verilməlidir.

Bundan başqa, əmtəə nişanları və onlardan istifadə sahəsində yaranan ictimai münasibətləri tənzimləyən əsas hüquqi akt qismində çıxış edən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu "xidmət etmə" nişanını ayrıca hüquqi kateqoriya kimi nəzərdə tutmamış, əmtəə nişanı ilə xidmət etmə nişanı arasında bərabərlik işarəsi qoymuşdur. AR Cinayət Məcəlləsinin 197-ci maddəsinin və "Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi"nin şərhi baxımından bu qənaətə gəlmək olar ki, əmtəə nişanı və xidmət etmə nişanı ayrı-ayrı kateqoriyalar olduğu üçün fərqləndirilməli və buna uyğun olaraq "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda "xidmət etmə" və ya "xidmət nişanı" kateqoriyasının ayrıca tənzimlənməsi nəzərdə tutulmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 487 s.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 695 s.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 544 s.
4. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. - Bakı: Hüquq Yayın evi, - 2025, - 128 s.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. - Bakı: Hüquq Yayın evi, - 2023, - 872 s.
6. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/3293
7. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1957-ci il 15 iyun tarixli "Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi" https://frameworks.e-qanun.az/2/f_2029.html
8. "Daxili bazarda ədalətsiz biznes-istehlakçı ticarət təcrübələri"nə dair Avropa Şurasının 11 may 2005-ci il tarixli 2005/29/EC saylı Direktivi https://eur-lex.europa.eu/eli/dir/2005/29/oj/eng
9. Türk Ticaret Kanunu

https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=6102&MevzuatTur=1&MevzuatTertip=5
10. Türk Ceza Kanunu https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5237&MevzuatTur=1&MevzuatTertip=5
11. Самедова Ш.Т. Уголовного право Азербайджанской Республики. Особенная часть: в двух частях. - Баку: Адильоглы, - 2020, - т.1−824 с;
12. Akpınar, E., Haksız Rekabet Düzenlemelerinin Tarihi Gelişimi ve Genişleyen Uygulama ve Koruma Alanı // KTO Karatay Üniversitesi Hukuk Fakültesi Dergisi, - 2019, - 4(1), - s.51-84
13. Kaplan, Ahmet Galip. Elektronik Ortamda İşlenen Haksız Rekabet Halleri, Baskı, - Ankara: Onikilevha, - 2020, - s. 218.
14. Özel, Çağlar & Özdemir, Semih Sırrı. Türk Hukukunda Haksız Rekabete İlişkin Düzenlemeler // Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi, Özel S: 11, 2017, - C: 9, - s. 193;
15. Emrah Uran. Amerika Birleşik Devletleri Rekabet Hukuku: Teori ve Uygulama. Baskı, - İstanbul: Onikilevha, - s. 517
16. Christopher L.Sagers. Antitrust Examples, Explanations, Walter Kluwer Law and Business, Second edition, - 2014
17. Çetin Arslan. Türk Ticaret Kanunu'nda Haksız Rekabet Suçu. / International conference on eurasian economies, Hacettepe Enstitüsü, - 2016, - s.268-272
18. Gürkaynak, Gönenç. Türk Rekabet Hukuku Uygulaması İçin "Hukuk ve İktisat. Perspektifinden "Amaç" Tartışması". – Ankara: Rekabet Kurumu, - 2003,- s.114
19. Hüseyin Ertuğrul. Türk Ceza hukukunda haksız rekabet suçu. // TFM, - 2022, - C: 8, - S: 2, - s. 409-427.

## НЕЗАКОННОЕ ИСПОЛЬЗОВАНИЕ ТОВАРНЫХ ЗНАКОВ КАК ФАКТОР НЕДОБРОСОВЕСТНОЙ КОНКУРЕНЦИИ И ПРЕСТУПНОГО ДЕЯНИЯ

**Х.Р.ГУСЕЙНЗАДЕ**

**РЕЗЮМЕ**

Особое внимание уделяется преступлению, связанному с незаконным использованием товарных знаков, которое включено в раздел «Преступления, совершаемые в сфере экономической деятельности» Особенной части Уголовного кодекса Азербайджанской Республики. Определение состава преступления незаконного использования товарных знаков как одного из преступных деяний, способствующих недобросовестной конкуренции, и анализ его уголовно-правовой характеристики являются одним из наиболее актуальных проблем уголовного права современности. В статье анализируются место преступления незаконного использования товарных знаков, определенных в Уголовном кодексе, и его уголовно-правовая характеристика как одного из преступных деяний, способствующих недобросовестной конкуренции.

**Ключевые слова:** товарный знак, недобросовестная конкуренция, незаконное использование, знак обслуживания, конкурентное право

# ILLEGAL USE OF TRADEMARKS AS ONE OF THE CRIMINAL ACTS CAUSING UNFAIR COMPETITION

**H.R.HUSEYNZADE**

**SUMMARY**

The crime of illegal use of trademarks, which is included in the Chapter of the Special Part of the Criminal Code of the Republic of Azerbaijan on Crimes Committed in the Field of Economic Activity, are particularly distinguished in the system of the Special Part of the Criminal Code. The description of the crime of illegal use of trademarks as one of the acts leading to the creation of unfair competition and the analysis of its criminal-legal features are one of the most relevant issues of criminal law in modern times. This article will consider the place of the crime of illegal use of trademarks as one of the acts leading to unfair competition in the Criminal Code and its criminal-legal features.

**Keywords:** trademark, unfair competition, illegal use, service mark, competition law

UOT 34.349.2

# ƏMƏK MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ ZAMANI HÜQUQİ TƏMİNATLAR

**E.V.MAHMUDOV**
***Bakı Dövlət Universiteti***
***eminvmahmudov@gmail.com***

*Məqalədə AR-in qüvvədə olan əmək qanunvericiliyi əsasında əmək müqaviləsinə xitam verilməsi zamanı hüquqi təminatlarla əlaqədar məsələlər ətraflı təhlil olunur. Qeyd olunur ki, AR ƏM-in 70-ci maddəsində işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin konkret əsaslarının siyahısının təsbiti işdən əsassız çıxarılmaya qarşı təminatlardan biridir. Digər tərəfdən, işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi üçün müəyyən edilən əsasların mövcudluğu və dolğun xarakterə malik olması, işəgötürənin təşəbbüsü ilə əsassız işdən çıxarılmadan işçinin təminatı kimi çıxış edir. Göstərilən təminatlara əməl olunmadıqda işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qanunsuz və əsassız hesab edilir. Məqalədə işəgötürən tərəfindən əmək müqaviləsinin AR ƏM-in 70-ci maddəsi ilə ləğvi zamanı əmək qanunvericiliyində, konkret olaraq 71, 76, 77 və 79-cu maddələrdə təsbit olunmuş hüquqi təminatlar tədqiq olunaraq belə bir nəticəyə gəlinmişdir ki, işdən çıxarılan zaman işçilərin hüquqlarının müdafiəsinin təsirli hüquqi mexanizmi işlənib hazırlanmamışdır və bu səbəbdən işəgötürənlər bir sıra hallarda əmək müqaviləsinə xitam verilməsi zamanı işçilərin hüquqlarının təminatlarına məhəl qoymurlar. Bu istiqamətdə əmək qanunvericiliyinin təkmilləşdirilməsi üçün konkret təkliflər irəli sürülmüşdür.*

**Açar sözlər:** əmək, əmək hüququ, müqavilə, əmək müqaviləsi, işçi, işəgötürən, təminat, hüquqi təminat

Əmək müqaviləsinə xitam verilməsi zamanı təminatlar nəzərdən keçirilərkən BƏT-nin "Sahibkarın təşəbbüsü ilə əmək münasibətlərinə xitam verilməsi haqqında" 158 nömrəli Konvensiyasının (1982-ci il) müddəalarına da müraciət edilməlidir. Onu da qeyd edək ki, Azərbaycan Respublikası BƏT-nin bu Konvensiyasını indiyədək ratifikasiya etməmişdir.

Həmin konvensiyanın 4-cü maddəsinə görə, zəhmətkeş ilə əmək münasibətlərinə, belə xitam üçün qanuni əsaslar yoxdursa, xitam verilmir (4).

BƏT-nin 158 nömrəli Konvensiyasının normaları işçilərin işdən çıxarılmasının konkret əsaslarını ehtiva etmir və bu, onları milli qanunvericilikdə artıq formalaşmış ənənələrə, cəmiyyət və dövlətin mövcud xüsusiyyətlərinə

və tələbatlarına, həmçinin istehsal münasibətlərinin inkişaf səviyyəsinə uyğun olaraq müəyyənləşdirmək imkanı verir. Bununla yanaşı, 158 nömrəli Konvensiya işdən çıxarılmanın qanuniliyini müəyyənləşdirməyə imkan verən bir sıra müddəaları təsbit edir. Xüsusilə də əmək münasibətlərinə xitam verilməsinin əsaslandırılmasına dair normalar müəyyənləşdirilir – buraya zəhmətkeşin bacarıqları və yaxud davranışı ilə əlaqəli olmalı olan, ya da müəssisənin istehsalat zərurətindən irəli gələn qanuni əsasının mövcudluğu şərti aiddir. Konvensiyanın 5-I maddəsində, həmçinin əmək münasibətlərinə xitam verilməsi üçün qanuni əsas hesab edilməyən aşağıdakı səbəblər müəyyənləşdirilmişdir:

- həmkarlar ittifaqına üzvlük və qeyri-iş vaxtında və ya sahibkarın razılığı ilə iş vaxtında həmkarlar təşkilatının fəaliyyətində iştirak (Konvensiyanın 5-ci maddəsinin “a” bəndi);
- hal-hazırda və yaxud keçmişdə zəhmətkeşin nümayəndəsi funksiyasını yerinə yetirmək üşün zəhmətkeşin nümayəndəsi olmaq arzusu (“b” bəndi);
- qanunvericiliyin, yaxud səlahiyyətli orqanlara müraciət qaydasının pozulmasında sahibkarın təqsirləndirilməsi üzrə qaldırılmış işdə iştirak etmək və ya şikayət etmək (”c” bəndi);
- irq, dərinin rəngi, cins, ailə vəziyyəti, hamiləlik, dini etiqad, siyasi baxışlar, etnik mənsubiyyət və yaxud sosial mənşə («d» bəndi);
- sosial məzuniyyət dövründə işdə olmama («e» bəndi);
- xəstəlik və ya zədə səbəbilə işdə müvəqqəti olmama (Konvensiyanın 6-cı maddəsinin 1-ci hissəsi) (3).

AR ƏM-in 70-ci maddəsində işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin konkret əsaslarının siyahısının təsbiti işdən əsassız çıxarılmaya qarşı təminatlardan biridir. Göstərilən məhdudiyyətlərə əmək müqaviləsinə xitam verilməsi əsaslarının müəyyənləşdirilməsinə yanaşmaları aid etmək olar ki, onlar AR ƏM-in 68-ci maddəsinin ikinci hissəsində əmək müqaviləsinə xitam verilməsinin əsasları kimi müəyyənləşdirilmişdir. Azərbaycan SSR-in 1971-ci il ƏQM-dən fərqli olaraq, AR ƏM-də işçilərlə əmək müqaviləsinə xitam verilməsinin əlavə əsasları nəzərdə tutulmamışdır. Lakin AR ƏM əmək müqaviləsinə xitam verilməsinin əsaslarının dolğun siyahısını təsbit etməsə də AR ƏM-in 68-ci maddəsinin ikinci hissəsinin «e» bəndi və 75-ci maddəsinin birinci hissəsi, habelə ikinci hissəsinin «d» bəndi əmək müqaviləsində tərəflərin müqaviləyə xitam verilməsinin əlavə hallarını qarşılıqlı razılıqla müəyyənləşdirmələrinə yol verir.

Digər tərəfdən, işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi üçün müəyyən edilən əsasların mövcudluğu və dolğun xarakterə malik olması, işəgötürənin təşəbbüsü ilə əsassız işdən çıxarılmadan işçinin təminatı kimi çıxış edir.

AR ƏM-in 79-cu maddəsinin birinci hissəsində işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qadağan edilən işçilərin və halların dairəsi müəyyənləşdirilmişdir. İşəgötürən tərəfindən:

hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin;

yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərin;

əmək qabiliyyətini müvəqqəti itirən işçilərin;

işçinin şəkərli diabetlə və ya dağınıq sklerozla xəstə olması səbəbinə görə;

həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə;

öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü olan işçilərin;

məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində işçilərin bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır (1, s.95).

AR ƏM-in 79-cu maddəsinin 2-ci hissəsinə əsasən, bu maddənin birinci hissəsində nəzərdə tutulmuş müddəalar bu Məcəllənin 70-ci maddəsinin «a» bəndi və 73-cü maddəsi ilə xitam verilən hallara şamil edilmir (1, s.95).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 164-cü maddəsi qadının hamiləliyi və himayəsində üç yaşınadək uşağının olması, habelə kişinin üç yaşınadək uşağını təkbaşına böyütməsi səbəbindən onunla əmək müqaviləsinin əsassız ləğv edilməsinə görə məsuliyyət müəyyənləşdirmişdir.

Qanunverici işəgötürən tərəfindən əmək müqaviləsinin bu və ya digər əsasla ləğv edilməsi zamanı tətbiq edilən məcburi təminatlar nəzərdə tutmuşdur. Belə ki, işəgötürən tərəfindən:

1) bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsasların hər hansı biri ilə əmək müqaviləsinin ləğv edilməsinin zəruriliyi əsaslandırılmalı (AR ƏM-in 71-ci maddəsinin 3-cü hissəsi);

2) işçi, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda rəsmi xəbərdar edilməli (AR ƏM-in 77-ci maddəsinin 1-ci hissəsi);

3) işçilərin ixtisarı zamanı bəzi işçilərin işdə saxlanmağa olan üstünlüyü təmin olunmalı (AR ƏM-in 78-ci maddəsi);

4) bəzi kateqoriya işçiləri sonrakı işədüzəlmə üçün öz vəsaiti hesabına yenidən peşə hazırlığına cəlb etməli (AR ƏM-in 77-ci maddəsinin 8-ci hissəsi);

5) həmkarlar ittifaqının üzvü olan işçinin əmək müqaviləsinə AR ƏM-in 70-ci maddəsinin b) və ç) bəndlərində göstərilən əsaslarla xitam verildikdə,

müəssisədə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatının qabaqcadan razılığı alınmalı (AR ƏM-in 80-ci maddəsinin 1-ci hissəsi);

6) əmək müqaviləsi bu Məcəllənin 70-ci maddəsinin "a" və "b" bəndləri ilə ləğv edilərkən işçiyə, həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq müvafiq işdənçıxarma müavinəti ödənilməli (AR ƏM-in 77-ci maddəsinin 3-cü hissəsi);

7) əmək müqaviləsinin ləğvi üçün əsas olmuş intizam tənbeh tədbirinin tətbiqi şərtlərinə əməl edilməlidir (AR ƏM-in 71-ci maddəsinin 2-ci hissəsi).

Bu təminatlara riayət edilmədikdə, işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qanunsuz və əsassız sayıla bilər. Göstərilən təminatlar əmək müqaviləsinə təşkilati-istehsal səbəblərilə xitam verilməsi zamanı, xüsusilə önəmlidir. Belə ki, AR ƏM-in 70-ci maddəsinin "b" bəndi ilə əmək müqaviləsinin ləğv edildiyi zaman bu təminatların hamısı tətbiq edilir. Sadalanan təminatlardan sonuncusu intizam tənbehi qaydasında əmək müqaviləsinin ləğv edilməsi zamanı (AR ƏM-in 70-ci maddəsinin "ç" bəndi) tətbiq edilə bilər. Bu təminatlardan bəziləri işəgötürən tərəfindən əmək müqaviləsinə yalnız ayrı-ayrı əsaslara görə xitam verildikdə (məsələn, həmkarlar ittifaqı təşkilatının qabaqcadan razılığının alınması) əhəmiyyətə malikdir.

BƏT-in "Müəssisələrdə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" 135 nömrəli Konvensiyasının (1971-ci il) 1-ci maddəsinə görə, işçilərin nümayəndələri və onların statusuna və ya işçilərin onların nümayəndələri kimi fəaliyyət göstərməsinə və ya onların həmkarlar ittifaqının üzvü olmasına və ya mövcud qanunvericiliyə və ya kollektiv müqaviləyə və ya digər razılaşdırılmış şərtlərə uyğun ölçüdə hərəkət etmək, həmkarlar ittifaqının fəaliyyətində iştirak etməsinə əsaslanaraq işdən çıxarılması da daxil edilməklə, onlara zərər gətirə bilən hər hansı bir hərəkətdən səmərəli müdafiədən istifadə edirlər (2, s.431).

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisinin 1999-cu il 3 iyul tarixli Qərarı ilə Azərbaycan Respublikası bu Konvensiyaya qoşulmuşdur.

AR ƏM-in 70-ci maddəsinin b) və ç) bəndlərində göstərilən əsaslarla işəgötürən tərəfindən həmkarlar ittifaqının üzvü olan işçinin əmək müqaviləsi, müəssisədə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatının qabaqcadan razılığı alınmaqla ləğv edilir. Həmkarlar ittifaqının üzvü olan işçinin əmək müqaviləsini bu maddənin 1-ci hissəsində nəzərdə tutulan hallardan hər hansı biri ilə əlaqədar ləğv etmək istəyən işəgötürən həmin müəssisənin həmkarlar ittifaqı təşkilatına əsaslandırılmış yazılı təqdimatla müraciət edir. Təqdimata müvafiq əsaslandırma sənədləri əlavə edilir. Həmkarlar ittifaqı təşkilatı bu təqdimatın daxil olduğu gündən ən geci on gün müddətində özünün əsaslandırılmış yazılı qərarını işəgötürənə təqdim etməlidir (ƏM-in 80-ci

maddəsinin birinci və ikinci hissələri). Belə əsaslandırma olmadığı halda, mülkiyyətçi və ya işəgötürən işçilərin nümayəndəli orqanının rəyini nəzərə almadan işçilərlə əmək müqaviləsini ləğv etmək hüququna malikdir.

Həmkarlar ittifaqlarının beynəlxalq sahə birliklərinin bir sıra rəhbərlərinin fikrincə, əsaslardan asılı olmayaraq həmkarlar ittifaqları işçilərin işdən çıxarılmasına razılıq verməməlidir, çünki bu, həmkarlar ittifaqlarının təyinatına – işçilərin sosial-əmək hüquqlarının və mənafelərinin müdafiəsinin həyata keçirilməsinə ziddir (6, s.9).

Fikrimizcə, belə bir normanın AR ƏM-ə də daxil edilməsi tamamilə məqsədəuyğundur, çünki hazırda işdən çıxarılan zaman işçilərin hüquqlarının müdafiəsinin təsirli hüquqi mexanizmi işlənib hazırlanmamışdır, işəgötürənlər isə bir sıra hallarda qanunvericiliyin əmək müqaviləsinə xitam verilməsi ilə əlaqədar işçilərin hüquqlarına, təminat və kompensasiyalarına riayət olunmasına dair tələblərinə məhəl qoymurlar.

Azərbaycan Respublikasının əmək qanunvericiliyində işçilərlə əmək müqaviləsinə xitam verilməsinin digər təminatları da müəyyənləşdirilmişdir. Belə ki, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda, AR ƏM-in 70-ci maddəsinin "b" bəndi ilə işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl işçi işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsi (əmək müqavilələri) əsasında müəyyən olunan əmək stajından asılı olaraq, xəbərdarlıq müddəti ərzində hər iş həftəsində əmək haqqı saxlanılmaqla, iş axtarmağa imkan yaradılması məqsədi ilə azı bir iş günü əmək funksiyasının icrasından azad edilir (AR ƏM-in 77-ci maddəsinin ikinci hissəsi).

Beləliklə, əmək müqaviləsinə qanunsuz xitam verilməsinə qarşı əsas təminat qismində qanunvericilik səviyyəsində müəyyən olunan işdən çıxarılmanın əsaslarının mövcudluğu çıxış edir. Əmək hüququ metodunun xüsusiyyətinin əmək münasibətlərinin dövlət və müqavilə tənzimləməsinin əlaqələndirilməsi (uzlaşdırılması) olduğunu nəzərə alaraq, A.P.Pantyuxinanın belə bir fikrini ədalətli qəbul etmək lazımdır ki, "əmək müqaviləsinə xitam verilməsi sahəsində dövlət tənzimləməsi üstünlük təşkil edir" (7, s.11). Bu, işçiyə müvafiq müdafiə təqdim etməklə, əmək müqaviləsinin ləğv edilməsinin qanuni və əsaslandırılmış olmasının ən mühüm təminatıdır.

Əmək müqaviləsinə xitam verilməsinin əmək qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydasına riayət olunması əmək müqaviləsinin qanunsuz ləğv edilməsinin qarşısını alan təminatlardan biridir.

"İşdən çıxarılma qaydası" dedikdə, adətən, əmək müqaviləsinə konkret əsasa görə xitam verilməsi qaydaları nəzərdə tutulur (belə qaydalar qanunverici, digər akt, əmək müqaviləsi ilə xüsusi olaraq müəyyən edildiyi halda). Lakin o, əmək müqaviləsinə xitam verilməsinin heç də bütün əsasları üçün dəqiq fərqləndirilməmişdir. Əmək müqaviləsinə xitam verilməsi qaydası və

ona xitam verilən zaman müvafiq təminatları fərqləndirmək heç də asan deyildir. Axı, özlüyündə əmək müqaviləsinin ləğv edilməsi qaydası, mahiyyət etibarı ilə əmək müqaviləsinin ləğv edilməsi zamanı müəyyən təminatlardan formalaşır. Eyni zamanda, konkret əsasa görə əmək müqaviləsinin ləğv edilməsi qaydasında nəzərdə tutulmayan, lakin tətbiq olunan ümumi təminatlar vardır.

Bundan başqa, əmək müqaviləsinə qanuni şəkildə xitam verilməsini təhlil edərkən müqavilənin ləğv edilməsi qaydası və müvafiq təminatlarla sıx bağlı olan elementləri nəzərə almamaq olmaz; məsələn, əmək müqaviləsinin ləğv edilməsinin – əmək kitabçasının verilməsi, müəyyən olunmuş hallarda işdənçıxarma müavinəti və kompensasiya ödənilməsi də daxil olmaqla rəsmiləşdirilməsi. Bu səbəbdən, bir çox hallarda əmək müqaviləsinin ləğv edilməsini daha geniş şərh edərək, oraya sadalanan bütün elementləri daxil edirlər.

İşəgötürən işçini əmək və icra intizamını pozduğuna görə işdən çıxarmaq barədə qərar qəbul edərkən, hüquqi məsuliyyətə cəlb olunmanın ümumi prinsiplərindən çıxış edərək (AR ƏM-in 70-ci maddəsinin «ç» bəndi) işçinin şəxsiyyətini, kollektivdə nüfuzunu, peşəkarlıq səviyyəsini, habelə onun törətdiyi xətanın xarakterini nəzərə almalıdır.

Bu prinsiplərə riayət edilməsi göstərilən əsasla əmək müqaviləsinin ləğv edilməsi zamanı işçinin əmək müqaviləsinə qanunsuz və əsassız xitam verilməməsi üçün təminatdır.

İşçinin işdən qeyri-qanuni çıxarılmasının qarşısını alan digər mühüm təminat işəgötürən tərəfindən zor işlədilərək, hədə qorxu gələrək, yaxud hər hansı başqa üsulla onun iradəsinin əleyhinə əmək müqaviləsini ləğv etməyə məcbur edilməsinin qadağan olunmasıdır (AR ƏM-in 69-cu maddəsinin yeddinci hissəsi). Lakin işçi, işəgötürən tərəfindən iradəsinin əleyhinə olaraq əmək müqaviləsinin ləğv edilməsinə istinad edərək, işə bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət etdikdə, belə məcburetmə barədə sübutların təqdim olunması ilə bağlı problemlər mövcuddur.

Şübhəsiz, əmək münasibətlərində, xüsusilə də yaşı 18-dən az olan işçilərlə işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi zamanı əlavə təminatlar nəzərdə tutulmuşdur. Məsələn, artıq yuxarıda da qeyd edildiyi kimi, AR ƏM-in 77-ci maddəsinin 8-ci hissəsinə görə, işəgötürənlər iş yerlərinin ixtisarı ilə əlaqədar işdən azad olunmuş “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaq, habelə onların arasından olan şəxs hesab edilən işçiləri sonradan həmin müəssisədə və ya digər müəssisədə işə düzəltmək üçün öz vəsaitləri hesabına zəruri yeni peşə hazırlığına cəlb edirlər. Fikrimizcə, bu təminatı yalnız göstərilən kateqoriyaya

deyil, həm də yaşı 18-dən az olan bütün işçilərə şamil etmək daha məqsədəuyğundur. Bu da öz növbəsində, yaşı 18-dən az olan işçilərin məşğulluğuna təminatların yüksəlməsinə yardımçı olacaqdır.

Beləliklə, əmək müqaviləsinə xitam verilməsi aşağıdakı hallarda qanuni sayılır:

1) AR ƏM ilə nəzərdə tutulmuş əsas mövcuddur. İstisna kimi, AR ƏM-in 75-ci maddəsinin tələblərinə riayət etməklə əmək müqaviləsinə xitam verilməsi üçün müqavilənin özündə əlavə əsaslar nəzərdə tutula bilər;

2) faktiki hallar əmək müqaviləsinə xitam verilməsinin seçilmiş əsasına müvafiqdir;

3) AR ƏM ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi şərtlərinə əməl olunmalıdır;

4) əmək müqaviləsinin ləğv edilməsinin zəruriliyi əsaslandırılmalıdır;

5) əmək müqaviləsinin ləğv edilməsi barədə əmrin məzmunu AR ƏM-in 84-cü maddəsinin birinci hissəsinin tələblərinə uyğun olmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, - 2025, - 360 s.
2. BƏT-nin "Müəssisədə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" 135 nömrəli Konvensiya/Beynəlxalq Əmək Təşkilatı. Konvensiyalar və tövsiyələr. - Bakı, - 1996, - s. 431-434
3. Конвенция Международной Организации Труда N 158 "О прекращении трудовых отношений по инициативе предпринимателя" (1982)/Конвенции и Рекомендации (1987-1990 г.г.). В 2-х т. Т II. - Женева, - 1991, - с.1984-1985
4. Конвенция Международной Организации Труда № 158 о прекращении трудовых отношений по инициативе предпринимателя (1982)/Конвенции и Рекомендации (1987-1990 г.г.). В 2-х т. Т II. - Женева, - 1991, -с. 1983-1989
5. Новости профсоюзного движения // Профсоюзы, - 2013, - № 9, - с. 9-17
6. Орловский Ю.П. Нуртдинова А.Ф., Чиканова Л.А. Настольная книга кадровика: юридические аспекты. - Москва: ИНФРА-М, - 2011, - 715 с.
7. Пантюхина А.П. Расторжение трудового договора по инициативе работодателя по основаниям, связанным с виновным поведением работника (теоретические и практические проблемы): Автореф. дис. … канд.юр. наук. - Москва, - 2013, - 28 с.


## ПРАВОВЫЕ ГАРАНТИИ ПРИ РАСТОРЖЕНИИ ТРУДОВОГО ДОГОВОРА


**Э.В.МАХМУДОВ**


## РЕЗЮМЕ


В статье подробно анализируются вопросы, связанные с правовыми гарантиями при расторжении трудового договора на основании действующего трудового законодательства АР. Отмечается, что установление в статье 70 ТК АР перечня конкретных оснований расторжения трудового договора работодателем является одной из гарантий против необоснованного увольнения работника с работы. С другой стороны, наличие и полноценный характер оснований, установленных для расторжения трудового

договора работодателем, выступает в качестве гарантии без необоснованного увольнения работника по инициативе работодателя. Расторжение трудового договора работодателем при несоблюдении указанных гарантий считается незаконным и необоснованным. В статье были рассмотрены правовые гарантии, установленные в трудовом законодательстве при расторжении работодателем трудового договора по статье 70 ТК АР , в частности, в статьях 71, 76, 77 и 79, и сделан вывод о том, что эффективный правовой механизм защиты прав работников при увольнении не разработан, и поэтому работодатели в ряде случаев игнорируют гарантии прав работников при расторжении трудового договора. В этом направлении были выдвинуты конкретные предложения по совершенствованию трудового законодательства.

**Ключевые слова**: труд, трудовое право, договор, трудовой договор, работник, работодатель, гарантия, юридическая гарантия

## LEGAL GUARANTEES IN CASE OF TERMINATION OF AN EMPLOYMENT CONTRACT

**E.V.MAHMUDOV**

### SUMMARY

The article analyzes in detail the issues related to legal guarantees in case of termination of an employment contract on the basis of the current labor legislation of the Republic of Azerbaijan. It is noted that the establishment in Article 70 of the Labor Code of the Republic of Azerbaijan of a list of specific grounds for termination of an employment contract by an employer is one of the guarantees against unjustified dismissal of an employee from work. On the other hand, the existence and full-fledged nature of the grounds established for termination of the employment contract by the employer acts as a guarantee without unjustified dismissal of the employee at the initiative of the employer. Termination of an employment contract by an employer in case of non-compliance with these guarantees is considered illegal and unjustified. The article reviewed the legal guarantees established in labor legislation upon termination of an employment contract by an employer under Article 70 of the Labor Code of the Republic of Azerbaijan, in particular, in articles 71, 76, 77 and 79, and concluded that an effective legal mechanism for protecting employees' rights upon dismissal has not been developed, and therefore employers in some cases ignore guarantees of employees' rights upon termination of an employment contract. In this direction, specific proposals have been put forward to improve labor legislation.

**Keywords:** labor, labor law, contract, employment contract, employee, employer, guarantee, legal guarantee

## POLİTOLOGİYA

**UOT 5901.01**
**Orcid id: 0009-0002-2187-3962**

# ÇİN XALQ RESPULİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ VƏ BU SAHƏDƏKİ UĞURLU TƏCRÜBƏSİ

**A.M.MƏMMƏDOVA**
***Azərbaycan Dillər Universiteti***
***La.lune.nur@gmail.com***

*Çin Xalq Respublikasında ərzaq təhlükəsizliyi məsələləri yalnız yerli kontekstdə deyil, həm də qlobal ərzaq təhlükəsizliyi ilə də sıx bağlıdır. Bu mövzu həm daxili siyasətdə, həm də beynəlxalq əlaqələrdə mühüm əhəmiyyət kəsb edir. Çində ərzaq təhlükəsizliyi məsələsi həm hökumətin, həm də ictimaiyyətin diqqət mərkəzində olan ən mühüm məsələlərdən biridir. ÇXR dünyanın ən böyük əhali kütləsinə sahib olmaqla yanaşı, həm də böyük kənd təsərrüfatı ölkəsidir. Bu səbəbdən də, ərzaq təhlükəsizliyi ölkənin davamlı inkişafı və ictimai sabitliyi üçün həyati əhəmiyyət kəsb edir. Hazırkı dövrdə ərzaq təhlükəsizliyi məsələsi qlobal problem olduğundan ÇXR-də də bu məsələ ilə bağlı müxtəlif iqtisadi, ekoloji və sosial faktorlardan qaynaqlanan bir sıra problemlər mövcuddur və bunlar ölkənin ərzaq təminatında davamlılıq yaratmaq üçün ciddi maneələr törədir.*

*Müasir dövrdə ölkə həm də kənd təsərrüfatı üçün lazım olan torpaq və su resurslarının məhdudluğu ilə üzləşir. Digər tərəfdən, içməli suyun qıtlığı, mövcud su ehtiyatlarının tez-tez müxtəlif səbəblərdən çirkləndirilməsi bir sıra ciddi sosial problemlərə gətirib çıxarır.*

*Müasir dövrdə Çin hökumətinin qarşısında duran ən vacib problemlərdən biri də ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi məsələsidir ki, məqalədə buna xüsusi diqqət yetirilmişdir. Eyni zamanda adıçəkilən problemlərlə əlaqədar görülən tədbirlər, qəbul edilən qanunvericilik aktları araşdırılmış və ölkəmizdə də qida israfçılığının qarşısının alınması üçün bu ölkənin təcrübəsindən yararlanmağın faydaları əsaslandırılmışdır.*

*Mövzunun tədqiqi üçün məzmun analizi, müqayisə, həmçinin fənlərarası yanaşma metodlarından istifadə olunmuşdur.*

**Açar sözlər:** Çin Xalq Respublikası (ÇXR), Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsi (ÜXNY DK), ərzaq təhlükəsizliyi, ərzaq ticarəti "savaş"ları, qida tullantıları.

## Giriş

Müasir dövrdə qlobal iqlim dəyişikliyi, torpaq resurslarının azalması, ərzaq idxalı, ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi Çin Xalq Res-

publikasının ərzaq təminatında davamlılıq yaratmaq üçün ciddi maneələrdəndir. Çin iqlim dəyişikliyinin təsirlərinə qarşı həssas olan ölkələrdəndir. Zərərli hava şəraiti, quraqlıq, daşqınlar və digər təbii fəlakətlər kənd təsərrüfatı məhsuldarlığını ciddi şəkildə təhdid edir. Digər tərəfdən isə sürətli urbanizasiya və sənayeləşmə torpaq resurslarının azalmasına səbəb olub. Bu proses kənd təsərrüfatı üçün yararlı olan torpaq sahələrinin azalmasına gətirib çıxarır və nəticədə ərzaq istehsalının reallaşmasına da mənfi təsir göstərərək onun həcminin azalmasına səbəb olur.

Ölkə həm də kənd təsərrüfatı üçün lazım olan su resurslarının məhdudluğu ilə üzləşir. Su çatışmazlığı bəzi bölgələrdə məhsul istehsalını çətinləşdirir və kənd təsərrüfatı istehsalının davamlılığını təhlükə altına qoyur. İqlim dəyişikliyi ilə əlaqədar su ehtiyatlarının azalması vəziyyəti daha da ağırlaşdırır. Buna görə də ölkədə su resurslarının idarə edilməsi üçün qanunvericilik tədbirləri görülüb və su ehtiyatlarının səmərəli istifadəsi üçün suvarma sistemləri modernləşdirilir.

Ölkədə ən çox narahatlıq doğuran məsələlərdən biri də ərzaq məhsullarının istehsalı sahəsində olan saxtakarlıqlar və onun nəticəsində yaranan problemlərdir.

## 1. ÇXR-in su və torpaq ehtiyatları və ətraf mühit problemləri

Çin Xalq Respublikasının Su Qanunu yeni redaksiyada 9-cu çağırış Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin (ÜXNY DK) 29 avqust 2002-ci il tarixli 29-cu iclasında qəbul edilmişdir. Çin Xalq Respublikası Sədrinin 29 avqust 2002-ci il tarixli 74 nömrəli Fərmanı ilə dərc edilmiş və 2002-ci il oktyabrın 1-dən qüvvədədir [9, s. 18].

2002-ci il Qanununda su ehtiyatlarına qənaət edilməsinin və onların uzunmüddətli istifadəsi imkanlarının təmin edilməsinin vacibliyi xüsusi vurğulanır. Qanunun 8-ci maddəsinin müddəaları təsbit edir ki, bütün səviyyələrdə xalq hökumətləri sudan qənaətlə istifadə sahəsində tənzimləməni gücləndirmək üçün lazımi tədbirlər görməyə borcludurlar və bütün təşkilatlar və vətəndaşlar sudan qənaətlə istifadə etmək üçün məsuliyyət daşıyırlar [9, s. 19].

Qeyd etmək lazımdır ki, su ehtiyatları birmənalı olaraq dövlət mülkiyyətidir. Kənd kollektiv təsərrüfat təşkilatlarının su ehtiyatlarına dair kollektiv mülkiyyəti ləğv edilib. Bu təşkilatların ərazisində yerləşən gölməçələrin və su anbarlarının suları istifadə hüququ ilə onlara məxsusdur (maddə 3) [9, s. 20].

25 dekabr 2010-cu ildə Çin Xalq Respublikasının Su və Torpağın Mühafizəsi Haqqında Qanunu yeni redaksiyada qəbul edilib və 1 mart 2011-ci ildə qüvvəyə minib. Belə bir qanun ilk dəfə 29 iyun 1991-ci ildə qəbul edilmiş, 27 avqust 2009-cu ildə isə dəyişikliklər edilmişdir. Qanun 7 fəsildən, 60 maddədən ibarətdir və "suyun və torpağın yuyulmasının qarşısının alınması və normallaşdırılması, su və torpaq ehtiyatlarının qorunması və səmərəli istifadəsi, su fəlakətlərinin, quraqlıqların, qum fırtınalarının azaldılması, eko-

loji vəziyyətin yaxşılaşdırılması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə” qəbul edilmişdir (1-maddə) [9, s. 189].

Qeyd etmək lazımdır ki, ekoloji şərait baxımından Çin dünyada analoqu olmayan ölkədir. Çünki o, təbii sərvətlərlə həm çox zəngin, həm də onlara ciddi ehtiyacı olan ölkədir. Bunun səbəbi, əlbəttə ki, ölkənin kolosal əhali sayıdır, lakin səbəb təkcə bu deyil. ÇXR-in son dərəcə sürətli iqtisadi artımı ümumdövlət ekoloji siyasəti ilə düzgün uzlaşdırılmamış və bu siyasətin özü də düzgün formalaşdırılmamışdır. Demək olar ki, o, böyük dərəcədə səhv idi, çünki problemlərin perspektivdə təxirə salınmasını nəzərdə tuturdu. Xüsusilə ekoloji problemlərin qlobal əhəmiyyət kəsb edərək yaşamaq probleminə çevriləcəyi nəzərə alınmırdı. Nəticə isə ondan ibarətdir ki, Çin Şərqi Asiyanın ekoloji problemlərinin mərkəzinə çevrilib.

70-ci illərin ortalarına qədər ÇXR ölkə ərazisinin hər yerində təmiz yaşayış mühitinə malik ölkə hesab olunurdu. Sonra vəziyyət sürətlə pisləşməyə başladı. 70-ci illərin sonlarında Çin rəhbərliyi sürətləndirilmiş iqtisadi inkişaf kursu elan etdi, lakin ən mühüm təbii ehtiyatların bəzilərinin məhdudluğunu lazımınca qiymətləndirmədi. Nəticədə, Çində ətraf mühitin çirklənməsinin artması, pisləşməsi və dağıdılması uçquna bənzər bir sxem izlədi və artıq 80-ci illərin sonlarına qədər elə miqyasa çatdı ki, bu da təsərrüfat artımının çox yüksək tempinin stimullaşdırılmasını və yeni inkişaf strategiyasının hazırlanmasını tələb etdi. Ekoloji vəziyyətin pisləşməsi, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqlarının azalması səbəbindən Çinə dəyən illik zərər, 8 illik antiyapon müharibəsi zamanı ölkənin uğradığı maddi itkilərlə müqayisə edilə bilər [9, s. 55].

Çin yanan kömür həcminə görə dünya rekorduna sahibdir. 76 şəhərin havasında aparılan araşdırma son dərəcə yüksək çirklənmə səviyyəsini göstərmişdir. Bu şəhərlərin atmosferində zərərli maddələrin miqdarı üçün icazə verilən maksimum normalar 6-7, hətta 10 və daha çox dəfə aşılır. Turşu yağışı bütün Çinə yayılaraq, sıx məskunlaşılan ərazilərin dörddə birinə təsir edib. Bundan əlavə, Çin bu göstərici üzrə ABŞ-ı geridə qoyaraq, istixana qazlarının əsas istehsalçısına çevrilib. Bu, ÇXR-in beynəlxalq nüfuzunun azalmasına və Qərb dövlətlərinin təzyiqinin artmasına səbəb olmuşdur. Hazırda ÇXR-in dövlət ekoloji siyasətinin əsas prioritetləri bunlar ibarətdir: “aşağı karbon iqtisadiyyatı”nın yaradılması və istixana qazları tullantılarının azaldılması, ekoloji problemlər zəminində sosial gərginliyin azaldılması və resirkulyasiya iqtisadiyyatının formalaşdırılması, yəni tullantısız texnologiyaların yaradılması və geniş yayılması [9, s. 56].

Buna görə də ölkədə ekoloji mühitin qorunması üçün 8 fəsil, 33 maddədən ibarət qanun qəbul edilmişdir. Çin Xalq Respublikasının Bərpaolunan Enerji Mənbələri haqqında Qanunu 10-cu ÜXNY Daimi Komitəsinin 28 fev-

ralda keçirilən 14-cü iclasında qəbul edilmiş və 2006-cı il yanvarın 1-dən qüvvəyə minmişdir [9, s. 55].

Fevralın 28-də 10-cu ÜXNY Daimi Komitəsinin 32-ci iclasında isə "Suyun çirklənməsinin qarşısının alınması haqqında" Çin Xalq Respublikasının Qanununa dəyişikliklər qəbul edilib. Qanunun yeni redaksiyası 2008-ci il iyunun 1-dən qüvvəyə minmişdir. Suyun çirklənməsinin qarşısının alınması haqqında Çin Xalq Respublikasının Qanunu ilk dəfə 1984-cü il mayın 11-də ÜXNY Daimi Komitəsinin 6-cı çağırışının 5-ci iclasında qəbul edilmiş və daha əvvəl isə 1996-cı il mayın 15-də 8-ci ÜXNY Daimi Komitəsinin 19-cu iclasında düzəliş edilmişdir. Qanun 8 fəsil, 92 maddədən ibarətdir.

Su təchizatı və suyun sənaye müəssisələrindən atılan tullantılarla çirklənməsi problemi Çin üçün həyati əhəmiyyət kəsb edir, buna görə də qəbul edilmiş Qanunda nəzərdə tutulmuş müddəaların pozulmasına görə hüquqi məsuliyyət tədbirlərinə, o cümlədən cinayət məsuliyyətinə xüsusi diqqət yetirilir (7-ci fəsil, maddə 69-90) [9, s.131].

İqtisadiyyatın, xüsusilə sənayenin sürətli inkişafı istər-istəməz ətraf mühitin ciddi şəkildə pisləşməsinə gətirib çıxarmış və əhalinin fiziki və psixosomatik vəziyyətinə son dərəcə arzuolunmaz təsir göstərir. Bütün yüksək inkişaf etmiş dövlətlər onları böyük ölçüdə aradan qaldırmağa və ya yumşaltmağa nail olaraq bu əlverişsiz amillərdən nisbətən keçiblər. İndi Çin bu yolla gedir, lakin nisbi rahatlıqla firavan mərhələyə çatmaq şansı praktiki olaraq yoxdur. Dünyanın ən sıx məskunlaşılmış ölkəsi o qədər sürətlə inkişaf edir ki, böyük ətalətə malik olan mümkün kompensasiya mexanizmlərindən lazımi səviyyədə istifadə oluna bilmir. Üstəlik, əvvəlki kimi nisbətən təmiz xammal və enerji resurslarına çıxış imkanları yoxdur. Həm də əlverişsiz və getdikcə pisləşən iqlim vəziyyətini, həddindən artıq məskunlaşmanı, əhalinin böyük hissəsinin aşağı həyat səviyyəsini, boş torpaqların çatışmazlığını, epidemioloji vəziyyətin pisləşməsini və daha çoxunu nəzərə almaq lazımdır. Çin islahatlarının ilk iki onilliyi ərzində sürətli iqtisadi artım kütləvi sosial həvəslə müşayiət olunurdu. Yaranan ekoloji problemlər, ümumiyyətlə, müvəqqəti və ikinci dərəcəli hadisələr kimi qəbul edilirdi. Bununla belə, 90-cı illərin ortalarından etibarən vəziyyət kökündən dəyişməyə başladı. Çin vətəndaşlarının əksəriyyəti başa düşməyə başladılar ki, ətraf mühitin getdikcə pisləşən vəziyyəti o qədər böyük ziyan vurur ki, bu, tezliklə bir çox iqtisadi nailiyyətləri dəyərsizləşdirə bilər. 2000-ci ildən sonra vəziyyətlə bağlı bu təsəvvür çox sürətlə yayılmağa başladı və hazırda problemə mənfi münasibətin hökm sürdüyünü hesab etmək olar.

2009-cu il yanvarın ortalarında Çin Ekoloji Mədəniyyətin Təşviqi Cəmiyyətinin dərc etdiyi hesabata əsasən Çin əhalisinin 80%-i ətraf mühitin vəziyyətindən narazıdır və cəmi iki il ərzində ölkədə ekoloji problemi çox ciddi hesab edən vətəndaşların payı 10% artaraq 76,4% təşkil edib. [9, s.132].

Qanunun yeni variantı Çin xalqının həyatına və sağlamlığına, bütövlükdə Çin dövlətinin uğurlu inkişafına əhəmiyyətli təsir göstərən ekoloji problemlərə qarşı mübarizədə ÇXR rəhbərliyinin xəttini davam etdirir. Belə ki, ölkə rəhbərliyi də eyni mövqedən çıxış edir. 2008-ci ilin martında Çin Xalq Siyasi Məşvərət Şurasının növbəti sessiyasının Milli Komitəsinin iclasında hökumətin işi ilə bağlı hesabatında Baş nazir Ven Çzyabao qeyd etmişdir ki, sürətləndirilmiş iqtisadi artım naminə ətraf mühitin irimiqyaslı çirklənməsinə yol verilməsinin davam etdirilməsi qəbuledilməzdir və "dağların daha yaşıl, suların daha təmiz, səmanın daha mavi olması üçün enerji resurslarına qənaət etmək və ətraf mühitin qorunması ilə yorulmadan məşğul olmaq" lazımdır [9, s.133].

Suların çirklənməsi, ətraf mühitin və ərzaqların keyfiyyətinin korlanması Çində də əhalinin sağlamlığında özünü yetərincə büruzə verib. Belə ki, İçjen bölgəsindəki tibb müəssisələri xərçəng xəstəliklərinin sayının 64% və tənəffüs orqanları xəstəliklərinin 39% artdığını qeyd ediblər [9, s.135].

Quansi-Çjuan Muxtar Dairəsində Xuançzyan çayında baş verən hadisələr geniş əks-səda doğurmuşdur. 2001-ci ildə orada böyük bir bəndin suyu daşmışdır. Məlum olmuşdur ki, bu sular dağ-mədən emalı müəssisələrinin tullantıları ilə son dərəcə çirklənib. Ağır metalların, ilk növbədə, arsen, mis və sinkin tərkibi, xüsusilə yüksək idi. Nəticədə bir çox ailələrin yeganə dolanışıq vasitəsi olan ən münbit torpaqlardan 5 min mu ("mu" ənənəvi Çin ərazi ölçüsüdür, hazırda hektarın 1/15-ə bərabərdir, yəni 0,0667 ha və ya 667 $m^2$) dövriyyədən çıxarılmışdır [9, s.135].

Kəskin narazılığa səbəb olan ən ciddi ekoloji problem su ehtiyatlarının çirklənməsi və içməli suyun çatışmazlığıdır. Çin su ehtiyatlarının mövcudluğuna görə dünyada altıncı yerdədir. Adambaşına düşən göstərici üzrə ekspert hesablamalarına görə, bu nəhəng ölkə 88-ci yerdədir. Müasir sivilizasiyalı sosial-iqtisadi həyatın minimum göstəricisi adambaşına 30 kilo kubmetr su ehtiyatı və adambaşına 11 kilo kubmetr ümumdünya göstəricisi olduğu halda, Çində bu, cəmi 2,7 kilo kubmetr təşkil edir. Suların gəlişinin ərazi və mövsümi bölgüsü də son dərəcə qeyri-optimaldır. Hazırda Çinin 300 şəhərində ciddi su qıtlığı yaşanır. Təmiz və ya texniki cəhətdən təmiz su çatışmazlığı problemin yalnız bir tərəfidir. İkincisi, Çində mövcud su ehtiyatlarının iki istiqamətdə − məişət tullantı sularından və sənaye çirklənməsi rekord səviyyədədir. 1970-ci illərdə Çində gündəlik məişət və sənaye maye axınlarının həcmi 30 milyon ton, 1980-ci illərdə 75 milyon ton, 1990-cı illərin sonunda isə 100 milyon tondan çox olmuşdur. Hazırda bu hədd göstəricisi təxminən bir yarım dəfə artmışdır. Maye axınlarının təxminən 80%-i çaylara, göllərə və digər su hövzələrinə təmizlənmədən axıb gedir. Zərərli və çirkləndirici maddələrin maksimum icazə verilən konsentrasiyalarının 124 dəfə aşılması halları qeyd olunub ki, bu da mütləq dünya rekordudur. Rəsmi məlumata görə, Çində su

çatışmazlığından təxminən 300 milyon insan əziyyət çəkir. Lakin görünür ki, bu rəqəm son dərəcə aşağı səviyyədədir. Çinin Su Təsərrüfatı Nazirliyinin məlumatına görə, Çinin böyük şəhərlərinin təxminən üçdə ikisi ciddi su çatışmazlığı yaşayır. Statistika göstərir ki, ən çətin vəziyyət çox vaxt əhalini içməli su ilə təmin edə bilməyən 100-ə yaxın şəhərdə müşahidə olunur. Sənaye obyektləri də kəskin çatışmazlıq yaşayır. Orta, kiçik şəhərlərdə və qəsəbələrdə vəziyyət çətin ki, daha yaxşı ola: onların əhəmiyyətli bir hissəsində həddindən artıq məskunlaşma amili olmasa da, onlarda su təmizləmə və su təchizatı üçün daha müasir texniki baza yoxdur. Çox vaxt isə belə yaşayış məntəqələrində və aqlomerasiyalarda mükəmməl olmayan su təchizatı sistemi, xüsusuilə həddindən artıq məskunlaşma ilə çətinləşir [9, s.136].

2007-ci ilin avqustunda Baş nazir Ven Çzyabaonun sədrliyi ilə Dövlət Şurasının Daimi Komitəsinin xüsusi iclası keçirilmiş və burada vətəndaşların yüksək keyfiyyətli içməli su ilə təminatı problemi müzakirə edilmişdi. İclasda qeyd olunmuşdur ki, son illər Çin şəhərlərində sutəmizləyici qurğuların və su təchizatı şəbəkələrinin tikintisi və yenidən qurulması istiqamətində mühüm irəliləyişlər əldə olunub. Bununla belə, bəzi şəhərlərdə içməli suyun keyfiyyətinin müəyyən edilmiş standartlara uyğun olmaması, içməli su mənbələrinin olmaması və sənaye tullantıları ilə çirklənməsi ilə bağlı aktual problemlər hələ də qalmaqdadır. İclasda şəhərlərin 11-ci beşillik dövründə və bundan sonra 2020-ci ilə qədər su təchizatı ilə bağlı yeni vəzifələr irəli sürülmüşdür. İclas iştirakçıları Çin Xalq Respublikasının İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsi, Su Təsərrüfatı Nazirliyi və bir sıra digər nazirlik və idarələr tərəfindən tərtib edilmiş vətəndaşların yüksək keyfiyyətli içməli su ilə təminatı planını da nəzərdən keçirmişdilər. Lakin bu planın icrası gözlənildiyindən daha ləng gedir [9, s.137].

Kənd yerlərində vəziyyət daha mürəkkəbdir. ÇXR Dövlət Statistika Komitəsinin məlumatına görə, Çində kənd yerlərinin ev təsərrüfatlarının yalnız 23,1%-nin içməli suya normal çıxışı var, qalanları isə quyulardan, çaylardan, gölməçələrdən və ya yağıntılardan istifadə edirlər. Məsələn, Yantszı çayının orta axarı boyunca yerləşən Hubey əyaləti həmişə su ehtiyatları ilə çox zəngin hesab olunurdu. Lakin son illərdə orada da çox əhəmiyyətli su çatışmazlığı qeyd olunmuşdur. Qonşu Sıçuan əyalətində isə belə bir çatışmazlıq o dərəcəyə çatmışdır ki, onun inzibati mərkəzi − Çenduda içməli su çatışmazlığı səbəbindən təxminən 1,5 milyon əhali, demək olar ki, sağ qalmağın astanasında idilər. 2007-ci ilin qış və yaz aylarında Haynan əyalətində ən azı 121 min insan görünməmiş quraqlıqdan əziyyət çəkmiş, təkcə kənd təsərrüfatı ehtiyacları üçün su çatışmazlığı 800 milyon $m^3$ təşkil etmiş, həyati əhəmiyyətli Daquanba və Nyululin su elektrik stansiyaları bağlanmaq ərəfəsində olmuşdur. 2007-ci ilin yayında Çinin cənubundakı Quansi Çjuan Muxtar Bölgəsində şiddətli quraqlıq baş vermiş və 140 milyondan çox insan zərər çəkmişdir.

Bu ərazi də kifayət qədər nəmlik zonasına aiddir və Çin cənubunun digər əraziləri kimi su obyektləri ilə zəngindir. Bununla belə, təbii fəlakətdən əhalidən başqa 230 min hektar taxıl əkini və 496 min baş iri buynuzlu mal-qara zərər çəkmiş, hər onuncu su anbarı tamamilə qurumuşdur. 2008-ci ilin payızında, 2009-cu ilin qışında və yazında çox güclü quraqlıq Nins-Huey Muxtar Rayonunu heyrətdə qoymuşdu. Bu ərazi quraqlığa meyilli olsa da, onun miqyası, baş vermə müddəti və vaxtı gözlənilməz idi. Bu quraqlıq ümumilikdə 1,47 milyon insana, 11 mahala və 19 qəsəbə və şəhərə təsir etmişdir. Bundan əlavə, 79 min baş iribuynuzlu mal-qara və 1,28 milyon baş xırdabuynuzlu heyvan bir neçə ay ərzində içməli su çatışmazlığı ilə üzləşib. Demək olar ki, bütün 2009-cu il ərzində Fujian əyalətində 194 min insanın sağlamlığı və həyatı üçün təhlükə yaradan quraqlıq müşahidə olunub. 81,2 min hektar sahədə taxıl bitkiləri tələf olub [9, s. 138].

Çində su çatışmazlığı ilə yanaşı, çayların çirklənməsi probleminin daim pisləşməsi müşahidə olunur. Əgər 1980-ci illərdə Xuanxe çayına çirkab suların orta illik axımı 2,1 milyard ton təşkil edirdisə, 2007-ci ildə bu göstərici 4,3 milyard tona çatmışdır. Çin əhalisinin su ilə təmin edilməsində böyük problem su obyektlərinin çirklənməsinə və su təchizatı sistemlərinin pozulmasına səbəb olan tez-tez baş verən texnoloji qəzalardır. 2005-ci il noyabrın 13-də Sunqari çayının uzun müddət çirklənməsinə və nəticədə 2005-ci il noyabrın 13-də 5 milyona yaxın sakinin içməli susuz qalmasına səbəb olan qəzanın miqyası və nəticələri əhalidə böyük sarsıntı yaratmışdır [9, s. 139-141].

Rəsmi məlumatlara görə, Çində suyun çirklənməsi hər 2-3 gündən bir baş verir. 2005-ci ildən sonra, bəlkə də o qədər də böyük miqyasda deyil. Lakin Sunqaridə baş verənlərə bənzər çoxlu fövqəladə ekoloji hadisələr baş vermişdir. Belə hadisələrdən biri də 2006-cı ildə Quandun əyalətinin Uçuan şəhərində, 2009-cu ildə Çzyansu əyalətinin Yançen şəhərində, 2009-cu il mayın əvvəllərində Çunçin inzibati ərazisində yerləşən Çzyuyuan yaşayış məntəqəsində, 2009-cu il iyunun əvvəlində Yunnan əyalətində və digər yerlərdə baş vermiş, nəticədə yüz minlərlə insan zərər görmüş, insanların mədə-bağırsaq sistemlərində ciddi problemlər yaranmış, hətta ölüm halları da baş vermişdir [9, s. 144].

### 2. ÇXR-in kənd təsərrüfatı qanunları

Təmiz İstehsalın Təşviqi Haqqında ÇXR Qanunu 29 iyun 2002-ci ildə 9-cu ÜXNY Daimi Komitəsinin 28-ci iclasında qəbul edilmişdir. Çin Xalq Respublikası Prezidentinin 29 iyul 2002-ci il tarixli 72 nömrəli Fərmanı ilə dərc edilmiş və 2003-cü il yanvarın 1-dən qüvvəyə minmişdir [9, s.12-13].

Kənd Təsərrüfatı Məhsullarının Keyfiyyət Təhlükəsizliyi Haqqında ÇXR Qanunu 2006-cı il aprelin 29-da 10-cu ÜXNY Daimi Komitəsinin 21-ci iclasında qəbul edilmişdir. 2006-cı il noyabrın 1-dən qüvvəyə minən qanun 8 fəsil və 56 maddədən ibarətdir. Qanuna əsasən, dövlət kənd təsərrüfatı məh-

sulları üçün məcburi texniki standartları təşkil edən keyfiyyət və təhlükəsizlik standartları sistemini yaradır (maddə 11). Bu standartlar kənd təsərrüfatı məhsullarının keyfiyyəti və təhlükəsizliyi ilə bağlı risklərin qiymətləndirilməsinin nəticələrini, habelə kənd təsərrüfatı məhsulları istehsalçılarının, satıcılarının və istehlakçılarının rəylərini tam nəzərə almalıdır (maddə 12). Qanun kənd təsərrüfatı məhsullarının istehsal yerlərinə (sahələrinə) və istehsal prosesinə dair tələbləri müəyyən edir. 24-cü maddədə kənd təsərrüfatı müəssisələri və kəndli təşkilatları tərəfindən istehsal qeydlərinin aparılması tələbləri müəyyən edilir və bu qeydlərin saxlanılma müddəti iki ildir. Qanun kənd təsərrüfatı məhsullarının qablaşdırılması və etiketlənməsinə dair tələbləri müəyyən edir və tələblərə əsasən aşağıdakılar olmalıdır: məhsulların adları, istehsal yeri, istehsalçısı, istehsal tarixi, yararlılıq müddəti, keyfiyyət kateqoriyası və digər məlumatlar. Əgər qida əlavələri varsa, onların adları mütləq qeyd edilməlidir. Daha detallı tələblər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müəyyən edilir (maddə 28). Qanunun 30-cu maddəsinə əsasən geni dəyişdirilmiş məhsulların etiketlənməsi bu növ məhsullara aid mövcud müddəalara uyğun olaraq həyata keçirilməlidir. Karantinə məruz qalan məhsullara karantin sertifikatı verilməli və müvafiq işarələnmələr aparılmalıdır (maddə 31). Qanunda onun həyata keçirilməsinin dəqiq mexanizmi mövcuddur ki, onlardan biri nəzarət və yoxlama qaydalarını tənzimləyir, digəri isə hüquqi məsuliyyətə həsr olunmuş qanun pozuntularına görə sərt sanksiyalar qoyur. Bu iki fəslin normaları bir-biri ilə sıx bağlıdır: bir fəslin müddəalarının yerinə yetirilməməsi digər fəsildə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Qanun dövlət tərəfindən qadağan edilmiş gübrələrdən, heyvandarlıq preparatlarından və digər kimyəvi maddələrdən istifadə etməklə hazırlanmış kənd təsərrüfatı məhsullarının satışını qadağan edir: əgər onun tərkibində ağır metallar və digər zərərli maddələr, xəstəlik törədici parazitlər, mikroorqanizmlər, toksinlər varsa; əgər onun hazırlanması üçün texniki normalara uyğun olmayan konservantlardan, əlavə maddələrdən və digər materiallardan istifadə edildikdə, eləcə də kənd təsərrüfatı məhsullarının keyfiyyət standartlarına uyğun olmayan digər hallarda (33-cü maddə).

Dövlət kənd təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət sistemi yaradır. Rayon səviyyəsində və ondan yuxarıda olan müvafiq orqanlar monitorinqin təşkilinə və istehsal sahələrində və ya bazarlarda təsadüfi yoxlamaların aparılmasına cavabdehdirlər. Həm də bu cür monitorinqlərin nəticələri dərc edilməlidir. Birbaşa təsadüfi yoxlamalar Qanunda müəyyən edilmiş tələblərə cavab verən səlahiyyətli ekspert orqanları tərəfindən həyata keçirilir. Qanun yoxlanılan şəxslərdən rüsum alınmasını, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müəyyən edilmiş lazımi miqdardan artıq nümunələrin götürülməsini, habelə artıq yuxarı orqanlar tərəfindən həyata keçirilmiş məhsulların təsadüfi yoxlanılmasının təkrar monitorinqinin aparılmasını qadağan edir (maddə 34).

Bundan əlavə, 36-cı maddədə kənd təsərrüfatı məhsullarının istehsalçısı və satıcısı yoxlamanın nəticələri ilə razılaşmadıqda təkrar yoxlamanın keçirilməsini, habelə yoxlama zamanı buraxılmış səhvlər nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ müəyyən edilir. 37-ci maddədə topdansatış kənd təsərrüfatı bazarlarının üzərinə – bazara daxil olan məhsulların keyfiyyətinin yoxlanılması üçün ekspert orqanları yaratmaq və ya səlahiyyət vermək, pozuntular aşkar edildikdə isə məhsulların satışını dərhal dayandırmaq və baş vermiş hadisə barədə kənd təsərrüfatına məsul olan inzibati orqanlara – məlumat vermək öhdəliyi qoyulur. Qanun kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan bütün müəssisələrdən daxil olan məhsulların keyfiyyətinə nəzarət sistemi yaratmağı tələb edir. 38-ci maddəyə əsasən, dövlət təşkilatları və fiziki şəxslər kənd təsərrüfatı məhsullarının keyfiyyəti sahəsində ictimai nəzarəti həyata keçirməyə həvəsləndirilir; aidiyyəti orqanlar daxil olan məlumatlara vaxtında reaksiya verməlidirlər. 40-cı maddədə kənd təsərrüfatı məhsullarının keyfiyyəti ilə bağlı fövqəladə hallar zamanı tədbir görülməsi qaydaları müəyyən edilir [9, s.78-81].

Hökumətin diqqət yetirdiyi digər mühüm bir məsələ, həm ərzaq təhlükəsizliyini təmin etmək, həm də ətraf mühiti qorumaq üçün ekoloji baxımdan dayanıqlı kənd təsərrüfatı təcrübəsinin təşviqidir. Yeni kənd təsərrüfatı texnologiyalarının və innovasiyaların tətbiqi məhsuldarlığı və iqlim dəyişikliyinə davamlılığı artırmaq üçün vacib olan strategiyalardan biridir. İntellektual kənd təsərrüfatı və avtomatlaşdırma kimi yeni texnologiyaların tətbiqi kənd təsərrüfatının səmərəliliyinin və davamlılığının artırılmasında mühüm rol oynayır. Çin bu sahədə elmi-tədqiqat və işləmlərə fəal investisiya qoyur.

Elm və Texnologiyanın Təşviqi haqqında Çin Xalq Respublikasının Qanunu 29 iyun 2002-ci ildə ÜXNY Daimi Komitəsinin 9-cu çağırışının 28-ci iclasında qəbul edilmişdir. Qanun ÇXR Sədrinin 29 iyul 2002-ci il tarixli 71 nömrəli Fərmanı ilə dərc edilmiş və dərc olunduğu gündən qüvvəyə minmişdir. Qanunun 1-ci maddəsinə əsasən, qanun elmin və təhsilin inkişafı üçün strateji kursların həyata keçirilməsinə və davamlı inkişafın təmin edilməsinə, elm və texnikanın populyarlaşdırılması üzrə işlərin yaxşılaşdırılmasına, vətəndaşların ümumtəhsil səviyyəsinin və elmi biliklərinin səviyyəsinin yüksəldilməsinə kömək etmək, həmçinin bütövlükdə iqtisadi və sosial inkişafa töhfə vermək məqsədi daşıyır. Elmi-texniki biliklərin təşviqi sosialist maddi və mənəvi mədəniyyətinin inşasının ən mühüm istiqaməti və dövlətin uzunmüddətli vəzifəsi elan edilir (maddə 3). Qanunun 10-cu maddəsinə əsasən elmi və texniki biliklərin yayılması üzrə işlər bütün səviyyələrdə xalq hökumətlərinin iqtisadi və sosial inkişaf planlarına daxil edilməlidir [9, s. 10-11].

Çində kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə qəbul edilmiş digər bir qanun isə Kənd Təsərrüfatının Mexanikləşdirilməsinin Stimullaşdırılması Haqqında ÇXR Qanunudur. Sözügedən qanun ÜXNY Daimi Komitə-

sinin 10-cu çağırışının 10-cu iclasında qəbul edilib. 8 fəsildən və 35 maddədən ibarət olan qanun Çinin yerli kənd təsərrüfatı texnikası istehsalçılarını dəstəkləməyə və kənd təsərrüfatının modernləşdirilməsinə yönəlib. İkinci fəsil – "Elmi tədqiqatlar və mənimsəmə" müvafiq elmi-tədqiqat müəssisələri və təhsil müəssisələri tərəfindən həyata keçirilən kənd təsərrüfatı maşınqayırması sahəsindəki işləmləri dəstəkləmək, habelə istehsalçılara məhsulun keyfiyyətini və texniki səviyyəsini artırmağa və onun maya dəyərini azaltmağa imkan verən qabaqcıl kənd təsərrüfatı texnikası, yeni texnologiya və materialların mənimsənilməsi zamanı onları dəstəkləmək məqsədini ehtiva edir [9, s. 41-44].

Səkkizinci ÜXNY Daimi Komitəsinin 2 iyul 1993-cü il tarixli ikinci iclasında, 28 dekabr 2002-ci il və 27 avqust 2009-cu il tarixlərində düzəlişlərlə ÇXR Kənd Təsərrüfatı Qanunu 28 dekabr 2021-ci ildə qəbul edilmişdir [2, s. 184].

**3. ÇXR-də ərzaq təhlükəsizliyi**

Bütün dünya ölkələri kimi, Çin də ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını tamamilə daxili istehsal hesabına ödəmək iqtidarında deyildir. Çin ərzaq təhlükəsizliyini təmin etmək üçün digər ölkələrdən müəyyən miqdarda ərzaq məhsullarını idxal etməli olur. Bu isə ölkəni xarici bazarlardan asılı hala gətirə və qlobal ərzaq qiymətlərindəki dalğalanmalara qarşı həssas edərək ərzaq ticarəti "savaş"ları zamanı ərzaq təhlükəsizliyini təhlükə altına sala bilər.

Son dövrlər Çin kənd təsərrüfatı istehsalını artırmaq üçün investisiyalarını genişləndirib. Məqsəd, kənd təsərrüfatı məhsullarının yerli istehsalını artıraraq xarici asılılığı azaltmaqdır.

Müasir dövrdə Çin hökumətinin qarşısında duran ən vacib problemlərdən biri ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi məsələsidir. Ölkədə baş verən kütləvi qida zəhərlənməsi hadisələri və digər qida təhlükəsizliyi problemləri ictimaiyyətdə böyük narahatlıq yaradır.

Çin hökuməti ərzaq təhlükəsizliyini təmin etmək üçün müxtəlif strategiyalar həyata keçirir. Hökumətin ilk addım olaraq diqqət yetirdiyi əsas məsələ əkin sahələrinin qorunması və artırılmasıdır. Belə ki, dövlət siyasəti kənd təsərrüfatı üçün yararlı torpaqların qorunmasını təşviq edir.

Son zamanlar Çində qida təhlükəsizliyi sahəsində qanunvericiliyin gücləndirilməsinə xüsusi diqqət yetirilib. Ərzaq məhsullarının keyfiyyətinə nəzarət mexanizmləri gücləndirilirib və qida təhlükəsizliyi standartlarına uyğunluq artırılıb. Bu, həm daxili bazarda istehlakçıların hüquqlarını qorumaq, həm də ixrac olunan məhsulların beynəlxalq standartlara cavab verməsini təmin etmək üçün həyata keçirilir. Qida təhlükəsizliyi və məhsul keyfiyyəti ilə bağlı məsələlər, Çində əhalinin sağlamlığı və istehlakçı etimadı üçün ciddi problem təşkil edir. Qida istehsalı və emalı prosesində standartlara uyğun ol-

mayan məhsulların bazara çıxarılması, istehlakçıların haqlı narazılığına səbəb olur.

Əhali sayının artımına görə Yer kürəsinin beşdə birinin yaşadığı ölkə olan Çin, həm də dünyanın ən böyük kənd təsərrüfatı məhsulları istehsalçısıdır. Çində istehsal olunan əsas kənd təsərrüfatı məhsullarına düyü, buğda, qarğıdalı, kartof və soya daxildir. Çin buğda, düyü, qarğıdalı, arpa və yağlı bitkilərin istehsalında dünyada lider mövqe tutur.

Son illərdə ÇXR dövlət ərzaq ehtiyatlarını artırmaq və ehtiyat saxlama mexanizmlərini gücləndirmək üçün də ciddi tədbirlər görür. Çin xüsusilə soya (ölkədə yetişdirilməsinə baxmayaraq tələbatı ödəmir) və ət kimi bəzi kənd təsərrüfatı malları üçün ərzaq idxalından asılıdır. Çin səlahiyyətliləri idxal mənbələrini diversifikasiya etmək üçün ticarət sazişləri və strategiyalar vasitəsilə təchizat sabitliyini təmin etməyə çalışır. 2021-ci ildə yerli istehsalın artırılmasını, özünütəminatın yüksək səviyyəyə çatdırılmasını, ərzaq logistikasının və saxlanmasının təkmilləşdirilməsini vurğulayan yeni strategiya qəbul edilib. Çin strateji ərzaq ehtiyatları saxlamaqla qlobal bazarlarda qiymət dalğalanmaları zamanı ərzaq təhlükəsizliyini təmin etməyə çalışır. Bu ehtiyatlar strateji qida məhsulları üzrə saxlanılır və lazım olduqda daxili bazara buraxılır. Ərzaq təminatını təhlükə altına alan vəziyyətlərdə isə bəzi ərzaq məhsullarının ixracını məhdudlaşdıraraq daxili bazarı qorumaq siyasətini tətbiq edir.

Planetin əsas ərzaq idxalçısı olan Çin Xalq Respublikasının 2022-ci ildə bir sıra ərzaq növləri üzrə ehtiyatları dünya ehtiyatlarının 50-70%-ni təşkil etmişdir. Həmin ildə Çinin buğda ehtiyatları il yarımlıq tələbatını ödəyə biləcək səviyyədə olmuşdur. Çin dövləti hər il içkilərsiz qida məhsullarının idxalına təxminən 100 milyard dollar məbləğində xərc çəkir. 2020-ci ildə Çinin idxal etdiyi ərzaq məhsulları 22% təşkil edib, son illərdə isə 360% artıb [12].

Çinin ərzaq ehtiyatlarını artırmasının bir neçə səbəbləri ola bilər. Altmış beş il əvvəl – 1959-cu ilin yazından 1961-ci ilin sonlarınadək – Çin dünyanın ən böyük aclığını yaşamışdır. Görünür, çinlilər bəşər tarixində baş vermiş bu acı və faciəli tarixi yaxşı xatırlayır və aclığın nə demək olduğunu bütün millətlərdən daha yaxşı bilirlər. 1959-cu ildə Xuanxe çayının daşmasından sonra yaranan quraqlıq da ərzaq qıtlığını tətikləyən amil olsa da, bu, əsasən Mao Szedunun ən böyük məsuliyyət daşıdığı texnogen fəlakət idi. Aclıq qurbanlarının sayı dəqiq bilinməsə də, o dövrün demoqrafik rekonstruksiyaları təxminən 30 milyon (digər mənbələr isə 50 milyon) nəfərin öldüyünü göstərir [13].

Müasir dövrdə isə, ölkə çox güman ki, özünü ərzaq ticarəti "savaşları"ndan, baş verə biləcək kütləvi xəstəliklərdən, quraqlıqdan və ya mümkün enerji böhranından sığortalayır. Eyni zamanda, ərzaq qıtlığı və ya ərzaq qiymətlərinin kəskin bahalaşacağı fonunda sosial etirazların qarşısının alınması üçün qabaqlayıcı addım da ola bilər.

4. **ÇXR-in müasir inzibati hüququnun bəzi aktual məsələləri: Qida təhlükəsizliyinin təmin edilməsi**

Çin dövlətinin hüquq sistemində inzibati hüquq mərkəzi yer tutur. Bu hüquq sahəsinin fərqli xüsusiyyəti vahid kodlaşdırılmış qanun yaradıcılığı aktının olmamasıdır. Bu, Çin Xalq Respublikasının hüquq sisteminin digər sahələrinə də aiddir. Çin qanunvericisi mülki hüquqda da vahid kodlaşdırılmış sistemin qəbul edilməsinə tələsmir. Kodlaşdırma proseslərinin XX əsrin 50-ci illərində başlamasına baxmayaraq, ÇXR-də Mülki Məcəllə 28 may 2020-ci ildə qəbul edilmişdir. Qanunvericilər inzibati münasibətlərin tənzimlənməsinə yönəlmiş ayrı-ayrı hüquqi aktların qəbuluna üstünlük verirlər. Çin inzibati hüququnun mənbələri sırasına ölkənin hökuməti və mərkəzi idarələri tərəfindən verilən çoxsaylı sərəncamlar daxildir. Müasir inzibati hüququn aktual məsələlərindən biri də təminat məsələsidir [4, s. 45-56].

Qida təhlükəsizliyi qida məhsullarında baş verən fiziki, bioloji və bütün növ zərər və dəyişiklikləri aradan qaldırmaq üçün istifadə edilən tədbirlər kompleksidir. Qida təhlükəsizliyi müxtəlif xəstəliklərin qarşısını almaqla qidadan istifadə və mühafizə elmidir. Müasir Çin cəmiyyəti qida təhlükəsizliyinin təmin edilməsində ciddi problemlərlə üzləşir. Bu sahədə qanun pozuntularına görə ciddi hüquqi məsuliyyət tədbirlərinin olmasına baxmayaraq, ölkənin hər yerində istehlaka yararsız məhsullardan kütləvi qida zəhərlənməsi hallarına rast gəlinir.

Ölkədə həm istehsalçıların, həm də onun istehlakçılarının həyatına və sağlamlığına ziyan vuran, zəruri təhlükəsizlik qaydalarına əməl olunmadan qeyri-qanuni istehsal obyektlərində istehsal olunan mallar geniş yayılmışdır. İqtisadi artım nəticəsində ÇXR-də nəinki sənaye təyinatlı məhsullar, həm də ərzaq məhsulları istehsal edən qeyri-qanuni istehsallar da çoxalıb. Bütün bunlar, çox vaxt keyfiyyətsiz qidadan istehlakçılarının kütləvi zəhərlənməsinə və ölümünə səbəb olur. Son illərdə ən çox rezonans doğuran hadisə, protein konsentrasiyasını artırmaq üçün körpə qidasına təhlükəli kimyəvi melamin əlavə edən məşhur Çin süd şirkəti "Sanlu"nun ("Sanlu Group Fonterra"da 43% paya sahib idi) işi oldu. Cinayət əməlləri nəticəsində keyfiyyətsiz süd məhsullarından zəhərlənmiş uşaqların sayı təxminən **300.000 nəfər** olub, onlardan **6-sı isə** həlak olub [14].

Melamin azotla zəngin olduğundan, onun seyrəltilmiş südə əlavə edilməsi, tərkibində azotun miqdarı ilə müəyyən edilən yüksək protein tərkibi görünüşünü yaradır. Buna görə də saxtakarlıq edərək, quru südə melamin əlavə etmişdilər. Təəssüf ki, melaminlə çirklənmiş məhsullar iyirmidən çox ölkəyə − əsasən Asiya, Afrika, Banqladeş, Butan, İngiltərə, Bruney, Kanada, Fransa, Qabon, Qana, Hindistan, Yaponiya, Malayziya, Myanma, Filippin, Sinqapur və Cənubi Koreyaya daxil olmuşdur [14].

Cinayətdə iştirak edən bir neçə şirkətin rəhbərləri və müvafiq məsul şəxslər müxtəlif növ cinayət cəzalarına, o cümlədən ömürlük həbs və ölüm cəzasına məhkum edilsələr də, ÇXR hakimiyyəti bu sahədə inzibati nəzarətin qeyri-kafi olduğunu etiraf etmişdir. Vəziyyəti düzəltmək üçün çin qanunvericisi ÇXR-də fəaliyyət göstərən təsərrüfat subyektlərilə bağlı müvafiq yoxlamalar aparmaq hüquqlarını daha dolğun və aydın şəkildə tənzimləmək məqsədilə qida məhsullarının təhlükəsizliyi sahəsində qanun layihəsi üzərində işə başlamışdır [9, s.154].

Hüquq-mühafizə orqanları həm də, bütün ölkə miqyasında qidaya qida yağı adlandırılan qondarma yağın əlavə edilməsi ilə mübarizə aparır. Təkrar istifadə edildikdən sonra atılmalı olan bu yağ, zəncirlə digər, daha ucuz restoranlara satılır, yeməklərə əlavə olunmağa davam edir və daha sonra yenidən satılır.

Digər təhlükəli hadisə 2011-ci ilin yayında baş vermişdir. Qida sənayesində və hələ 1992-ci ildən peşəkar idmanda qadağan edilmiş klenbuterol maddəsini sənaye miqyasında donuz yeminə əlavə edən cinayətkar qruplaşmanın üzvləri 2 il müddətinə təxirə salınmış ölüm hökmü də daxil olmaqla müxtəlif müddətlərə cinayət cəzasına məhkum edilmişdilər. Klenbuterol maddəsi mal-qaranın əzələ kütləsinin artmasına səbəb olur. Lakin belə ət onu istifadə edən insanın ürəyini məhv edir.

Çində heyvandarlıq sahəsində "böyümə hormonlarının" əlavə edilməsi, kənd təsərrüfatında GMO-dan istifadə edilməsi, düyünün saxtalaşdırılması (düyü əvəzinə kartof nişastasından istifadə olunur) və digər saxtakarlıqlar böyük fəsadlar yaradan problemlərdəndir [3, s. 262-63].

Son illərdə Çin bazarında saxta nano-məhsullar/mallar peyda olub ki, onların satışı insan sağlamlığını düşünmədən, ancaq qazanc hərisi olan biznes nümayəndələrinə böyük gəlir gətirir. Çin bazarının marketinq araşdırması göstərib ki, istehsalçı və satıcılar tərəfindən məhsulun/malın adında və ya təsvirində "nano" prefiksinin qeyd edilməsi onun satışlarının artmasına səbəb olur. Buna görə də Çində reklamlarda çox vaxt məhsullar "nanoməcun", "nanoəlavə" və s. kimi adlandırılır. Lakin belə məhsulların keyfiyyəti istehlakçının həyatı və sağlamlığı üçün təhlükəlidir.

Bəzi alimlər nanohissəciklərin bir sıra ciddi xəstəliklərə səbəb ola biləcəyini qəbul edirlər: inhalyasiya/transdermal toplanma; xroniki ağciyər xəstəlikləri; bədxassəli xəstəliklər (ağciyər xərçəngi, sümük iliyi xərçəngi); neyrodejenerativ xəstəliklər (Parkinson, Alzhaymer xəstəliyi); beyin və koronar qan dövranının pozulması, ürək fəaliyyətinin pozulması (aritmiya, infarkt); DNT-nin (hüceyrə genomunun) replikasiya prosesinin pozulması.

Bütün bu qida "manipulyasiya"ları istehlakçının sağlamlığını ciddi şəkildə məhv edir, çox vaxt ölüm hallarına səbəb olur. Çində ərzaq təhlükəsiz-

liyi problemi o qədər geniş miqyas alıb ki, ÇXR rəhbərlərindən başlamış adi vətəndaşa qədər bütün səviyyələrdə müzakirə olunur.

"Sinxua" agentliyinin məlumatına görə, **Çində hüquq-mühafizə orqanları tərəfindən 2019-cu ilin yanvar ayından may ayınadək** insan orqanizminə zərərli və təhlükəli olan **saxta qida məhsullarının istehsalı və bazara çıxarılmasında şübhəli bilinən təxminən 8,5 min nəfər həbs edilib.** Müvafiq dövr ərzində, həm də ölkədə dövlət standartlarına uyğun olmayan malların yayılmasına görə 3,8 minə yaxın gizli fabrik, anbar və qeyri-leqal məntəqələr aşkar edilərək ləğv edilib. Ərzaq təhlükəsizliyi normalarının pozulması faktı üzrə ümumilikdə 4,5 min cinayət işi açılıb [15].

Yuxarıda göstərilənlərin hamısı qida təhlükəsizliyi sahəsində hüquqpozmalara qarşı mübarizəyə yönəldilmiş, inzibati sahədə yeni qanunun işlənib hazırlanmasına və qəbul edilməsinə səbəb olmuşdur.

1995-ci il oktyabrın 30-da ölkədə "Qida Gigiyenası Haqqında ÇXR Qanunu" qəbul edilsə də, onun müddəaları dövlətin sürətli iqtisadi inkişafı ilə qida təhlükəsizliyi sahəsində daim yaranan yeni sosial münasibətləri tam tənzimləyə bilməmişdir. 2004-cü il sentyabrın 1-də ÇXR Dövlət Şurası qida məhsullarının təhlükəsizliyi sahəsində işlərin daha da gücləndirilməsi haqqında qətnamə açıqlamış, bu qətnamədə həmin dövrdə qüvvədə olan Qida Məhsullarının Gigiyenası Haqqında Qanunun dəyişdirilməsinin zəruriliyi təsbit edilmişdir [9, s. 154].

2004-cü ilin iyul ayında qanuna dəyişiklik layihəsinin hazırlanması üçün işçi qrupu yaradılmış və bu qrup çoxsaylı müzakirələrdən sonra "Qida Təhlükəsizliyi" adlı yeni hüquqi sənədin hazırlanmasına qərar vermişdir. 2007-ci il oktyabrın 31-də yeni qanun layihəsi Çin Xalq Respublikasının Dövlət Şurasında müzakirə edilərək qəbul edilmiş və həmin ilin dekabrında baxılmaq üçün ÜXNY Daimi Komitəsinə təqdim edilmişdir. Yeni qanun layihəsi 20 aprel 2008-ci ildə ictimaiyyətə təqdim olunmuş və Çin mütəxəssisləri və sadə vətəndaşlar arasında geniş əks-səda doğurmuşdu [3, s. 264; 9, s. 155.]

XI ÜXNY Daimi Komitəsinin 28 fevral 2009-cu il tarixli 7-ci iclasında Çin Xalq Respublikasının **Qida Təhlükəsizliyi Qanunu** qəbul edilmiş və 2009-cu il 1 iyun tarixində qüvvəyə minmişdir. Bu qanun yaradıcılığı aktı 10 fəsil, 154 maddədən ibarətdir. Fəsillər aşağıdakılardır: 1-ci fəsil – "Ümumi müddəalar"; 2-ci fəsil – "Qida təhlükəsizliyi risklərinin monitorinqi və qiymətləndirilməsi"; 3-cü fəsil – "Qida Təhlükəsizliyi Standartları"; 4-cü fəsil – "Ərzaq məhsullarının istehsalı üzrə fəaliyyət"; 5-ci fəsil – "Qida məhsullarının yoxlanılması"; 6-cı fəsil – "Ərzaq məhsullarının ixracı və idxalı"; 7-ci fəsil – "Qida təhlükəsizliyi sahəsində hadisələrin həlli"; 8-ci fəsil – "Nəzarət və idarəetmə"; 9-cu fəsil – "Hüquqi məsuliyyət"; 10-cu fəsil – "Əlavə müddəalar". Qanunun 1-ci maddəsinin müddəasına əsasən, o, "qida məhsul-

larının təhlükəsizliyinə zəmanət vermək, xalq kütlələrinin həyatı və sağlamlığının təhlükəsizliyini təmin etmək məqsədilə" qəbul edilmişdir. Sözügedən qanun ÇXR-in inzibati hüquq sahəsinə aiddir və qida təhlükəsizliyi sahəsində nəzarəti gücləndirməyə yönəlib. Belə ki, müasir Çin dövləti üçün ölkə bazarlarında satılan yerli və xarici ərzaq məhsullarının təhlükəsizliyi məsələləri son dərəcə aktualdır [9, s. 153; 3, s. 263-264].

Qanunun 24-cü maddəsinə əsasən qida təhlükəsizliyi standartının hazırlanması elmi, rasionallıq, təhlükəsizlik və etibarlılıq prinsiplərinə riayət olunmaqla insanların sağlamlığını təmin etmək məqsədilə həyata keçirilməlidir. 92-ci maddənin tələbinə müvafiq olaraq, xarici ölkələrdən gətirilən qida məhsulları, qida məhsulları ilə yanaşı qida əlavələri məhsulları dövlət təhlükəsizliyi standartlarına cavab verməlidir [3, s. 265].

Qida məhsullarının təhlükəsizliyini pozan hallar baş verdikdə, müvafiq sahibkarlıq subyektləri "təhlükənin aradan qaldırılması və yayılmasının qarşısının alınması üçün dərhal tədbirlər görməyə borcludurlar" (1-ci hissə, 103-cü maddə). Qida təhlükəsizliyi ilə bağlı ciddi pozuntular baş verdikdə, xalq hökumətlərinin müvafiq inzibati səhiyyə idarələri hadisəni dərhal araşdırmalı və hadisə haqqında öz yerlərindəki xalq hökumətinə hesabat təqdim etməlidirlər (1-ci hissə, maddə 106).

"Qida məhsullarının təhlükəsizliyi haqqında qanun"da təsdiq edilmiş müddəaların pozulmasına görə məsuliyyəti tənzimləyən 122-149-cu maddələrin normaları xüsusi yer tutur.

Qida təhlükəsizliyi sahəsində mövcud hüquqi qaydaları pozanlara qarşı görülən tədbirlər − fəaliyyətlə məşğul olmaq üçün lisenziyanın ləğv edilməsindən, təhlükəli məhsulların, qanunsuz əldə edilmiş gəlirlərin cərimə və müsadirə edilməsindən dəymiş ziyanın ödənilməsinədək mülki məsuliyyətə və şəxsin (qurumun) hərəkətlərində cinayət tərkibi olduqda cinayət məsuliyyətinə qədər − son dərəcə genişdir. Belə ki, 147-ci maddədə deyilir: "Bu Qanunun müddəaları pozulduqda sağlamlığa, əmlaka və ya digər zərərə səbəb olduqda, şəxs qanunla müəyyən edilmiş qaydada zərərin əvəzinin ödənilməsinə görə məsuliyyət daşıyır (1-ci hissə). İstehsalçı qida təhlükəsizliyi standartlarına cavab verməyən məhsul istehsal etdikdə və ya qida təhlükəsizliyi standartlarına uyğun olmyan məhsulları bilərəkdən satıldıqda, istehlakçı zərərin ödənilməsini tələb etməklə yanaşı, istehsalçıdan və ya satıcıdan həmin məhsulun maya dəyərindən üç və ya on dəfə artıq məbləğdə kompensasiya ödənilməsini tələb etmək hüququna malikdir" (2-ci hissə, 148-ci maddə) [3, s. 266].

Çin Cinayət Məcəlləsinin 141, 142, 143 və 148-ci maddəsinin ikinci hissəsi ömürlük həbsə qədər məsuliyyəti müəyyən edir [5, s. 72-76].

Qanunun müddəalarına uyğun olaraq, Çin Xalq Respublikasının Səhiyyə Nazirliyi qida təhlükəsizliyi məsələlərinin hərtərəfli əlaqələndirilməsinə cavabdehdir. Çin Xalq Respublikasının Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı

Nazirliyi, Çin Xalq Respublikasının Ticarət Nazirliyi, Ətraf Mühitin Mühafizəsi Nazirliyi, Keyfiyyətin Yoxlanılması və Karantin üzrə Baş Dövlət İdarəsi, Ticarət və Sənaye üzrə Baş Dövlət İnzibati İdarəsi və Qida Məhsullarına və Dərman Preparatlarına Nəzarət üzrə Dövlət İdarəsi, Elm Nazirliyi və Texnologiya və Milli Bəslənmə və Qida Təhlükəsizliyi İnstitutu və bir çox digər nazirlik və idarələr də keyfiyyətə nəzarət sistemində iştirak edirlər. Ümumilikdə, Dövlət Şurası nəzdində təxminən on hökumət idarəsi və nazirlik ölkənin qida təhlükəsizliyinə nəzarəti həyata keçirir.

2009-cu ildə qəbul edilmiş "Qida Məhsullarının Təhlükəsizliyi haqqında Qanun"a 24 aprel 2015-ci ildə və 29 dekabr 2018-ci ildə əhəmiyyətli dəyişikliklər edilmişdir. 2009-cu ilin iyununda qüvvəyə mindikdən sonra (2009-cu ildə edilmiş düzəliş ilə ÇXR "Qida Təhlükəsizliyi Qanunu"nun 104-cü maddəsinə əsasən) "Qida Gigiyenası Haqqında ÇXR Qanunu" ləğv edilmişdir. Məhz buna görə də Çin Xalq Respublikası Dövlət Şurasının adıçəkilən orqanları Qida Təhlükəsizliyi Qanununun müddəalarından irəli gələn münasibətlərin daha dolğun tənzimlənməsinə yönəlmiş özlərinə aid normativ sənədləri hazırlayır və qəbul edirlər. Belə ki, Nəzarət, Keyfiyyətin Yoxlanılması və Karantin üzrə Baş Dövlət İdarəsi tərəfindən "Qida Məhsullarının Etiketlənməsinin İdarə Edilməsi Haqqında Əsasnamə" yekunlaşdırılmışdır (27.08.2007-ci ildə qəbul edilmiş, 22.10.2009-ci ildə dəyişdirilmişdir). 30 iyul 2009-cu il tarixində Ticarət və Sənaye üzrə Baş Dövlət İnzibati İdarəsi, ÇXR-in Qida Təhlükəsizliyi Qanununun 29-cu maddəsinin icra olunması üçün, "Qida Məhsullarına Lisenziyaların Dövriyyəsinin İdarə Edilməsi Qaydaları"nı dərc etmişdir. Beləliklə, dövlət alıcının istehlak səbətində onun sağlamlığı və həyatı üçün təhlükəli olan ərzaq mallarının yaranmasının qarşısını almaq məqsədilə "kəndlinin torpağından nahar masasına qədər" ərzaq məhsullarının keyfiyyətinə nəzarət sistemini həyata keçirməyə çalışır. Əksər Çin əyalətlərində − Şansi, Lyaonin, Çzilin, Çzyansu, Quandun və digərlərində − qida təhlükəsizliyinə nəzarət etmək üçün komitələr yaradılıb [3, s. 264].

"Qida Təhlükəsizliyi Haqqında ÇXR Qanunu" qida məhsulları istehsal edən, emal edən, paylayan, həmçinin ictimai iaşə xidmətləri göstərən, qida əlavələri istehsal edən, qida məhsulları üçün istifadə olunan qablaşdırmalar, qablama materialları, dezinfeksiyaedici maddələr, antiseptiklər, habelə qida məhsullarının istehsalında istifadə olunan alət və avadanlıqlar istehsal edən, qida məhsulları istehsalında müvafiq qida məhsulları üçün qida əlavələrindən istifadə edən fiziki şəxslərə və təşkilatlara şamil edilir, qida təhlükəsizliyi və qida əlavələri sahəsini idarə edir.

28 fevral 2009-cu ildə 11-ci çağırış ÜXNY Daimi Komitəsinin 7-ci iclasında çinli deputatlar ÇXR-in Cinayət Məcəlləsinə növbəti düzəlişləri qəbul etmişdilər. Çin Xalq Respublikasının mövcud Cinayət Məcəlləsi ilk dəfə 1979-cu il iyulun 1-də qəbul edilib, lakin sonradan (14.03.1997) onun məz-

munu köklü şəkildə dəyişdirilib. 2009-cu ilə qədər Çin cinayət qanununun yeni versiyasına ardıcıl olaraq altı əsas düzəliş edilib (12/25/1999, 08/31/2001, 29/12/2001, 28/12/2002, 28/02/2005, 06 /29/2006), 2009-cu ilin fevralında qəbul edilmiş düzəlişlər isə növbəti yeddinci düzəliş oldu. Onların məzmunu əsasən Cinayət Məcəlləsinin sosialist bazarı iqtisadi nizamı sahəsində, şəxsiyyət hüquqları sahəsində, ictimai nizam və idarəetmə qaydası sahəsində, dövlətin müdafiə maraqları sahəsində cinayətlərin tərkibini müəyyən edən maddələrin dəyişdirilməsinə yönəlib. Mövcud ÇXR Cinayət Məcəlləsinin mətninə bəzi yeni cinayət tərkibləri də əlavə edilmişdir. Düzəlişlərin ümumi sayı – 14-dür. 151-ci maddənin 3-cü hissəsinin məzmunu əhəmiyyətli dəyişikliyə uğrayıb, qanunvericilik əlavə qaçaqmalçılıq əşyalarının daxil edilməsi hesabına genişləndirilib [9, s. 158-159].

Çin Xalq Respublikasının **"İstehlakçıların hüquq və maraqlarının müdafiəsi haqqında"** qanunu 8-ci çağırış Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin 31 oktyabr 1993-cü il tarixli 4-cü iclasında qəbul edilmişdir. Bu qanuna 27 avqust 2009-cu ildə, növbəti dəfə isə 25 oktyabr 2013-cü il tarixində dəyişikliklər edilmişdir [7, s. 45-56].

Güman etmək olar ki, inzibati-hüquqi sahədə "Qida Məhsullarının Təhlükəsizliyi Haqqında ÇXR Qanunu"nun yaranması, qida istehlakçılarının sağlamlığına əlverişli təsir göstərəcək, biznesi bazara tədarük olunan ərzağın təhlükəsizliyinin təmin edilməsi məsələlərinə daha məsuliyyətlə yanaşmağa məcbur edəcək.

### 5. ÇXR-in təhsil sistemində qida sektoru: Moutai İnstitutu

Çinin dövlət "Kweichow Moutai" içki şirkətinin təşəbbüsü ilə ölkənin cənubundakı Quanqjou əyalətinin Renhuay şəhərində təsis edilmiş Moutai İnstitutu alkoqolşünaslıq üzrə ixtisaslaşmış özəl ali təhsil müəssisəsidir. İnstitutun yaradılması üçün hazırlıq işləri 2012-ci ildə başlamış və 2017-ci ilin mayında Çin Təhsil Nazirliyi tərəfindən təsdiqlənmişdir [16].

Moutai Çin dövlətinin milli içkisi hesab olunur və o, dövlət qəbullarında istehlak edilir. Bu içki növü, həm də Çinin dövlət rəsmiləri tərəfindən yüksək vəzifəli qonaqlara hədiyyə edilir. Moutai içkisi, eyni zamanda rüşvət vasitələrindən biri hesab olunduğundan, hökumətin korrupsiyaya qarşı sərt tədbirlər gördüyü 2014-cü ildə onun satışı 30% azaldılmışdır [17].

İnstitut Çinin içki sənayesində texniki bacarıq və istedad çatışmazlığını aradan qaldırmaq məqsədi ilə yaradılmışdır. İnstitut beş ixtisas üzrə təhsil verir: distilyasiya, şərabçılıq, qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi, resursların emalı elmi və texnikası, marketinq. Müəllimlərin bəziləri Moutai Qrupunun yüksək səviyyəli mütəxəssisləridir [16].

Çində Moutai Universitetindən başqa qeyri-adi təhsil verən – çay xərçəngi hazırlamağı və isti makaron "elm"lərini tədris edən universitetlər də mövcuddur [17].

**6. Çində istehlakçı səviyyəsində ərzaq israfçılığının qarşısının alınması üçün görülən tədbirlər**

Çində ərzaq təminatının yaxşılaşdırılması sahəsində son olaraq görülən tədbirlərdən biri də ərzaq israfçılığının qarşısının alınmasıdır. Rəsmi məlumatlara görə, Çində hər il **18 milyon ton** ərzaq tullantıya çevrilir. Ölkənin 500 şəhərinin hər birində hər il orta hesabla 50 tona yaxın qida tullantıları əmələ gəlir. Eyni zamanda, ildə təxminən 35 milyon ton ərzaq istehlakçılara çatmamış – saxlanma, daşınma və emal mərhələlərində – tullantıya çevrilir [18].

Bu fenomenlə mübarizə aparmaq üçün 2020-ci ilin avqust ayında Çində qida ilə ehtiyatlı davranmaq üçün "təmiz boşqab", "Yeməyini bitir!" kampaniyasına start verilib [19].

Həmin dövrdə Çin lideri Si Tsinpin bildirmişdir ki, "qida tullantıları dəhşətli və üzücüdür". Bu məqsədlə Çin parlamentində ehtiyatların qorunmasına və ekoloji problemlərin həllinə yönəlmiş qida məhsullarının həddindən artıq istehlakı ilə mübarizə aparmaq üçün qanun qəbul edildi. Sözügedən qanun **2021-ci il aprelin 29-da** ÜXNY Daimi Komitəsinin iclasında qəbul edilmişdir [20].

Qanunun qəbulu ərzaq qıtlığı təhlükəsi ilə deyil, hakimiyyətin Çin əhalisinin davamlı artımı və xarici şəraitin qeyri-müəyyənliyi fonunda uzunmüddətli ərzaq təhlükəsizliyi siyasəti qurmaq niyyəti ilə bağlıdır.

Ümumilikdə qanun sənədi problemin müxtəlif aspektlərindən bəhs edən **32 maddədən** ibarətdir. Artıq mediaya həddindən artıq yeməyi təbliğ edən materialları dərc etmək qadağandır. Onlar bütün belə məqalələri, audio və videoları silməlidirlər. Əks halda, 10 min yuandan 100 min yuana qədər cərimə nəzərdə tutulur [21].

Qanun iaşə obyektlərində müştərinin yeyə bilmədiyi əlavə porsiyaların sifariş edilməsinə görə cərimələri də nəzərdə tutur. Müştərilər çoxlu miqdarda yeməkləri yeyilməmiş halda qoyub getdikləri təqdirdə, restoranların əlavə ödəniş tələb etməsinə icazə verilir [19].

Digər cəza restoran və kafelərdə yeməklərin atılmasına görə cərimədir. Əgər iaşə obyekti çoxlu qida tullantıları çıxararsa, ilk növbədə ona xəbərdarlıq ediləcək. Xəbərdarlıq fayda verməsə, iaşə obyektinin sahibi 5 mindən 50 min yuana qədər məbləğdə cərimə ödəməli olacaq [21].

Digər tərəfdən, müştəriləri yanıltaraq ehtiyacından daha çox sifariş verməyə məcbur edəcək restoranlar da 1500 dollara qədər cərimə ilə cəzalandırılacaq. Çoxlu qida tullantıları atan müəssisələrə maksimum 8 min dollar cərimə tətbiq ediləcək.

Qanuna əsasən məmurlar üçün verilən ziyafətlər də tənzimlənəcək. Belə ki, onlar üçün menyu yeni qənaət qaydaları nəzərə alınmaqla tərtib olunacaq. Məsələ burasındadır ki, çinlilər ənənəvi olaraq korporativ tədbirlər üçün

çoxlu yemək sifariş edirlər, qonaqlar isə yemək qalıqlarını götürməyə utandıqları üçün onların əksəriyyəti sadəcə olaraq tullantıya çevrilir [18].

**7. Çinin ərzaq siyasətindəki uğuru**

Çində qida təhlükəsizliyi ilə bağlı mənfi meylərlə yanaşı, müsbət tərəflər də vardır ki, zənnimcə onu da mütləq qeyd etmək gərəkdir. Bu cür müsbət meylərdən biri boy artımı ilə bağlı olmuşdur. 1975-2010-cu illər arasında Çində uşaqların və yeniyetmələrin orta boyu davamlı olaraq artmışdır və bu artım dayanmamışdır. Ən böyük artım, xüsusilə oğlanlar arasında, yetkinlik dövründə müşahidə edilmişdir. Məsələn, şəhərdə yaşayan 13 yaşlı oğlanların boyu 11,9 sm artmışdır. Bu dövr ərzində 18 yaşlı oğlanlarla qızlar arasındakı boy fərqi 10,3 sm-dən 12,3 sm-ə qədər artmışdır. Çində insanların boyunun artırılması üçün qida məhsullarının tərkibinə boy artıran maddələr əlavə edirlər. Buna görə də, statistikaya əsasən Çin əhalisinin boyu orta hesabla 8 sm artmışdır [23].

Çin bu üsulla öz xalqına məxsus qısaboyluluq problemini aradan qaldırmağa çalışmış və demək olar ki, bu hədəfinə müəyyən qədər nail olmuşdur.

Buna oxşar digər təcrübə ölkəmizdə də uğurla nəticələnmişdir. 27 dekabr 2001-ci ildə, ümummilli liderimiz Heydər Əliyevin 242 nömrəli fərmanı ilə "Yod Çatışmazlığı Xəstəliklərinin Kütləvi Profilaktikası Məqsədilə Duzun Yodlaşdırılması Haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edilmişdir. Bu qanun MDB məkanında model kimi qəbul olunmuşdur. Statistikaya əsasən, "Duzun tərkibinin yodlaşdırılması Qanunu" hesabına Azərbaycanda endokrin xəstəliklər yeddi dəfə azalıb [22].

**Nəticə**

Ölkəmizdə də kifayət qədər böyük ölçüdə və getdikcə daha da artan qida tullantısı halları olur. Bu, nəticə etibarilə bir çox enerji növlərinin itirilməsi və qida sektorunun düzgün idarə olunmamasıdır. Bunun qarşısının alınması üçün, Çində ictimai iaşə obyektlərində yeyilməyən yeməklərə görə tətbiq olunan cərimələrlə bağlı oxşar qanunun ölkəmizdə də tətbiq edilməsi müsbət hal olardı.

Belə ki, BMT-nin "Qida Tullantıları İndeksi 2021" ("Food Waste Index 2021") hesabatında açıqlanan rəqəmlərə görə, ölkəmizdə adambaşına illik **93 kiloqram** qida tullantısı düşüb ki, bu da ümumi olaraq **934 872** (təxminən 935 min ton) min ton qida tullantısına bərabər olub (10, s. 65). 2024-cü ilin "Qida Tullantıları İndeksi" hesabatına görə isə illik adambaşına **102 kiloqram** qida tullantısı qeydə alınıb. Bu isə, bir ildə ölkəmizdə **1 055 462** ton ərzağın itirilməsi deməkdir. Qida tullantıları həcminin çoxluğuna görə Azərbaycan bir çox ölkələri qabaqlayır. Bu göstəricilərlə Azərbaycan aşağı nəticəli "az etibarlı" (low confidence) ölkələr qrupu sırasındadır [11, s. 170].

BMT-nin Ətraf Mühit Proqramının statistikasından da göründüyü kimi, bəzi digər ölkələrdə ərzaq tullantısı göstəricisi rəqəmlərdə geriləsə də, təəssüf

ki, ölkəmizdə bu göstərici 2021-ci ildən sonra daha da artmışdır. Məsələn, İsraildə qida tullantısı 100 kiloqramdan 97 kiloqrama, Özbəkistanda 91 kiloqramdan 86 kiloqrama, Tacikstanda 97 kiloqramdan 86 kiloqrama, Qırğıstanda 91 kiloqramdan 86 kiloqrama düşmüşdür. Gürcüstanda isə bu göstərici 2021 və 2024-cü illərdə dəyişməz olaraq qalmış, yəni ildə adambaşına 101 kiloqram təşkil etmişdir. 2021 və 2024-cü illərin hesabatlarına əsasən Azərbaycan və Ermənistan qida tullantıları göstəricilərinə görə müvafiq olaraq (2021-ci ildə adambaşına 93 kq, 2024-cü ildə isə adambaşına 102 kq-la) eyni rəqəmlərdə qərar tutmuşdur [11, s.171].

Qida tullantılarının azaldılması insanlar və bütövlükdə planetimiz üçün bir sıra faydaları ola bilər. Ərzaq məhsullarının tullantı kimi atılmasının qarşısı alınarsa, ilk növbədə, elektrik, su, qaz, insan əməyi və s. enerji növlərinə qənaət etmiş olarıq. Bu, həm də ərzaq məhsullarına sərf edilən xərclərin azalmasına, ərzaq təhlükəsizliyinin daha da yaxşılaşmasına səbəb ola bilər. Həmçinin dövrümüzün ən böyük ekoloji və sosial problemlərindən olan iqlim dəyişikliyinə qarşı mübarizə aparmış olar və su, torpaq, biomüxtəliflik və tullantıların idarə edilməsi sistemlərinə təzyiqləri azaltmış olarıq.

Çinin digər uğurlu bir təcrübəsi əhalinin boy artımı ilə bağlı olmuşdur. Bu cür təcrübədən ölkəmizdə də yararlanmaq olar. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2005-2015-ci illər ərzində ölkə əhalisinin orta statistik boyu 0,5 sm qısalıb. 2003-cü ildə ölkə əhalisinin orta statistik boyu 167,7 sm (kişilərdə orta boy 171,1 sm, qadınlarda isə 163,6 sm) idisə, son on ildə bu rəqəm 167,2 sm olub. Boyun qısalması təkcə ölkəmizdə mövcud olan problem deyil, bu tendensiya bütün dünya ölkələrində özünü göstərir. Son hesablamalara görə, ümumilikdə dünya əhalisinin boyu 7 sm-ə qədər qısalıb.

Mütəxəssislər əhalinin boy səviyyəsinin qeyd olunan illər ərzində kəskin şəkildə azalmasının səbəbini qidalanmada və ətraf mühitin korlanmasında görürlər. Əgər, vəziyyət belə davam edərsə, gələcək nəsillərdə bu proses özünü daha kəskin şəkildə göstərəcək [1, s. 16].

Azərbaycanda son vaxtlar uşaqlar və böyüklər arasında anemiya (qan azlığı) xəstəliyi, D vitamini çatışmazlığı da geniş yayılıb. Bununla bağlı mövcud dünya təcrübəsinə əsaslanaraq, bəzi qida məhsullarının tərkibinə müəyyən vitamin tipli maddələr əlavə etməklə insanlar arasında qan azlığı problemini azaltmaq olar.

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. STATİSTİK İNFOQRAFİKA 2021. - Bakı: «Narıncı Nəşriyyat Evi» MMC, - 40 s.

**Rus dilində**

2. Трощинский П.В. Эволюция правовой системы Китайской Народной Республики 1949-2018 годы. Историко-*правовой* аспект (с перечнем действующих законов *КНР)*. - Москва: Восточная книга, - 2020, - 185 с.
3. Трощинский Павел В. Правовая система Китая. - Москва: ИДВ РАН, 2016. - 472 с.
4. Зайнигабдинов Александр, Трощинский Павел. Гражданский кодекс Китайской Народной Республики. - Москва: Синосфера, - 2020, - 431 с.
5. Под редакцией докторов юридических наук, профессоров Коробеева А.И., Чучаева А.И. Перевод с китайского профессора Хуан Даосю. УГОЛОВНЫЙ КОДЕКС КИТАЯ. - Москва: ООО «ЮРИДИЧЕСКАЯ ФИРМА КОНТРАКТ», -2017. - 256 с.
6. Под редакцией докторов юридических наук, профессоров Чучаева А.И., Коробеева А.И., Перевод с китайского профессора Хуан Даосю. Уголовный кодекс Китайской Народной Республики. - Москва: ООО «ЮРИДИЧЕСКАЯ ФИРМА КОНТРАКТ». - 2021. - 312 с. (79-83; 217)
7. Косихина С.С., Швец А.В. Правовая система КНР: учебное пособие / С.С. Косихина, А.В. Швец. - Благовещенск: Амурский гос. ун-т, - 2022, - 90 с.
8. Гудошников Л.М. Административное право Китайской Народной Республики. - Москва: Публично-правовые исследования. - 2006.
9. Гудошникова Л.М., Трощинского П.В. Современное право Китайской Народной Республики (обзор законодательства 1978–2010 гг.) Часть 2. 2002–2010 гг. - Москва: ИДВ РАН, - 2012. - 192 с.

**İngilis dilində**

10. UN Environment Programme (UNEP). Food Waste Index Report 2021. UNEP. - 2021. - 99 pp.
11. UN Environment Programme (UNEP). Think Eat Save. Food Waste Index Report 2024. UNEP. - 2024. - 172 pp.

**İnternet resursları**

12. https://modern.az/news/327358/erzaq-savasi-semaalti-buda-imperiyasi/ 19 Yanvar 2022, 20:42
13. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC1127087/ 1999 Dec 18;
14. https://en.wikipedia.org/wiki/Fonterra 12 November 2024, at 02:58
15. https://www.e-huquq.az/az/news/dunya/2135.html 03 iyul 09:32
16. https://en.wikipedia.org/wiki/Moutai_Institute
17. https://www.bbc.com/azeri/other-news-40247404
18. https://pikabu.ru/story/posetiteley_restoranov_v_kitae_budut_shtrafovat_za_nedoedennyie_blyuda_817526
19. https://rtvi.com/news/china-adopts-law-against-food-waste/
20. https://vc.ru/food/240362-v-kitae-prinyali-zakon-po-borbe-s-pererashodom-edy-posetiteli-kafe-teper-mogut-poluchit-shtraf-za-nedoedennye-blyuda
21. https://green.reo.ru/articles/tpost/l55acg5891-a-nu-esh-komu-skazala-kitaiskie-shtrafi
22. https://e-qanun.az/framework/1028
23. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC4147404/?utm_source

## ПОЛИТИКА ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ КИТАЙСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ И УСПЕШНАЯ ПРАКТИКА В ЭТОЙ ОБЛАСТИ

**А.М.МАМЕДОВА**

**РЕЗЮМЕ**

Вопросы продовольственной безопасности в Китайской Народной Республике тесно связаны не только с местным контекстом, но и с глобальной продовольственной безопасностью. Эта тема имеет важное значение как во внутренней политике, так и в международных отношениях. Вопрос продовольственной безопасности в Китае является одним из важнейших вопросов, находящихся в центре внимания как правительства, так и общественности. КНР является не только самой большой в мире массой населения, но и крупнейшей сельскохозяйственной страной. По этой причине продовольственная безопасность жизненно важна для устойчивого развития и социальной стабильности страны. Наряду с вопросом продовольственной безопасности, в настоящее время являющимся глобальной проблемой, в КНР существует ряд других, вызванная различными экономическими, экологическими и социальными факторами, создающими серьезные препятствия для создания устойчивости продовольственного обеспечения страны.

В современное время страна также сталкивается с ограничением земельных и водных ресурсов, необходимых для сельского хозяйства. С другой стороны, нехватка питьевой воды, частое загрязнение существующих водных ресурсов по разным причинам приводят к ряду серьезных социальных проблем.

Одной из важнейших проблем, стоящих перед правительством Китая в современное время, является вопрос качества и безопасности пищевых продуктов, которому в статье уделяется особое внимание. В то же время были рассмотрены меры, принятые в отношении указанных проблем, принятые законодательные акты и обоснована польза использования опыта этой страны для предотвращения пищевых отходов в нашей стране.

Для изучения темы были использованы методы анализа содержания, сравнения, а также междисциплинарный подход.

**Ключевые слова:** Китайская Народная Республика (КНР), Постоянный Комитет Всекитайского Собрания Народных Представителей (ВСНП), продовольственная безопасность, продовольственные торговые «войны», пищевые отходы.

## FOOD SECURITY OF THE PEOPLE'S REPUBLIC OF CHINA AND SUCCESSFUL EXPERIENCE IN THIS FIELD

**A.M.MAMMADOVA**

**SUMMARY**

Food security issues in the People's Republic of China are closely related not only to the local context, but also to global food security. This topic is important both in domestic politics and in international relations. The issue of food security in China is one of the most important issues in the focus of both government and public attention. In addition to having the largest mass of the population in the world, the PRC is also a large agricultural country.

For this reason, food security is vital for the sustainable development and social stability of the country. Since the issue of food security is a global problem at the present time, there are also a number of problems related to this issue in the PRC, which are caused by various economic, ecological and social factors, and these cause serious obstacles to create sustainability in the country's food supply.

In modern times, the country also faces limited land and water resources needed for agriculture. On the other hand, the scarcity of drinking water, the frequent pollution of existing water resources for various reasons leads to a number of serious social problems.

One of the most important problems facing the Chinese government in modern times is the issue of food quality and safety, which is given special attention in the article.

At the same time, the measures taken in relation to the mentioned problems, the adopted legislative acts were examined and the benefits of using the experience of this country for the prevention of food wastage in our country were justified.

The methods of content analysis, comparison, as well as interdisciplinary approach were used for the study of the topic.

**Keywords:** People's Republic of China (PRC), Standing Committee of the National People's Congress (NPC), food security, food trade"wars", food waste.

## PEDAQOGİKA

UOT 0000000285585858

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ НРАВСТВЕННЫХ И ОБЩЕЧЕЛОВЕЧЕСКИХ ЦЕННОСТЕЙ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

**Н.Ф.АСЛАНЗАДЕ**
***Карабахский Университет***
***aslanzadenilufer@mail.ru***

*Процесс формирования этических основ наших будущих лидеров, включая то, как они развивают свое понимание хорошего и плохого, а также свои личные ценности, выходит за рамки простого изучения учебников. Процесс включает в себя их интеллектуальный рост, эмоциональные переживания, социальные взаимодействия и многое другое. Однако вехи, основанные на теории Кольберга, дают представление о сложных процессах, происходящих в подростковом возрасте, когда они переходят от эгоцентричных личностей к людям с этическими принципами. Подростки формируют свое представление о добре и зле, говоря о морали, борясь с эмоциями, такими, как вина или сочувствие, и поглощая влияние окружающей среды. Это включает в себя обратную связь с социальными кругами, которыми дорожат и используют — семьи, друзья, учителя и различные средства массовой информации, которые формируют моральную основу подростков.*

**Ключевые слова**: национально- духовный, традиции, язык, терпимость

Подростковый возраст - самый увлекательный аспект взросления, который невозможен без формирования ценностей и нравственности в подростковом возрасте. Следует представить это как дружеское и поучительное путешествие к пониманию подросткового мира, и прийти к заключению, что возможно, они так же, как и вы начинают формировать свои внутренние моральные чувства, закладывающие основу для их дальнейшего становления. Это как бы проход за кулисы в сознание подростка, показывающий, как он понимает, что для него важно, и что он считает правильным или неправильным. Исследования стилей воспитания неоднократно показывали, что, когда родители проявляют теплоту,

уважение и поддержку, а также придерживаются последовательных, твердых и рациональных ожиданий в отношении поведения, подростки реже страдают от тревоги или депрессии, злоупотребляют наркотиками или алкоголем, чем их сверстники, у которых родители не проявляют ни теплоты, ни четких ожиданий (или и того, и другого).Они также с большей вероятностью проявят зрелость, жизнестойкость, оптимизм и способность к саморегуляции и будут лучше учиться в школе. Эти результаты зависят от этнической принадлежности, социально-экономического статуса и структуры семьи.

Исследование подросткового возраста выявило несколько ключевых идей о воспитании детей в эти годы:

- Родители, семьи и другие поддерживающие взрослые по-прежнему имеют большое значение в подростковом возрасте, даже несмотря на то, что сверстники, похоже, занимают центральное место. Влияние взрослых остается сильным, но их возможности меняются.
- Наши потребности существенно меняются в период между началом полового созревания и ранней взрослостью. Здоровые отношения между родителями и подростками также должны измениться: возрастать самостоятельность и возможности вносить значимый вклад и уменьшаться контроль по мере взросления.
- Несмотря на то, что существует возможность для широкого спектра личных мнений и подходов к воспитанию детей, теплота и связь необходимы для нашего благополучия в любом возрасте.

«Взаимосвязь стиля семейного воспитания и психологического благополучия подростков является одной из наиболее актуальных проблем современной психологии. Семья – это основное место, где формируются мировоззрение, личностные качества и механизмы поведения подростка. Ролевая структура семьи во многом определяется ведущими семейными ценностями, и иерархия развивается с течением времени. Иерархия эволюционирует в течение жизненного цикла семьи, отражая изменение важности семейных функций. Например, когда рождается ребенок, в семье доминирует воспитательная функция, а родительские ценности выходят на первое место» [2, с.3].

История каждого народа определяет основу процесса созревания и эволюции наряду с традициями государственности, а также богатое национально-духовное наследие, чистые и высшие ценности. Эти традиции и ценности переплетаются между собой и выступают как яркое воплощение идеологии и системы мышления народов, их мировоззрения. «В подростковом возрасте происходит формирование и становление личности, и именно в данный возрастной период человек подвергается различным влияниям из вне, которые могут оказать положительное

или отрицательное влияние на развитие его поведенческих особенностей» [1, с. 2]

Азербайджанцы, считающиеся одними из древнейших народов мира, внесли неоценимый вклад в человеческую цивилизацию своей исторически сложившейся богатой системой национально-духовных и нравственных ценностей, неизменно сохраняя свою самобытность, непоколебимую приверженность возвышенным и чистым идеалам.

Следовательно, успешная гармония прогрессивных традиций Востока и умеренных ценностей Запада в нашей духовной культуре также объединяет разные мировоззрения и культуры в нашем национальном мышлении.

Национальные ценности имеют в своей основе также и представления о нравственности, заложенные еще в священных писаниях. На формирование нравственности и ценностей подростков влияют различные факторы, каждый из которых формирует их понимание окружающего мира. Эти факторы взаимодействуют, образуя сложную систему, которая помогает подросткам в их этическом и нравственном взрослении:

- **Влияние семьи:** семейное окружение формирует у детей первоначальные моральные нормы и ценности. Стиль воспитания, нравственное поведение, моделируемое родителями, и обсуждения этических вопросов в семье существенно влияют на нравственное развитие подростков.

- **Влияние сверстников:** по мере того, как подростки стремятся к независимости и самоидентификации, сверстники приобретают все большее влияние. Группы сверстников могут укреплять или оспаривать ценности, привитые семьей, а стремление к принятию и принадлежности иногда может приводить к этическим дилеммам.

- **Культурные и социальные нормы:** культурные нормы, социальные ожидания и преобладающие этические стандарты в обществе влияют на моральные взгляды подростка.

- **Образовательная среда:** ценности, пропагандируемые в образовательных учреждениях, возникающие этические дилеммы и рекомендации учителей вносят значительный вклад в нравственное развитие.

- **Личный опыт и когнитивное развитие:** личный опыт, включая трудности и успехи, формирует моральное понимание. По мере развития когнитивных способностей подростков у них развиваются более сложные моральные рассуждения.

- **Воздействие средств массовой информации:** средства массовой информации в своих различных формах знакомят подростков с различными точками зрения, этическими дилеммами и моральными повествованиями, влияя на их восприятие и моральные суждения.

- **Религиозные и духовные убеждения:** для многих подростков религиозные и духовные убеждения служат основой для нравственного развития, предлагая конкретные этические ориентиры и моральный компас.

- **Социально-экономические факторы:** экономические условия и социальный статус могут влиять на нравственное развитие, формируя возможности и проблемы подростков, а также их представления о честности и правосудии.

Эти факторы способствуют развитию морали и ценностей в подростковом возрасте, помогая сформировать этические рамки, которые будут направлять подростков во взрослую жизнь. Понимание этого может помочь родителям и другим взрослым, работающим с молодежью, повысить свое влияние при работе с подростками. Если молодые люди чувствуют, что их уважают, если они верят, что их идеи и усилия имеют ценность для их семьи, и если они могут заслужить статус и привилегии, проявляя ответственность, у них появляется больше мотивации действовать ответственно. «Отрочество, или подростковый возраст, также имеет собственное деление по возрастному принципу. Детей от десяти до одиннадцати лет принято выделять понятием – младший подросток. Ребёнок, проживающий возрастной период с двенадцати до тринадцати лет, является типичным подростком, а возраст от четырнадцати до пятнадцати лет проживают интересующие нас старшие подростки» [4, с.4]

Ценности нравственного развития в подростковом возрасте – это убеждения и установки, формирующие моральные суждения и поведение подростков. Эти ценности, отражающие то, что важно для подростков, могут быть основаны на личном опыте, семье, культуре и многом другом. Восемь моральных качеств обычно ценятся подростками, независимо от их культурного происхождения:

- Трудолюбие: постоянно работать в поте лица и позитивно относиться к поставленным задачам.

- Бережливость: вести простой образ жизни, быть внимательным к расходам и сбережениям.

- Честность: оставаться верным своим обязанностям, быть пунктуальным и хорошо выполнять задания.

- Дисциплина: уважение и следование правилам, установленным школами, учреждениями и обществом.

- Вежливость: доброжелательное и уважительное поведение в различных ситуациях.

- Чистоплотность: поддержание физической и душевной чистоты.

- Сплоченность: готовность выслушать других и ценить командную работу.

- Щедрость: проявление внимания и заботы не только о себе, но и о других людях.

Нормы хорошего тона гласят, что конфликты следует разрешать в одиночку. Попытка дисциплинировать своего ребенка – это не то же самое, что наказывать его, и именно поэтому родители, будучи во взаимосвязи с педагогом должны осознанно подходить к таким диалогам. Эффективное использование влияния общечеловеческих и национальных ценностей в воспитании подростка зависит от возможностей, созданных обществом, и уровня социальной защиты семьи, что можно наблюдать в следующих областях:

- социальная защита семьи. Это отражено в мерах **Государственная семейная политики,** социальной защиты, предоставляемых населению на основе государственных программ;
- защита детей в семье и обществе;
- образовательная поддержка

«Исторически семья играла важную роль в национальном развитии государства как хранительница высоких моральных ценностей азербайджанского народа. Государственная семейная политика, реализуемая в независимом Азербайджане, исходит из национально-нравственных ценностей и является их непосредственным воплощением. Это ясное выражение ценности, придаваемой семье в стране» [5].

Нравственное развитие в подростковом возрасте помогает подросткам наладить контакт с обществом и поддерживает их здоровье в целом.

Что касается морального развития в подростковом возрасте, то широко признана теория, предложенная Лоуренсом Кольбергом; вместо того чтобы сосредотачиваться исключительно на действиях, эта теория делает акцент на причинах, лежащих в основе морального выбора. «Данный подход развивался в лоне традиционной этики и до сих пор господствует в морали повседневности, например это можно видеть в оценочном статичном варианте разнополярных отношений «хороший – нехороший», «нравственный – безнравственный».

Но «классический» подход при решении большинства задач, встающих перед современным человечеством, не удовлетворяет исследователей в полной мере: многие моральные феномены, характеризующие людей на разных этапах их жизни, так и остаются неразгаданными. Традиционной этике сложно определить, чем обусловлены и как динамически формируются те или иные стороны и выражения нравственного поведения (совесть, жадность, справедливость, эмпатия, прощение и др.). Подобными вопросами обычно занимается психология. Однако важно понимать, что данная проблематика отнюдь не исчерпывается психоло-

гическим подходом, который игнорирует социальную и культурную среды в развитии субъекта» [1].

Теория Кольберга работает как теория последовательных стадий, что означает, что индивиды проходят ее этапы в определенном порядке, не пропуская ни один из них. Однако переход от одной стадии к другой не происходит автоматически по мере взросления. Вместо этого люди переходят к следующему этапу, когда они осознают недостатки в решении моральной проблемы. Кольберг также предположил, что нравственное развитие состоит из шести этапов, которые сгруппированы в три уровня:

1. Первый уровень, известный как преморальный, или доконвенциональный, – это когда нравственность контролируется извне. Подростки на этом этапе принимают решения, руководствуясь личными интересами, стараясь избежать наказания или стремясь к личной выгоде.
2. Второй уровень, общепринятая мораль, характеризуется следованием общественным правилам и нормам. Подростки начинают принимать во внимание точку зрения других людей и законы общества.
3. Последний уровень, постконвенциональная или принципиальная мораль, предполагает более зрелое понимание морали, основанное на принципах и этике. Большинство подростков не достигают этой стадии.

Исследования показали, что такие личностные качества, как эмоциональный интеллект, навыки межличностного общения и лидерские качества, гораздо точнее предсказывают будущий потенциал ребенка. В результате проведенного анализа можно утверждать, что основная задача образования и воспитания заключается в отражении, сохранении, развитии содержания культурных ценностей и служит отражению уровня культуры личности.

## ЛИТЕРАТУРА


1. Бровкина А.Р. Теория развития морального субъекта Л.Колберга. 2017 // https://cyberleninka.ru/article/n/teoriya-razvitiya-moralnogo-subekta-l-kolberga/viewer
2. Ковшова О. С. Влияние семьи на развитие девиантного поведения детей и подростков // Наука и современность. 2010. №2-2// https://cyberleninka.ru/article/n/vliyanie-semi-na-razvitie-deviantnogo-povedeniya-detey-i-podrostkov/viewer
3. Маткаримова К.А. Взаимосвязь стиля семейного воспитания и психологического благополучия. Вестник магистратуры. 2023. №4-2 (139)// https://cyberleninka.ru/article/n/vzaimosvyaz-stilya-semeynogo-vospitaniya-i-psihologicheskogo-blagopoluchiya-podrostkov-1/viewer
4. Мухина В.С. Возрастная психология: феномен развития, детство, отрочество: Учебник для студ. Вузов / Мухина В.С. - М., 2000// https://www.phantastike.com/age_psychology/vozrastnaya_psihologiya_muhina/html/
5. Семейная политика // (https://family.gov.az/ru/policies/aile-siyaseti)

## YETKİNLİK DÖVRÜNDƏ MƏNƏVİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

**N.F.ASLANZADƏ**

**XÜLASƏ**

Gələcək liderlərimizin yaxşı və pis anlayışlarını və şəxsi dəyərlərini necə inkişaf etdirdikləri də daxil olmaqla etik əsaslarının formalaşması prosesi sadəcə dərslikləri öyrənməkdən kənara çıxır. Buraya onların intellektual böyüməsi, emosional təcrübələri, sosial qarşılıqlı əlaqələri və daha çox şey daxildir. Bununla birlikdə, Kohlberg nəzəriyyəsinə əsaslanan mərhələlər, yeniyetmələrdə eqosentrik şəxsiyyətlərdən etik prinsiplərə sahib fərdlərə doğru irəlilədikcə baş verən mürəkkəb proseslər haqqında fikir verir. Yeniyetmələr əxlaq haqqında danışmaqla, günahkarlıq və ya empatiya kimi duyğularla mübarizə aparmaqla və ətrafdakı təsirləri mənimsəməklə yaxşılıq və pislik haqqında fikirlərini formalaşdırırlar. Buraya dəyər verdikləri sosial dairələrdən – ailələrdən, dostlardan, müəllimlərdən və istifadə etdikləri müxtəlif mediadan mənəvi təməllərini formalaşdıran rəy daxildir.

**Açar sözlər**: milli-mənəvi, ənənə, dil, mədəniyyət, türkçülük, metod, kurikulum

## FACTORS AFFECTING THE DEVELOPMENT OF MORAL AND UNIVERSAL VALUES IN ADOLESCENTS

**N.F.ASLANZADEH**

**SUMMARY**

The process of forming the ethical foundations of our future leaders, including how they develop their understanding of good and evil and their personal values, goes beyond simply studying textbooks. This includes their intellectual growth, emotional experiences, social interactions, and much more. However, the stages based on Kohlberg's theory provide insight into the complex processes that take place in adolescents as they move from egocentric personalities to individuals with ethical principles. Adolescents form their ideas about good and evil by talking about morality, dealing with emotions such as guilt or empathy, and absorbing the influences around them. This includes feedback from the social circles they value – families, friends, teachers and the various media they use that shape their moral foundation.

**Keywords:** national, moral, traditional, language, culture, turkism, method

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2024*

## SOSİOLOGİYA

**UOT 71.0**
**Orcid:0000-0001-5906-9588**
**Orcid:0000-0002-2227-2782**

# QARABAĞIN MƏDƏNİ İRSİ

**Z.Q.ƏSGƏROVA, A.M.MƏMMƏDOVA**
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***zamina.asgarova@azmiu.edu.az***
***aygun.mammadova@azmiu.edu.az***

*Qarabağda bir əsrə yaxın müddətdə aparılan arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, bu bölgədə yaşamış əhali qədim dövrlərdən başlayaraq, mədəniyyət tariximizin demək olar ki, bütün dövrlərindən keçmiş, inkişaf etmiş, hər zaman sayılıb seçilmişlər. Qarabağın qədim tarixi-mədəni təkamülünü təsdiqləyən, yüzlərlə nadir sənət əsərləri Azərbaycan mədəniyyəti və incəsənətinin aparıcı və ayrılmaz tərkib hissəsini təşkil edir.*

*Arxeoloji qazıntılarda nəticəsində aşkar edilmiş maddi- mədəniyyət nümunələri Qarabağın etno-mədəni mühitini, əhalinin sosial- iqtisadi səviyyəsini, məişət şəraitini, bir sözlə, Azərbaycanın bu bölgəsinin iqtisadi, ictimai və mədəni tarixinin təkamülünü hərtərəfli əks etdirir.*

**Açar sözlər:** Qarabağ, arxeoloji qazıntılar, Quruçay mədəniyyəti, zəngin irs, tarixi mədəni təkamül, Xocalı Gədəbəy mədəniyyəti, Avropaya pəncərə.

"Köhnə qitənin" Avrasiyanın ən qədim antropogenez məkanlarından hesab edilən Qarabağ Azərbaycanın etnik, tarixi ərazilərindən biridir. "Qarabağ" sözünün etimologiyasına görə, qədim türk xalqlarında "qara" sözünün rəng çaları anlamından başqa, "sıx", "qalın", "böyük", "tünd", "torpaq" və digər mənaları da vardır. Sözün ikinci hissəsi "bağ" sözü səfa, rahatlıq məkanı kimi anlaşılır. Qarabağ bölgəsi qədim Paytakaran, Uti, Havand, Arsax və Qarqar vilayətlərinin müəyyən bir hissəsini birləşdirərək, Araz və Tərtər çayları arasında yerləşən geniş bir ərazini əhatə etmişdir.

Burada aparılan arxeoloji qazıntılar nəticəsində uzun bir tarixi dövr ərzində ibtidai insanların həyat şəraiti tədqiq edilmiş və 1,5-2 mln. il bundan əvvəl Azərbaycan ərazisində mövcud olan insan yaşayış məskənlərindən

Azıx, Tağlar kimi mağaralar dünyanın Olduvay mədəniyyəti qədər yaşı olan Quruçay mədəniyyətinin dəqiqləşdirilməsinə öz töhfəsini vermişdi. Aşkar edilən çoxsaylı artefaktlar əsasında Quruçay vadisində yaşayan ibtidai insanların daş dövrünün "texniki cəhətlərini" mənimsəmələri, yaşamlarını xalkolitə qədər davam etmələri dəqiqləşdirilmişdir. Belə ki, Azıx və Tağlar mağaralarının üst mədəni təbəqəsinin sakinləri eradan əvvəl V-IV minilliklərdə bəşər tarixi üçün ən böyük nailiyyətləri sırasında nəinki ilk metalın misin emalı sirlərinə bələd olur, həmçinin əkinçilik və maldarlıqla məşğul olmuş və bu məqsədlə Quruçay, Köndələnçay vadisində yeni-yeni yaşayış məskənləri saldıqları üzə çıxarılmışdı.

Qarabağda bir əsrə yaxın müddətdə aparılan arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, bu bölgədə yaşamış əhali qədim dövrlərdən başlayaraq, mədəniyyət tariximizin, demək olar ki, bütün dövrlərindən keçmiş, inkişaf etmiş, hər zaman sayılıb seçilmişlər. Qarabağın qədim tarixi-mədəni təkamülünü təsdiqləyən, yüzlərlə nadir sənət əsərləri Azərbaycan mədəniyyəti və incəsənətinin aparıcı və ayrılmaz tərkib hissəsini təşkil edir. Bütün qeyd olunanlara əsaslanaraq, demək olar ki, Qarabağın maddi-mədəni irsi Azərbaycan mədəniyyət tarixinin "aynası"dır. Qarabağ bölgəsinə məxsus və müasir dövrədək gəlib çatan istənilən bir sənət əsəri Azərbaycan xalqının bədii mədəniyyətinin özunəməxsus "genofond"una daxil olmaqla, zəngın irsimizin bir hissəsini təşkil edir. Bundan başqa, arxeoloji qazıntılarda aşkar edilmiş maddi- mədəniyyət nümunələri Qarabağın etno-mədəni mühitini, əhalinin sosial- iqtisadi səviyyəsini, məişət şəraitini, bir sözlə, Azərbaycanın bu bölgəsinin iqtisadi, ictimai və mədəni tarixinin təkamülünü hərtərəfli əks etdirir. Xüsusi olaraq, hələ erkən orta əsrlərdə Cənubi Qafqazda mövcud olan azsaylı təhsil ocaqlarının həm də bu ərazidə mövcud olması haqqında bəzi əlyazmalarda olan məlumatlara əsaslanaraq, alban əlifbasının qismən buralarda yaranması, yayılması haqqında ehtimal irəli sürmək olar.

V əsrdə Qafqaz, yaxud Azərbaycan Albaniyasının Qəbələdən sonra, ikinci paytaxtı Bərdə şəhəri olur və hakim zümrə Qarabağda əsaslı kök salmağa başlayır. Zəngin milli-mədəni ənənələr üzərində yaranmış qədim Bərdə şəhəri Qarabağ bölgəsində və Tərtər çayı hövzəsində yerləşən indiki Bərdə şəhərinin yaxınlığında salınmışdır. Bir çox tarixi mənbələrdə Bərdə şəhərini "Arranın anası" adlandırırlar. Qafqaz Albaniyası ərazisində aparılan araşdırmalara görə, bu ölkənin etnik tərkibinin əsasını türk tayfaları təşkil edirdi. Orta əsrlərdə, konkret olaraq Sasanilərın hakimiyyəti dövründə Qarabağ bölgəsində müstəqil Sünik dövləti mövcud idi. Bu dövlətin paytaxtı indiki Xocavənd ərazisində yerləşirdi. Sasanilərin razılığı ilə Sünik Albaniyadan alınaraq, Atropatenaya qatılmışdı. Bu tarixdən etibarən, yəni 571-ci ildən Atropatenanın əsas əyaləti olan Sünik dövlətinin öz qoşunu, gerbi və bayrağı vardı. Dövlət XI əsrə qədər mövcud olmuşdu. Daha sonra Xaçın knyazlığı adlı yeni

bir dövlət yarandı. Bu dövlətin çiçəklənmə dövrü XIII əsrə təsadüf edir. Dövlətin ən məşhur hökmdarı olan Həsən Cəlal bəzi tarixi mənbələrdə bütün Albaniyanın hökmdarı adlandırılırdı. Xaçın müəyyən mənada müstəqil dövlət idi. Bu dövrdə monqollar Həsən Cəlalın həyata keçirdiyi siyasət nəticəsində Qarabağa hücum etməmişdilər. Maraqlıdır ki, Həsən Cəlalın yanında çalışan Muxtar Qoşun yazdığı "Məcəllə" kitabı əsas tarixi mənbə kimi bir çox dillərə tərcümə edilmişdir. Knyazlığın mərkəzi indiki Kəlbəcər rayonu ərazisində yerləşirdi.

Bu dövrdə müxtəlif tayfalar arasında ünsiyyət vasitəsi türk dilləri qrupuna aid, əlifbası 52 hərfdən ibarət olan qədim alban, yaxud da Arran dili idi. Faktı 705- ci ildə süquta uğramış Albaniya dövlətçiliyi haqda yazan ərəb müəllifləri qeyd edirlər. Yeri gəlmişkən, Azərbaycanda ən qədim epiqrafik abidə Xocalı kurqanlarının birindən tapılmış muncuğun üzərindədir. Muncuğun üstünə mixi xətt ilə Assuriya hökmdarı Adad-nirarinin adı həkk olunub. Bu yazı həm də Qarabağın qədim tayfalarının Yaxın Şərq, Asiya ilə qədim ticari, siyasi və mədəni əlaqələrindən xəbər verir. Bu məşhur qəbir abidəsi qədimdə Xocalı çayının Qarqarçaya töküldüyü böyük düzən ərazidə yerləşmiş, 200 hektara yaxın sahəni əhatə etmişdir. Burada ilk qazıntılar XIX əsrin sonlarında Şuşa realnı məktəbinin alman dili müəllimi E.Resler tərəfindən aparılmışdır. Qədim və məşhur Xocalı-Gədəbəy mədəniyyətinə aid olan bu abidənin ilkin materialları Ermitaja və Moskva Dövlət Tarix Muzeyinə göndərilmişdir. Qarabağda VII-VIII əsrlərdə yerli Mehranilər sülaləsi hakimiyyətdə olmuşdur. Ərəblərin işğalı ilə burada İslam dini yayılmağa başlasa da, dağlıq bölgələrdə xristianlıq 1836-cı ilə qədər əsas din olaraq qalmaqda idi.

Beləliklə, Qarabağın dağlıq ərazisinin əsas əhalisi qarqarlar, Aran torpaqlarının əsas əhalisi isə utilər idi. Burada insan şəkli formasında və ya üzərində insan təsviri olan daşlar geniş yayılmışdır. Bu isə öz növbəsində həmin dövrdə Qarabağda bədii daşyonma sənətinin "renessansı" hesab edilən heykəltəraşlığın da inkişaf etməsi deməkdir. XX əsrdə bir qrup arxeoloq Füzulinin Araz Dilağar kəndində "Bütlər sarayı” deyilən bir təpəni aşkar etmişdilər. Burada 29 daş heykəl tapılmışdır. Dövr etibarilə erkən orta əsrlərə aid olan bu heykəllər tanrı obrazları kimi də elmə təqdim olunurlar. Bütlər eyni formada, kiçik oleüdə, gildən hazırlanmışdır. Bunlar artıq klassik bütpərəstlik nümunəsidir. Bu o deməkdir ki, Qarabağ ərazisində xristianlıqla eyni zamanda bütpərəstlik də mövcud idi. Xristianlığın geniş yayılması ilə bütpərəstliyə qarşı "savaş" məhz bu dövrdə başlayır və bir çox bütlər sındırılaraq dağıdılır. Qarabağ bölgəsində bu bütlərin qolları qırıq, uçurulmuş, ətrafa hissə-hissə səpələnmiş vəziyyətdə tapılması buna sübutdur. Bu proses IX-XI əsrlərə qədər davam edir. Sonrakı yüzilliklərdə düzəldilən bütlər arxeoloqlar tərəfindən daha çox bütöv toxunulmamış şəkildə aşkar edilirdi. Heykəlin qollarının dirsəkdən bükülərək üzünə sarı qatlanmış vəziyyətdə

təsviri xristianlığa doğru addım hesab edilə bilər.

Qarabağ bölgəsi bütün Şərq dünyasını əhatə edən və Avropaya "pəncərə" açan əfsanəvi İpək yolunun əsas keçid hissələrindən biri olmuşdur. Bunu sübut edən ən vacib dəlil Araz çayı üzərində inşa edilən Xudafərin körpüləri, yaxud "Nicat körpüləri"dir. Araz çayı bir çox yazılı mənbələrdə "qızıl vadisi olan çay", "cənnətdən axan çay", "dirilik suyu" kimi adlandırılır. Bu körpülər arasındakı məsafə 800 metrdir. Ən kiçik körpü isə Araz çayının dar yerində 11 tağdan ibarətdir. Körpülərin tikintisi XI-XII əsrlərə aid edilir. Xudafərin körpülər kompleksi məşhur Ərdəbil-Beyləqan, Təbriz- Culfa yolu üzərində deyil, cənubdan, Qarabağdan gələn yolun üstündə inşa edilmişdi.

### ƏDƏBİYYAT


1. Hüseynov M. Azərbaycan arxeologiyası. Daş Dövrü. - Bakı, - 1975, - s.34- 39: Quruçay və Köndələnçay çaylarında qədim mədəniyyətlərin izləri. - Bakı: Qarağac, - 1981, - s.45-59; Qarabağ abidələri. – Bakı: Nurlan, - 2009, - c. 12-23
2. Mustafayev A. Qarabağda ənənəvi daş işləri // “İrs-Miras”, - 2014, - No 9, - s.42-46;
3. Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. – Bakı: Təhsil, - 2005, - 380 s.
4. Hacıyeva Ü. Azərbaycan Qarabağın etno-mədəni sərvətinin yeganə varisidir // İRS- İrs. Beynəlxalq Azərbaycan jurnalı. - 2006.- № 6. -s.36-39.
5. Azərbaycan tarixi. VII cilddə, c.l. - Bakı, - 1998, - s. 158;
6. Həlilov C. Qafqaz Albaniyasının maddi mədəniyyəti: IV c. etmək n. Eramızdan əvvəl III. – Bakı: Qarağac, - 1985, - 276 s.


## КУЛЬТУРНОЕ НАСЛЕДИЕ КАРАБАХА


**З.Г.АСКЕРОВА, А.М.МАМЕДОВА**


### РЕЗЮМЕ


Результаты археологических раскопок, проводившихся в Карабахе на протяжении почти столетия, показали, что население, проживавшее в этом регионе, начиная с древнейших времен, прошло практически все периоды нашей культурной истории, развивалось, всегда учитывалось и отбиралось. Подтверждая древнюю историческую и культурную эволюцию Карабаха, сотни редких произведений искусства составляют ведущую и неотъемлемую часть азербайджанской культуры и искусства.

Обнаруженные в результате археологических раскопок материально-культурные образцы всесторонне отражают этнокультурную среду Карабаха, социально-экономический уровень населения, условия жизни, словом, эволюцию экономической,



**Ключевые слова:** Карабах, археологические раскопки, сухоречная культура, богатое наследие, историческая и культурная эволюция, культура Ходжалы, Гедабей, Окно в Европу.

## CULTURAL HERITAGE OF KARABAKH

**Z.G.ASGAROVA, A.M.MAMMADOVA**

**SUMMARY**

The results of the archaeological excavations conducted in Karabakh for almost a century have shown that the population that lived in this region, starting from ancient times, passed through almost all periods of our cultural history, developed, and were always counted and selected. Confirming the ancient historical and cultural evolution of Karabakh, hundreds of rare works of art form a leading and integral part of Azerbaijani culture and art.

The material-cultural samples discovered as a result of archaeological excavations comprehensively reflect the ethno-cultural environment of Karabakh, the socio-economic level of the population, the living conditions, in short, the evolution of the economic, social and cultural history of this region of Azerbaijan.

**Keywords:** Karabakh, archaeological excavations, dry river culture, rich heritage, historical cultural evolution, Khojaly Gadabey culture, window to Europe

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2024*

## İQTİSADİYYAT

UOT 007.574.33.31
ORCİD 0009-0008-4458-9781, 0000-0001-8794-9187

# AZƏRBAYCANDA MEYVƏÇİLİYİN VƏZİYYƏTİ VƏ MEYVƏ İXRACATININ PROQNOZLAŞDIRILMASI

**F.Ə.MİRZƏYEV, A.B.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***farhad_1958@mail.ru, abbasaynure@gmail.com***

*Məqalədə son illərdə ölkəmizdə meyvəçiliyin vəziyyəti və inkişafı təhlil olunmuşdur. Alınmış nəticələrə görə deyə bilərik ki, meyvəçilik ixracı dəyərdən düşmüşdür. Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi saytında təqdim edilən və 1994-2022-ci illəri əhatə edən meyvəçilik üzrə ixrac məlumatlarından istifadə edilmişdir. Jarque-Bera statistikası və müvafiq ehtimal dəyərinin 0.05-dən böyük olması səbəbi ilə, meyvəçilik ixracının normal paylanmaya sahib olduğunu demək olar. Göstərilmişdir ki, ARIMA modeli kifayət qədər yaxşı proqnoz qabiliyyətinə malik olmadığından meyvə ixracı sırasında olan dalğalanmaları diqqətə almaq məqsədi ilə meyvəçilik ixracının proqnozlaşdırılmasında qiymətləndirilməni Furye ARİMA metodu ilə aparmaq olar.*

**Açar sözlər:** ARİMA metodu, meyvəçilik, Meyvəçilik ixracı, Furye ARİMA metodu, Qauss Markov şərtləri, proqnozlaşdırma, Meyvəçilik ixracının modeli

Hazırkı dövrdə dünya gündəmində iqlim dəyişikliyi və onun təbiətə vurduğu ziyan araşdırmalarda əsas rol oynayır. İqlim dəyişikliyi həm torpağa, həm heyvandarlığa, həm də insanların yaşayışında ciddi dəyişikliklər yaradır. Ölkəmizdə kənd təsərüffatı həm iqlimdən, həm iqtisadi şəraitdən, həm də insanların tələbatından asılı olaraq, zaman-zaman dəyişikliyə məruz qalmışdır.

Məlumdur ki, kənd təsərrüfatı Azərbaycanda iqtisadiyyatın mühüm hissəsini təşkil edir. Müstəqillik illərində kənd təsərrüfatının inkişafına nəzər yetirsək aydın şəkildə görərik ki,1992-1995-ci illərdə məhsul yığımı 12% aşağı düşdüyü halda, 1996-2014-cü illərdə bu rəqəm 7,7 faizə qədər artmışdır. Müstəqiilik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsi də inkişaf etməyə başladı. Təbii haldır ki, aqrar sahədə maliyyə dəstəyi mühüm rol oynayır. Bu sahədə yenidən qurma işləri ilə bağlı olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə aqrar sektorda mühüm işlər görülüb. 2003-cü

ildə prezident seçkilərindən sonra onun imzaladığı ilk fərmanlarda və sərəncamlarda Azərbaycanda aqrar sahənin inkişafına mühüm yer verilmişdir. "2015-ci ilin Kənd təsərrüfatı ili kimi elan edilməsi ilə bağlı sərəncam" ölkəmizdə həqiqətən kənd təsərrüfatı sahəsinə mühüm yer verilməsinin isbatıdır. Bu sərəncama əsasən fermer torpaq vergisindən başqa digər vergilərdən azad olunub. Kəndlilərə toxum, damazlıq, yanacaq, sürtkü yağları kimi subsidiyaların verilməsinə başlanıldı. Onu da qeyd edək ki, bu gün fermerlərə və digər sahələrdə çalışan sahibkarlara güzəştli kreditlər də təklif olunur. Məhz bu imkanlardan istifadə etməklə ölkəmizdə bu gün fermerlər öz təsərrüfat sahələrini daha da genişləndirmişlər. Həmçinin pambıqçılıq, taxılçılıq və meyvəçiliyin inkişaf etməsi üçün ölkəmizdə yeni torpaq sahələri istifadəyə verilmişdir və su kanalları, nasos stansiyaları, su təsərrüfat obyektləri kəndlilərin istifadəsinə verilib. "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında Strateji Yol Xəritəsinin hazırlanması üçün tapşırıqlar verilmişdir. Bu fərmana əsasən kənd təsərüffatı məhsularının emalı və ixracı ilə bağlı artıma nail olmaq üçün silsilə müzakirələr aparılmış və kənd təsərrüfatının bu günkü vəziyyəti təhlil olunmuş, buna əsasən də "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır. Bu yol xəritəsinə əsasən təsərrüfatın inkişafı ilə bağlı 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da gələcək dövrdə təsərrüfatın inkişafina nail olmağa kömək olacaq. Strateji Yol Xəritəsinin 2016-2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması ilə bağlı 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulmuşdur. Bu hədəflər kənd təsərrüfatı sahəsində davamlı inkişafa nail olmaq, meyvəçiliyin istehsal sektorunu genişləndirmək, kənd təsərrüfatı sahəsində elmin və təhsilin yüksəldilməsi və biznes sektorunun inkişaf etdirilməsidir [3,4].

Bu gün Azərbaycanda əhalinin qidasının əsasını təşkil edən meyvələr yüksək tələblər əsasında istehsal olunur. Belə ki, meyvə tələbatını ödəmək əhəmiyyətli bir fəaliyyətdir. Azərbaycanda bağçılığın tarixi çox qədimlərə söykənir. Əlverişli iqlim şəraiti, zəngin minerallarla zəngin olan torpaq ərazidə müxtəlif növ bitki ağaclarının təbii halda yetişdirilməsinə zəmin yaradıb. Azərbaycanda alma, armud, gilas, zeytun, tut, əncir, əzgil, nar, qarağat, moruq, böyürtkən, fındıq, qoz, badam, alça, çiyələk kimi ağac və kol meyvə bitkiləri təbii olaraq yetişir. Qeyd edək ki, bu meyvələrin əksəriyyəti təbii halda insanların qidasının əsas hissəsini təşkil etməklə yanaşı müalicə məqsədi ilə dərman istehsalında da istifadə olunur. Bu bitkilər qədim zamanlarda respublika ərazisində yerləşən Böyük Qafqaz dağlarının dağlıq və dağətəyi rayonla-

rında yabanı şəkildə mövcud olub, zaman keçdikcə xalq tərəfindən mədəni halda yetişdirilməyə başlayıb. Ona görə də Cənubi Qafqaz alma, armud, heyva, nar və s. kimi meyvələrin mədəni halda yetişdirildiyi ilk məskənlərdən biridir.

Tumlu və çəyirdəkli meyvələrin yetişdirilməsi üçün ən ideal bölgə Quba-Xaçmaz bölgəsi hesab olunur ki, respublikada bu gün istehsal olunan meyvənin 65-70 faizi bu bölgənin payına düşür. Prezident Heydər Əliyevin qərarı ilə 1976-cı ildə Quba-Xaçmaz bölgəsində 16 min hektar və Şəki-Zaqatala bölgəsində 1000 hektar meyvə bağları salınmışdır ki, bu meyvəçiliyin inkişafına zəmin yaratmışdır. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1993-2003-cü illərdə kənd təsərrüfatı sahəsi tədricən inkişaf etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyevin əmri ilə "Torpaq islahatı" ilə yanaşı, 22 dekabr 1998–ci il tarixli "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", 12 mart 1999–cu il tarixli "Torpaq icarəsi haqqında", 11 iyul 1999–cu il tarixli "Torpaq bazarı haqqında", 22 iyun 1999–cu il tarixli "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi" qanunları təsdiq və qəbul olundu. Heydər Əliyevin 2 mart 2001–ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı"nın təsdiq olunması ilə ölkədə yerli kənd təsərrüfatı məhsullarının becərilməsi və istehsalında artım baş verdi ki, bu da Quba–Xaçmaz bölgəsində meyvəçiliyin daha da inkişaf etdirilməsi və ölkədə ərzaq bolluğunun yaradılması üçün şərait yaratdı. Bu qərar əsasında 2003-cü ilə qədər müasir texnologiyalardan istifadə etməklə yeni meyvə bağları salınmışdır, eyni zamanda yığılan məhsulun daha səmərəli şəkildə xarici bazara çıxışı üçün zəmin yaranmışdır. Yığılan məhsul soyuducu anbar komplekslərində saxlanılırdı və bu da ilin bütün aylarında meyvə satışına müsbət təsir göstərirdi [5,6].

Mütəxəssislərin fikrincə ölkə ərazisində cari ildə meyvə yığımı daha da yüksək olacaq. Bağlardan yığılan nar, heyva, alma, xurma, digər məhsulların havanın əlverişli keçməsi səbəbi ilə bol olacağı gözlənilir. Göyçay rayonunun 30-a yaxın kəndində xurma bağlarından hər il bol məhsul yığılır. Kəndlilər ötən il orta hesabla 19 min tona yaxın məhsul yığıblar. Orta eksponensial hesabla son 10 il ərzində xurma istehsalında artım 29% olmuşdur. Eyni zamanda, istehsal edilmiş ümumi məhsulun ixrac edilən payı da 66%-dən 82%-dək, yəni 23% artmışdır(1,2).

Alma ixracı miqdarına görə 2-ci, dəyərinə görə isə 3-cü yerdədir. İstehsal edilən almanın orta hesabla yalnız 25%-i xaricə ixrac edilir.

Araşdırma nəticəsində bəlli olub ki, bu 5 məhsuldan ən çox ixrac artımına malik olan məhsul gilas olmuşdur: 10 il ərzində ixrac miqdarı 520%, ixrac dəyəri isə 440% artmışdır.

Şaftalı istehsalı alma, gilas, xurma kimi son 10 ildə ən çox olmuşdur və ümumi artımı 68% təşkil etmişdir [7].

Bu tədqiqat işində, Azərbaycanda meyvəçiliyin inkişafı tədqiq edilmişdir. Meyvəçiliyin inkişaf göstəricisi olaraq, meyvəcilik üzrə ixrac dəyişəni diqqətə alınmışdır. Bu məqsədlə, Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi saytında təqdim edilən və 1994-2022-ci illəri əhatə edən meyvəçilik üzrə ixrac məlumatlarından istifadə edilmişdir. Meyvəçilik ixracı min manat ölçü vahidi ilə hesablanmışdır. Analizə başlamadan öncə, meyvəcilik ixracına aid təsviri statistikalar hesablanmış və əldə edilən nəticələr cədvəl 1-də təqdim edilmişdir.

Cədvəl 1

**Təsviri Statistika**

| Təsviri Staistikalar | Meyvəçilik İxracı |
|---|---|
| Ortalama | 225788.0 |
| Medyan | 172656.8 |
| Maksimum | 667576.3 |
| Minimum | 3496.300 |
| Std. Yayınma. | 220506.0 |
| Çəpəkilik | 0.768064 |
| Basıqlıq | 2.285245 |
| Jarque-Bera | 3.468596 |
| Ehtimal | 0.176524 |
| Müşahidə sayı | 29 |

Cədvəl 1-də təqdim edilən təsviri statistikalara nəzər yetirdikdə, 1994-2022-ci illər ərzində orta illik meyvəçilik ixracının 225778 min manat dəyərində olduğunu ifadə etmək mümkündür. Medyan dəyərinin 172656.8 min manat olduğunu nəzərə alaraq meyvəçilik ixracının sağameyilli bir paylanmaya sahib olduğunu deyə bilərik. Çəpəkilik əmsalının müsbət 0.768 olması da paylanmanın normal paylanma ilə müqaisədə sağameyilli olduğunu göstərir. Beləliklə bu məlumatlara əsasən tədqiq edilən dövr ərzində, meyvəçilik ixracının daha çox orta dəyərdən aşağı olduğu nəticəsinə gəlmək olar. Meyvəçilik ixracının sağameyilli paylanmaya sahib olduğunu şəkil 1-də verilən histoqramlardan da aydın şəkildə görmək mümkündür.

Ehtimal sıxlığına nəzərən histoqram

Ədədi sıxlığına nəzərən histoqram




**Şək. 1.** Meyvəçilik ixracının ehtimal və ədədi sıxlığına aid histoqram

Jarque-Bera statistikası və müvafiq ehtimal dəyərinin 0.05-dən böyük olması səbəbi ilə, meyvəçilik ixracının normal paylanmaya sahib olduğunu demək olar. Təsviri statistikalar meyvəçilik ixracatı ilə bağlı vacib məlumatlar versə də, meyvə ixracının zaman içində necə dəyişdiyi ilə bağlı dolğun məlumat vermir. Bu səbəbə görə, meyvə ixracının zamana görə qrafiki çəkilmiş və şəkil 2-də verilmişdir.




**Şək. 2.** Meyvəçilik ixracının zaman qrafiki

Zaman qrafikindən göründüyü kimi, meyvə ixracında davamlı artım və ya müsbət trend müşahidə edilir. Ekonometrik nəzəriyyədə qurulan modelin xətalarında dəyişən variant probleminin aradan qaldırılması məqsədi ilə istifadə edilən üsullardan biri dəyişənin loqarifmasınının alınmasıdır. Bu məqsədlə meyvə ixracının loqarifması alınmışdır. Hər iki şəkildən göründüyü kimi loqarifma alınası dəyişənin meyil bucağını dəyişmir. Zaman sırası analizində ilk mərhələdə, tədqiq edilən zaman sırasının stasionar olub olmaması müəyyənləşdirilməlidir. Bu məqsədlə, meyvə ixracı dəyişəni ADF və FADF vahid kök testləri ilə test edilmiş və nəticələri müvafiq olaraq cədvəl 2 və cədvəl 3-də verilmişdir.

Cədvəl 2

**ADF vahid kök testi nəticələri**

| Dəyişən | Sabit | Kritik Dəyər | Sabit və Tred | Kritik Dəyər |
|---|---|---|---|---|
| **Səviyyə** | | | | |
| LMİ | -1.6037 | -3.737853<br>-2.991878<br>-2.635542 | -0.9811 | -4.39430<br>-3.61219<br>-3.24308 |
| **Birinci Fərq** | | | | |
| ΔLMİ | -7.7703*** | -3.699871<br>-2.976263<br>-2.627420 | -7.6461*** | -4.33933<br>-3.58752<br>-3.22923 |

Cədvəl 2-də təqdim edilən nəticələrə əsasən meyvə ixracı dəyişəni səviyyədə həm sabitli model, həm də sabitli və trendli model üzrə qeyri-stasio-

nardır. Çünki hesablanan -1.6037 və -0.9811 test satistikaları bütün kritik dəyərlərlə müqayisədə mütləq dəyərcə daha kiçikdir. Buna görə də meyvə ixracının qeyri-stasionar olduğunu göstərən sıfır hipotezi rədd edilmir. Meyvə ixracı sırası səviyyədə qeyri-stasionar olduğu üçün birinci fərqi alınmış və yenidən test edilmişdir. Əldə edilən nəticələrə görə, həm sabitli model, həm də sabit və trendin olduğu model üzrə hesablanan test statistiklaları (-7.7703 və -7.6461) mütləq dəyər baxımından kritik dəyərlərdən daha böyükdür. Bu səbəbə görə, sıfır hipotezi rədd edilərək, meyvə ixracı dəyişəninin birinci fərqdə stasionar hala gəldiyi göstərilir.

Cədvəl 3

**Furye ADF vahid kök testi nəticələri**

| Dəyişən | Sabit | | | | Sabit və Trend | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | FADF-stat | F-stat | k | Gecikme | FADF-stat | F-stat | k | Gecikme |
| LMİ | -2.5019 | 6.8357*** | 1 | 1 | -4.7285 | 7.0644*** | 1 | 1 |
| ΔLMİ | -9.2380*** | 1.1071 | 1 | 1 | -6.5527*** | 1.1071 | 1 | 1 |

*%10, **%5, ***%1

Cədvəl 3-də təqdim edilən nəticələrə əsasən meyvə ixracı dəyişəni səviyyədə həm sabitli, həm də sabitli və trendli model üzrə qeyri-stasionardır. F-ADF testində, ADF testindən fərqli olaraq iki mərhələli proses mövcuddur. Birinci mərhələdə Furye hədlərinin əhəmiyyətliliyini yoxlamaq üçün F statistikası istifadə edilir. Əgər Furye hədləri əhəmiyyətli olarsa, digər test satatistikası olan FADF statistikası dəyərləndirilir. Göründüyü kimi meyvəçilik ixracı dəyişəninin səviyyə dəyərlərində F statistikası əhəmiyyətlidir. Çünki F statistikasına aid dəyərlər, Becker, Enders və Lee (2006) tərəfindən tərtib edilən kritik dəyərlərdən daha böyükdür. Bu nəticə dəyişəndə mövcud olan dalğalanmaların statistik baxımdan əhəmiyyətli olduğunu göstərir. Meyvəçilik ixracı dəyişəninin səviyyə dəyərləri üçün hesablanan FADF dəyərlərinə diqqət yetirdikdə bu dəyərlər Chirstopoulos və Leon-Ledesma (2010) tərəfindən tərtib edilən kritik dəyərlərdən mütləq dəyər baxımından daha kiçik olduğu üçün sıranın qeyri-stasionar olduğunu ifadə edən sıfır hipotezi rədd edilə bilməz (8-10). Beləliklə, meyvəçilik ixracı sırasının səviyyədə stasionar olmadığını ifadə etmək mümkündür. Ancaq meyvəçilik ixracının birinci fərqi üçün hesablanan FADF dəyərlərinin, mütləq dəyərlər baxımından kritik dəyərlərdən böyük olması səbəbi ilə sıfır hipotezi rədd edilərək, sıranın birinci fərqdə stasionar olduğu qənaətinə gəlmək mümkündür. Meyvəçilik ixracı dəyişəninə aid sıranın stasionarlıq dərəcəsi müəyyənləşdirildikdən sonra, bu dəyişən ilə bağlı qurulacaq ARIMA modelinin dərəcəsini müəyyənləşdirmək lazımdır. Bunun üçün Akaike, Schwatz və Hannan Quin məlumat meyarları istifadə edilmiş və nəticələri şəkil 3 və cədvəl 4-də təqdim edilmişdir.




**Şək. 3**. Akaike Məlumat Meyarı

Şəkil 3 və cədvəl 4-dən göründüyü kimi, Akaike, Schwatz və Hannan Quin məlumat meyarlarının ən kiçik dəyəri (2,2) modelindədir.
ARIMA(2,1,2)
$Y_t = \phi_0 + \phi_1 Y_{t-1} + \phi_2 Y_{t-2} + \theta_1 \varepsilon_{t-1} + \theta_2 \varepsilon_{t-2} + \varepsilon_t$ (2,1)
Burada $Y_t$ sırası stasionar sıradır.
Furye ARMA(2,0)

$$Y_t = \phi_0 + \phi_1 Y_{t-1} + \phi_2 Y_{t-2} + \sum_{k=1}^{K} \left[ \alpha_k cos\left(\frac{2\pi kt}{T}\right) + b_k sin\left(\frac{2\pi kt}{T}\right) \right] + \varepsilon_t$$

$\pi = 3.14$(2,2
K: modelin dövri komponentlərinin(dalğalanmaların) sayı
t: trend
T: Müşahidə sayı
$\alpha_k$ və $b_k$ furye hədlərinin əmsalları
$\phi_p$ : AR həddlərinin əmsalları
$\theta_q$: MA hədlərinin əmsalları

Bunun mənası ondan ibarətdir ki, ARIMA (p,d,q) modelinin dərəcəsi ARIMA (2,1) olaraq təyin edilmişdir. Məlumat meyarları əsasında qurulan modellər heç də ən yaxşı model mənasına gəlməməlidir. Məlumat meyarlarına əsasən seçilən model, Qauss-Markov şərtlərini yerinə yetirdiyi zaman ən yaxşı model adlandırıla bilər. Bunun üçün, ARIMA (2,1) modeli qiymətləndirilməli və xətaların ağ küy olub olmadığı yoxlanılmalıdır. Yəni modeldən

əldə edilən xətalar dəyişən varyans və avtokorelyasiyaya sahip olmamaqla yanaşı normal paylanmaya sahip olmalıdır. Bu məqsədlə, ARIMA (2,1) modeli qiymətləndirilmiş və nəticələri cədvəl 5-də verilmişdir. Cədvəl 5-də verilən model nəticələrinə görə, AR(1) və AR(2) əmsallarının hər ikisi mənfi işarəli olub, mütləq dəyər baxımından birdən kiçikdir. Bu əmsallar müvafiq olaraq bir il və iki il əvvəl meyvə ixracında yaşanan artımın cari ayda azalmaya səbəb olduğunu ifadə edir. Yəni meyvə ixracında bir il əvvəl yaşanan 1%-lik artım cari ayda meyvə ixracını ortalama olaraq 0.88%, iki il əvvəl yaşanan 1%-lik artım cari ayda meyvə ixracını ortalama olaraq 0.72% azaldır. Hər iki əmsala aid ehtimal dəyərləri 0.05-dən kiçik olduğu üçün bu əmsallar 5% əhəmiyyətlilik dərəcəsinə görə statistik baxımdan əhəmiyyətlidir. Modelə aid düzəldilmiş $R^2$ dəyəri 0.55-ə bərabər olduğundan, ARIMA(2,1) modelinin meyvəçilik ixracatında baş verən dəyişikliyin 55%-ni izah etdiyini göstərir. Bu modelin stasionar olub olmadığını yoxlamaq üçün modelə aid tərs köklər hesablanmış və nəticələr müvaiq olaraq şəkil 4 və cədvəl 6-da təqdim edilmişdir.

Cədvəl 4

**Məlumat meyarları**

Model Selection Criteria Table
Dependent Variable: DLOG(MI)
Date: 11/04/23 Time: 13:15
Sample: 1994 2022
Included observations: 28

| Model | AIC* |
|---|---|
| (2,2)(0,0) | **1.284071** |
| (4,0)(0,0) | 1.303563 |
| (0,4)(0,0) | 1.310078 |
| (0,1)(0,0) | 1.320267 |
| (2,1)(0,0) | 1.334956 |
| (1,0)(0,0) | 1.335029 |
| (3,0)(0,0) | 1.343660 |
| (2,5)(0,0) | 1.352632 |
| (2,3)(0,0) | 1.353583 |
| (3,2)(0,0) | 1.354169 |
| (3,1)(0,0) | 1.355686 |
| (1,4)(0,0) | 1.358583 |
| (2,0)(0,0) | 1.359544 |
| (0,5)(0,0) | 1.360805 |
| (5,0)(0,0) | 1.372930 |
| (4,1)(0,0) | 1.374063 |
| (3,3)(0,0) | 1.380284 |
| (0,2)(0,0) | 1.382890 |
| (1,1)(0,0) | 1.385925 |
| (3,5)(0,0) | 1.399423 |
| (4,2)(0,0) | 1.411721 |
| (2,4)(0,0) | 1.429645 |

| | |
|---|---|
| (1,5)(0,0) | 1.429879 |
| (4,3)(0,0) | 1.432240 |
| (5,1)(0,0) | 1.439947 |
| (0,0)(0,0) | 1.444209 |
| (1,2)(0,0) | 1.451901 |
| (0,3)(0,0) | 1.462818 |
| (4,5)(0,0) | 1.469207 |
| (3,4)(0,0) | 1.471634 |
| (5,2)(0,0) | 1.474108 |
| (1,3)(0,0) | 1.486953 |
| (5,3)(0,0) | 1.498091 |
| (5,4)(0,0) | 1.526712 |
| (4,4)(0,0) | 1.537622 |
| (5,5)(0,0) | 1.626060 |

Cədvəl 5

**ARIMA(2.1) Modelinin nəticələri**

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C | 0.175 | 0.060 | 2.927 | 0.008 |
| AR(1) | -0.882 | 0.059 | -14.94 | 0.000 |
| AR(2) | -0.770 | 0.054 | -14.21 | 0.000 |
| MA(1) | 0.939 | 0.072 | 13.04 | 0.000 |
| MA(2) | 0.926 | 0.0444 | 20.86 | 0.000 |
| R-squared | 0.62 | Mean dependent var | | 0.201 |
| Adjusted R-squared | 0.55 | S.D. dependent var | | 0.411 |
| S.E. of regression | 0.27 | Akaike info criterion | | 0.437 |
| Sum squared resid | 1.60 | Schwarz criterion | | 0.679 |
| Log likelihood | -0.68 | Hannan-Quinn criter. | | 0.506 |
| F-statistic | 8.57 | Durbin-Watson stat | | 2.198 |
| Prob(F-statistic) | 0.00 | | | |
| Inverted AR Roots | -.59+.65i | -.59-.65i | | |
| Inverted MA Roots | -.67+.69i | -.67-.69i | | |

Şəkil 4 və cədvəl 6-da verilən nəticələrə əsasən, ARIMA(2,1) modelinin tərs kökləri mütləq dəyər baxımından birdən kiçik olub, radiusu birə bərabər olan çevrənin daxilində yer almaqdadır. Bu nəticələr ARIMA(2,1) modelinin stasionar olduğunu göstərir. Yəni modelə gələn şoklar, model üzərində keçici təsirə malikdir. Bu nəticələrdən əlavə olaraq, ARIMA(2,1) modelindən əldə edilən xətaların Qauss-Markov şərtlərini ödəyib ödəmədiyini müəyyən etmək üçün avtokorrelyasiya, dəyişən varyans və normallıq testləri edilmiş və nəticələr müvafiq olaraq cədvəl 7 və şəkil 5-də təqdim edilmişdir.




**Şək. 4.** ARIMA(2,1,2) Modelinin Tərs Kökləri

Cədvəl 6

**ARIMA(2,1,2) modelinin tərs kökləri**

Inverse Roots of AR/MA Polynomial(s)
Specification: D(LOG(MI)) C AR(1) AR(2) MA(1) MA(2)
Date: 04/01/24 Time: 05:39
Sample: 1994 2025
Included observations: 26

| AR Root(s) | Modulus | Cycle |
|---|---|---|
| -0.590773 ± 0.649321i | 0.8778551824882912 | 2.721151366641111 |
| No root lies outside the unit circle. ARMA model is stationary. | | |
| **MA Root(s)** | **Modulus** | **Cycle** |
| -0.669940 ± 0.691180i | 0.9625746865024359 | 2.684443883468751 |
| No root lies outside the unit circle. ARMA model is invertible. | | |

Cədvəl 7

**ARIMA(2,1,2) modelinə aid diaqnostik testlər**

| **Avtokorrelyasiya Testi** | | | |
|---|---|---|---|
| Breusch-Godfrey Serial Correlation LM Test: Null hypothesis: No serial correlation at up to 3 lags | | | |
| **F-statistic** | **2.370406** | **Prob. F(3,20)** | **0.1010** |
| Obs*R-squared | 7.344343 | Prob. Chi-Square(3) | 0.0617 |
| **Dəyişən varyans Testi** | | | |
| Heteroskedasticity Test: White Null hypothesis: Homoskedasticity | | | |
| **F-statistic** | **0.947313** | **Prob. F(5,22)** | **0.4705** |
| Obs*R-squared | 4.960389 | Prob. Chi-Square(5) | 0.4207 |

Avtokorrelyasiya və dəyişən varyans testinin nəticələrinə əsasən hər iki testə aid ehtimal dəyərləri 0.05-dən daha böyükdür. Bu nəticə modelin xətalarında avtokorrelyasiya və dəyişən varyansın olmağını ifadə edən sıfır hipotezinin rədd edilmədiyini ifadə edir. Yəni modelin xətalarında avtokorrelyasiya və dəyişən varyans yoxdur. Şəkil 5-də verilən Jarque-Bera normallıq testinin nəticələrinə görə, xətaların normal paylanmaya sahib olduğunu göstərən sıfır hipotezi rədd edilə bilməz. Çünki test statistikasına aid ehtimal dəyəri 0.710638-ə bərabər olmaqla 0.05-dən daha böyükdür. Bu nəticə, 5% əhəmiyyətlilik səviyyəsində xətaların normal paylanmaya sahib olduğunu göstərir.

ARIMA(2,1) modelinə aid tərs köklər və xətalar nəzəri şərtləri doğrultduğu üçün qiymətləndirilən modelin, nəzəri modelə uyğunluğunu test etmək məqsədi ilə, nəzəri və qiymətləndirilmiş modelin avtokorrelyasiya və qismi avtokorrelyasiya qrafikləri əldə edilmiş və nəticələr şəkil 6-da təqdim edilmişdir.




**Şək. 5.** ARIMA(2,1,2) Modelinin Xətalarının Normallıq Testi

Şəkil 6-da verilən model uyğunluğu qrafikinə nəzər yetirdikdə qiymətləndirilmiş model ilə, nəzəri modelin bir-birinə uyğunluq göstərildiyi görünür. Bu nəticə ARIMA(2,1) modelinin meyvəçilik ixracını modelləşdirmək baxımından doğru bir model olduğunu göstərir. Meyvəçilik ixracını modelləşdirmək baxımından uyğun model əldə edildiyi üçün, bu modelə əsaslanaraq, meyvəçilik ixracının gələcək dəyərləri proqnozlaşdırılmışdır. Proqnoz nəticələri şəkil 7-də təqdim edilmişdir. Şəkil 9 Panel A-da proqnoz nəticələri loqarifmik miqyasda, Panel B-də isə xətti miqyasda göstərilmişdir. Xətti miqyasda göstərilən proqnoz dəyərlərindən açıq şəkildə göründüyü kimi, modelin özü yaxşı bir model olsa da, proqnoz dəyərləri kifayət qədər yaxşı deyildir. Bunu proqnoz kriteriyaları olan Orta Mütləq Yayınma (OMY-MAE), Xətaların Kvadratları Ortalaması (XKO-MSE), Xətaların Kvadratları Ortalamasının Kvadratkökü (XKOK-RMSE) dəyərləri olduqca böyük dəyərlərdir. Bu dəyərlər sıfırdan nə qədər böyük olsa, proqnozun uğurlu olma ehtimalı bir o qədər

aşağı hesab edilir. Bu meyarların çox böyük dəyərlərə sahib olması, xətti funksiya əsasında qurulan ARIMA(2,1,2) modeli ilə hesablanan proqnozların uğursuz olduğunu deməyə əsas verir.







**Şək. 6.** Qiymətləndirilmiş ARIMA(2,1,2) modeli ilə nəzəri ARIMA(2,1,2) modelinin uyğunluğu

ARIMA(2,1) modeli kifayət qədər yaxşı proqnoz qabiliyyətinə sahib olmadığından, meyvə ixracı sırasında olan dalğalanmaları diqqətə almaq məqsədi ilə, meyvəçilik ixracı Furye ARMA metodu ilə qiymətləndirilmiş və nəticələri cədvəl 8-də təqdim edilmişdir. Cədvəl 8-də təqdim edilən nəticələrdən göründüyü kimi Furye ARMA(2,2) modelində dalğa sayını göstərən k parametri 6 olaraq müəyyən edilmişdir. AR(1) və AR(2) əmsalları müvafiq olaraq -0.730 və -0.738 təxmin edilmişdir. Hər iki əmsala aid ehtimal dəyərləri 0.05-dən kiçik olduğu üçün, əmsallar statistik baxımdan əhəmiyyətlidir. Bu əmsallar, bir və iki il əvvəl meyvəçilik ixracında yaşanan 1%-lik artımın cari ildə meyvəçilik ixracını ortalama olaraq 0.730 və 0.738% azaldığını göstərir. Bu əmsalların mütləq dəyərcə birdən kiçik olmaları modelin stasionar olduğunu ifadə edir. Sinus və kosinus hədləri ilə ifadə edilən Furye əmsalları statistik baxımdan əhəmiyyətli olduğu üçün, meyvəçilik ixracında yaşanan dalğalanmaların statistik və ekonometrik baxımdan əhəmiyyətli olduğunu göstərir. Modelə aid düzəldilmiş $R^2$=0.797 olduğu üçün, meyvəçilik ix-

racında baş verən dəyişikliklərin 79.7% -nin model tərəfindən izah edildiyini deyə bilərik. Şəkil 8 və cədvəl 8-dən də göründüyü kimi Furye ARMA(2,2) modeli stasionar modeldir. Yəni qiymətləndirilən model meyvəçilik ixracında yaşanan şoklara qarşı davamlıdır. Bir başqa sözlə, meyvəçilik ixracında yaranan şoklar keçicidir. Model xətalarının Qauss-Markov fərziyyələrini yerinə yetirib yetirmədiyini müəyyənləşdirmək üçün avtokorrelyasiya, dəyişən variant və normallıq testləri edilmiş və nəticələri belədir.




**Şək. 7.** ARIMA(2,1,2) modelinin 2025-ci il proqnozu

Furye ARMA(2,2) modeli stasionar olduğu üçün bu modelin xətalarının Qauss-Markov şərtlərini yerinə yetirib yetirmədiyini müəyyənləşdirmək üçün, avtokorrelyasiya, dəyişən varyans və normallıq testləri edilmiş və nəticələri cədvəl 10 və şəkil 9-da göstərilmişdir. Avtokorrelyasiya, dəyişən varyans və normallıq testlərinə aid ehtimal dəyərlərinə nəzər saldıqda hər üç testə aid ehtimal dəyərlərinin 0.05-dən daha böyük olduğu görünür. Bu nəticələrə əsasən, Furye ARMA(2,2) modelinin xətalarında avtokorrelyasiya və dəyişən

variant olmadığı görülməklə yanaşı xətaların normal paylanmaya sahib olduğunu ifadə etmək mümkündür. Furye ARMA(2,2) modelinin xətaları Qauss-Markov şərtlərini yerinə yetirdiyi üçün modelin nəzəri model ilə uygunluğunu yoxlamaq məqsədilə avtokorrelyasiya və qismi avtokorrelyasiya qrafikləri çəkilərək şəkil-10 da verilmişdir. Şəkil 10-dan göründüyü kimi, qiymətləndirilmiş model ilə nəzəri model uyğunluq təşkil edir. Furye ARMA(2,2) modeli stasionar olduğu və Qauss Markov şərtlərini yerinə yetirdiyi üçün, eyni zamanda nəzəri model ilə uyğunluq təşkil etdiyi üçün bu model ilə gələcəyə dair proqnoz vermək uyğundur. Proqnoz hesablarına aid qrafiklər şəkil 11-də verilmişdir. Şəkil 11-dən göründüyü kimi, Furye-ARMA(2,0) modelinin proqnoz qabiliyyəti daha yaxşıdır. Eyni zamanda, Orta Mütləq Yayınma (OMY-MAE), Xətaların Kvadratları Ortalaması (XKO-MSE), Xətaların Kvadratları Ortalamasının Kvadratkökü (XKOK-RMSE) dəyərləri ARIMA(2,1) modelinin dəyərləri ilə müqayisə edildikdə daha kiçik dəyərlərə malikdir.

Cədvəl 8

**Furye ARMA nəticələri**

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C | 0.132 | 0.014 | 9.461 | 0.001 |
| SIN((2*3.14*1*(@TREND+1))/29) | 0.070 | 0.017 | 4.128 | 0.023 |
| COS((2*3.14*1*(@TREND+1))/29) | -0.125 | 0.022 | -5.579 | 0.009 |
| SIN((2*3.14*2*(@TREND+1))/29) | -0.132 | 0.019 | -6.961 | 0.001 |
| COS((2*3.14*2*(@TREND+1))/29) | -0.092 | 0.022 | -4.161 | 0.021 |
| SIN((2*3.14*4*(@TREND+1))/29) | -0.098 | 0.024 | -4.029 | 0.026 |
| COS((2*3.14*4*(@TREND+1))/29) | -0.099 | 0.023 | -4.314 | 0.000 |
| SIN((2*3.14*5*(@TREND+1))/29) | -0.078 | 0.028 | -2.827 | 0.014 |
| COS((2*3.14*5*(@TREND+1))/29) | 0.102 | 0.026 | 3.927 | 0.031 |
| SIN((2*3.14*6*(@TREND+1))/29) | -0.023 | 0.032 | -0.717 | 0.486 |
| COS((2*3.14*6*(@TREND+1))/29) | 0.122 | 0.031 | 3.915 | 0.037 |
| AR(1) | -0.730 | 0.136 | -5.367 | 0.006 |
| AR(2) | -0.738 | 0.131 | -5.634 | 0.005 |
| R-squared | 0.894 | Mean dependent var | | 0.201 |
| Adjusted R-squared | 0.797 | S.D. dependent var | | 0.411 |
| S.E. of regression | 0.185 | Akaike info criterion | | -0.229 |
| Sum squared resid | 0.445 | Schwarz criterion | | 0.399 |
| Log likelihood | 15.987 | Hannan-Quinn criter. | | -0.048 |
| F-statistic | 9.201 | Durbin-Watson stat | | 2.032 |
| Prob(F-statistic) | 0.000 | | | |
| Inverted AR Roots | -.62-.60i | -.62+.60i | | |

Bu nəticələr meyvə ixracının proqnozlaşdırılmasında, Furye-ARMA(2,2) modelinin, ARIMA(2,1) modeli ilə müqayisədə daha uyğun model olduğunu göstərir. Furye-ARMA(2,2) modelinin proqnoz qiymətlərinə görə, 2024 və 2025-ci illər üçün meyvəçilik ixracı müvafiq olaraq, 444486.7 və 190406.7 min manat həcmində olacaqdır. Şəkil 12-də verilən qrafikdən də

göründüyü kimi, Furye-ARMA(2,2) modelinin həqiqi meyvəçilik ixracı dəyərlərinə uyğunluq səviyyəsi, ARIMA(2,1) modelinin uyğunluq səviyyəsindən daha yüksəkdir. Beləliklə, bütün meyarları nəzərə alaraq, Furye ARMA(2,2) modelinin nəticələrinin daha etibarlı olduğunu ifadə etmək mümkündür.




**Şək. 8.** Furye-ARMA(2,1) Modelinin Tərs Kökləri

Cədvəl 9

**ARIMA(2,1) modelinin tərs kökləri**

| | | |
|---|---|---|
| Inverse Roots of AR/MA Polynomial(s) | | |
| Specification: D(LOG(MI)) C AR(1) AR(2) SIN((2*3.14*1*(@TREND+1))/29)+COS((2*3.14*1*(@TREND+1))/29) SIN((2*3.14*2*(@TREND +1))/29) COS((2*3.14*2*(@TREND+1))/29)+ SIN((2*3.14*4*(@TREND+1))/29)+COS((2*3.14*4*(@TREND+1))/29)+SIN((2*3.14*5 *(@TREND+1))/29)+COS((2*3.14*5*(@TREND +1))/29)+SIN((2*3.14*6*(@TREND+1))/29)+ COS((2*3.14*6*(@TREND+1))/29) | | |
| Date: 04/01/24 Time: 09:35 | | |
| Sample: 1994 2025 | | |
| Included observations: 26 | | |
| AR Root(s) | Modulus | Cycle |
| -0.615453 ± 0.599693i | 0.859 | 2.652 |
| No root lies outside the unit circle. | | |
| ARMA model is stationary. | | |

Cədvəl 10

**Furye ARMA(2,2) modelinə aid diaqoztik test nəticələri**

| | | | |
|---|---|---|---|
| Breusch-Godfrey Serial Correlation LM Test: | | | |
| Null hypothesis: No serial correlation at up to 3 lags | | | |
| F-statistic | 1.418573 | Prob. F(3,12) | 0.2856 |
| Obs*R-squared | 7.330352 | Prob. Chi-Square(3) | 0.0621 |
| Heteroskedasticity Test: White | | | |
| Null hypothesis: Homoskedasticity | | | |
| F-statistic | 1.477173 | Prob. F(9,18) | 0.2296 |
| Obs*R-squared | 11.89496 | Prob. Chi-Square(9) | 0.2193 |




**Şək. 9.** Furye ARIMA(2,2) modelinin xətalarının normallıq testi




**Şək. 10.** Qiymətləndirilmiş ARIMA(2,1) modeli ilə nəzəri ARIMA modelinin uyğunluğu




**Şək. 11.** ARIMA(2,1) modelinin 2025-ci il proqnozu




**Şək. 12.** ARIMA(2, 1) və Fourier ARMA(2,2) modellərinə aid proqnozlar

$Y_t = \phi_0 + \phi_1 Y_{t-1} + \phi_2 Y_{t-2} + \theta_1 \varepsilon_{t-1} + \theta_2 \varepsilon_{t-2} + \varepsilon_t$ ARIMA(2,1)
Burada $Y_t$ sırası stasionar sıradır.

$$Y_t = \phi_0 + \phi_1 Y_{t-1} + \phi_2 Y_{t-2} + \sum_{k=1}^{K} \left[ \alpha_k cos\left(\frac{2\pi kt}{T}\right) + b_k sin\left(\frac{2\pi kt}{T}\right) \right] + \varepsilon_t$$

$\pi = 3.14$ Furye ARMA(2,2)

K: modelin dövri komponentlərinin(dalğalanmaların) sayı
t: trend
T: Müşahidə sayı
$\alpha_k$ və $b_k$ furye hədlərinin əmsalları
$\phi_p$ : AR həddlərinin əmsalları
$\theta_q$: MA həddlərinin əmsalları

Göstərilmişdir ki, ARIMA (2.1) modeli kifayət qədər yaxşı proqnoz qabiliyyətinı malik olmadığından meyvə ixracı sırasında olan dalğalanmaları diqqətə almaq məqsədi ilə meyvəçilik ixracı Furye ARIMA metodu ilə qiymətləndirilmişdir və nəticələri təqdim edilmişdir. Sinus və kosinus hədləri ilə ifadə edilən Furye əmsalları statistik baxımdan əhəmiyyətli olduğu üçün, meyvəçilik ixracında yaşanan dalğalanmaların statistik və ekonometrik baxımdan əhəmiyyətli olduğunu göstərir. Modelə aid düzəldilmiş $k^2$=0.797 olduğu üçün meyvəçilik ixracında baş verən dəyişikliklərin 79.7%-in model tərəfindən izah edildiyi alınır. Tətbiq edilən model stasionardır, yəni qiymətləndirilən model meyvəçilik ixracında yaşanan şoklara qarşı davamlıdır, başqa sözlə meyvəçilik ixracında yaranan şoklar keçicidir.

Sübut olunmuşdur ki, Furye ARIMA (2, 2) modelinin nəticələri daha etibarlıdır.

**ƏDƏBİYYAT**


1. "Heydər Əliyevin Milli İqtisadi İnkişaf Modeli Azərbaycanın İqtisadi Müstəqilliyinin əsasıdır" mövzusunda elmi-praktiki konfransın materialları. - Lənkəran, -2023, -s.29-30
2. Abbasova A. Azərbaycanda meyvəçiliyin inkişafının modelləşdirilməsi // Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Tətbiqi riyaziyyatın müasir problemləri" mövzusunda elmi konfransmaterialları.-Bakı:-2024, -s.19
3. Fikrətzadə F.F. Rusiya-Ukrayna münaqişəsindən irəli gələn çağırışlar fonunda Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ilə təminatının gücləndirilməsi və ixrac bazarlarının diversifikasiya məsələləri // "İqtisadi islahatlar" elmi-analitik jurnalı, -2022, №2(3).
4. Abbasov İ. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. - Bakı: Elm, -2023, - s.24.
5. Kənd təsərrüfatın proqnozlaşdırılması; inkişaf etməkdə olan ölkələr üçün çağırışlar. // Beynəxalq konfrans materialları. -Bakı: Elm, -2023, -s.22
6. Zeynallı Ə.T. Kəndli sahibkarların aktual problemləri: həlli yolları. I kitab (monoqrafiya). - Bakı: Avropa, -2019, -s.567
7. Axundov Y.M. Azərbaycan Respublikasında meyvəçilik sektorunun ixrac tendensiyaları: müqayisəli təhlil // Agricultural Economics-2023, -№2, -s.44.
8. Zaman serilerinin analizi ve arıma modelleri. DerYayınevi. Akgül.I,-2003
9. Anderson, O.D. The Box-Jenkins approach to time series analysis // RAIRO-OperationsResearch, 1977, - 11(1), -s.3-29.
10. Asteriou, D., & Hall, S. G. Tətbiqi Ekonometrika. Teas Press. – 2022. Tərcümə: Nicat Qasım

## СОСТОЯНИЕ ПЛОДОВОДСТВА В АЗЕРБАЙДЖАНЕ И ПРОГНОЗ ЭКСПОРТА ФРУКТОВ

**Ф.А.МИРЗАЕВ, А.Б.АББАСОВА**

### РЕЗЮМЕ

В статье проанализировано состояние и развитие плодоводства в нашей стране за последние годы. По полученным результатам можно сказать, что экспорт плодоводства снизился в стоимостном выражении. Использовались данные по экспорту плодоводства, представленные на официальном сайте Статистического комитета Азербайджанской Республики и охватывающие 1994-2022 годы. Благодаря статистике Жарка-Бера и соответствующему значению вероятности, превышающему 0,05, можно сказать, что экспорт фруктовой продукции имеет нормальное распределение. Показано, что, поскольку модель ARIMA не обладает достаточно хорошей прогнозирующей способностью, для учета колебаний экспорта фруктов оценку можно проводить с помощью метода Фурье ARIMA.

**Ключевые слова**: Метод ARIMA, плодоводство, экспорт плодоводства, метод Фурье ARIMA, условия Гаусса Маркова, прогнозирование, модель экспорта плодоводства

## THE STATE OF FRUIT GROWING IN AZERBAIJAN AND FORECASTING OF FRUIT EXPORT

**F.A.MIRZAYEV, A.B.ABBASOVA**

### SUMMARY

In the article, the state and development of fruit growing in our country was analyzed in recent years. According to the obtained results, we can say that the export of fruit growing has decreased in value. Export data on fruit growing, presented on the official website of the Statistical Committee of the Republic of Azerbaijan and covering the years 1994-2022, was used. Due to the Jarque-Bera statistic and the corresponding probability value greater than 0.05, it can be said that fruit production exports have a normal distribution. It has been shown that since the ARIMA model does not have a sufficiently good forecasting ability, in order to take into account the fluctuations in the fruit export, the evaluation can be carried out with the Fourier ARIMA method.

**Keywords**: ARIMA method, fruit growing, fruit growing export, Fourier ARIMA method, Gaussian Markov partition, forecasting, fruit growing export model

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 Sosial-siyasi elmlər seriyası 2024

UOT 33

# EFFEKTİV BİZNES SİTUASİYASI ANALİZİ ÜÇÜN TOWS MATRİSİNİN TƏTBİQİ

**F.F.SƏMƏDZADƏ**
***Bakı Mühəndislik Universiteti***
***fsamadzade@beu.edu.az***

*Bugünkü dinamik biznes mühitində təşkilatlar vəziyyətlərini təhlil etmək və qalibiyyət strategiyaları hazırlamaq üçün effektiv vasitələrə ehtiyac duyurlar. TOWS matrisi, tanınmış SWOT təhlilinin genişləndirilməsi ilə güclü çərçivə təklif edir. Daxili güclü və zəif tərəflər ilə xarici imkanlar və təhdidlər arasındakı qarşılıqlı əlaqəni araşdıraraq, TOWS matrisi biznesə üstünlüklərindən istifadə edən və potensial riskləri azaldan strategiyalar hazırlamağa kömək edir.*

*Bu məqalədə effektiv situasiya təhlili üçün TOWS matrisinin tətbiqinin müxtəlif aspektlərini təhlil edilir, TOWS matrisinin qurulması prosesini və əldə edilmiş fikirlərə əsaslanaraq təsirli strategiyaların necə hazırlanacağı izah edilir.*

**Açar sözlər:** TOWS matrisi, SWOT təhlili, biznes strategiyası.

## TOWS matrisinin əsasları

Situasiya təhlili üçün güclü alət olan TOWS Matrix 1982-ci ildə Heinz Weihrich tərəfindən təqdim edilmişdir. Bu matris daxili və xarici amillərin qarşılıqlı təsirinə diqqət yetirərək onu bir addım daha irəli apararaq tanınmış SWOT təhlilinə əsaslanır [2]. SWOT güclü, zəif tərəfləri, imkanları və təhdidləri müəyyən etsə də, TOWS təsirli strategiyalar hazırlamaq üçün bu elementləri uyğunlaşdırmaqdan da kənara çıxır [1].

Özündə TOWS matrisi sistematik təhlil üçün konseptual çərçivə kimi xarici təhlükə və imkanların təşkilatın daxili zəif və güclü tərəfləri ilə uyğunlaşdırılmasını asanlaşdırır [3]. Matris dörd əsas strateji birləşmə ətrafında qurulmuşdur:

1. SO (güclü tərəflər-fürsətlər): Xarici imkanlardan yararlanmaq üçün daxili güclü cəhətlərdən istifadə etmək.

2. WO (zəifliklər-fürsətlər): Xarici imkanlardan istifadə etməklə daxili zəifliklərin təkmilləşdirilməsi.

3. ST (güclü tərəflər-təhlükələr): Xarici təhlükələrdən qaçmaq üçün daxili güclü tərəflərdən istifadə etmək.

4. WT (zəifliklər-təhlükələr): Təhdidlərdən qaçmaq və zəif tərəfləri minimuma endirmək məqsədi daşıyan müdafiə mövqeyi seçmək.

TOWS matrisi strateji planlaşdırma üçün bir sıra üstünlüklər təklif edir [2]:

– O, tədqiqat və perspektivli strateji istiqamətlər arasında körpü yaratmağa kömək edir.

– Nəticələr dəstək əldə etmək üçün təşkilatı maraqlı tərəflərə açıq şəkildə təqdim edilə bilər.

– Atılacaq addımlar üçün əsas mərkəz nöqtələrini müəyyənləşdirir.

– Matris həm müsbət, həm də mənfi təsirləri nəzərə alaraq bütün əsasları əhatə edir.

Təşkilatın vəziyyətini təhlil etmək üçün strukturlaşdırılmış yanaşma təmin etməklə, TOWS matrisi bizneslərə həm daxili, həm də xarici amilləri əhatə edən hərtərəfli strategiyalar hazırlamağa imkan verir. Bu sistemli təhlil təşkilatlara təhdidləri azaltmağa, fürsətlərdən yararlanmağa, güclü tərəflərdən istifadə etməyə və zəif tərəfləri aradan qaldırmağa kömək edir.

**TOWS Matrisinin qurulması**

TOWS matrisinin qurulması prosesi təşkilatın strateji mövqeyinə təsir edən həm daxili, həm də xarici amillərin sistemli təhlilini əhatə edir. Bu strukturlaşdırılmış yanaşma bizneslərə unikal vəziyyətlərini həll edən hərtərəfli strategiyalar hazırlamağa kömək edir.

Daxili amillər təşkilatın birbaşa nəzarət etdiyi aspektlərdir. Bunlara daxildir:

Güclü tərəflər: Bunlar təşkilata rəqabət üstünlüyü verən əsas səriştələr, resurslar və imkanlardır. Məsələn, brend reputasiyası, texnoloji inkişaf, istedadlı işçi qüvvəsi, güclü maliyyə resursları.

Zəif tərəflər: Bunlar təşkilatın resursları, imkanları və ya rəqabət üstünlükləri baxımından çatışmayan sahələri təmsil edir. Zəif cəhətləri müəyyən etmək, özünü dürüst qiymətləndirmə və introspeksiya tələb edir.

Daxili amillərin qiymətləndirilməsi zamanı aşağıdakı kimi suallar verə bilərlər [6]:

– Xidmətinizi istehlakçı ehtiyaclarını qarşılamaq üçün ən yaxşı vasitəyə çevirən nədir?

– Şirkətinizi fərqləndirən qabaqcıl xüsusiyyətləriniz və ya yeni imkanlarınız hansılardır?

– Şirkətinizin hansı aktivləri var?

– Şirkətinizin hansı aspektində böyümək üçün yer var?

Xarici amillər təşkilatın birbaşa nəzarət edə bilmədiyi, lakin onlara cavab verməli olduğu iş mühitinin elementləridir:

İmkanlar, təşkilatın üstünlüyü üçün istifadə edilə bilən xarici şərtlərdir. Onlar aşağıdakılardan yarana bilər:

– İnkişaf etməkdə olan bazar tendensiyaları
– İstehlakçı seçimlərinin dəyişdirilməsi
– Texnoloji yeniliklər
– Strateji tərəfdaşlıqlar

Təhdidlər, təşkilatın uğuru üçün risklər və ya problemlər yaradan xarici amillərdir:

– Bazar dalğalanmaları
– Qanunvericilikdəki dəyişikliklər
– Rəqabət təzyiqləri

Xarici amilləri qiymətləndirmək üçün təşkilatlar aşağıdakı kimi suallara cavab tapa bilərlər [6]:

– Hansı maneələr şirkətinizin uğurunu çətinləşdirə bilər?
– Hansı rəqiblərin biznesinizi təhdid etmək potensialı var?
– Fəaliyyət göstərdiyiniz bazarda hər hansı siyasi və ya iqtisadi risklər varmı?
– İstehlak bazarınız şirkətinizin gələcəyi üçün risk yarada biləcək şəkildə inkişaf edirmi?

**Matris strukturunun yaradılması**

Daxili və xarici amillər müəyyən edildikdən sonra TOWS matrisi qurula bilər. Matris daxili amillərin (güclü və zəif tərəflərin) xarici amillərlə (imkanlar və təhlükələr) kəsişdiyi bir qrafik kimi qurulmuşdur [4]. Bu dörd kvadrant yaradır (cədvəl 1):

– SO (Strengths-Opportunities): Xarici imkanlardan yararlanmaq üçün daxili güclü cəhətlərdən istifadə edən strategiyalar.
– WO (Weaknesses-Opportunities): Xarici imkanlardan istifadə etməklə daxili zəiflikləri yaxşılaşdırmaq üçün strategiyalar.
– ST (Strengths-Threats): Xarici təhlükələrdən qaçmaq üçün daxili güclü tərəflərdən istifadə edən strategiyalar.
– WT (Weaknesses-Threats): Təhdidlərdən qaçmaq və zəif tərəfləri minimuma endirmək məqsədi daşıyan ən müdafiə strategiyaları.

Bu kəsişmələri sistematik şəkildə təhlil edərək, təşkilatlar öz spesifik vəziyyətlərinə və bazar mövqelərinə cavab verən məqsədyönlü strategiyalar hazırlaya bilərlər.

Cədvəl 1

| | Fürsətlər (xarici mühit)<br>1.<br>2.<br>3. | Təhdidlər (xarici mühit)<br>1.<br>2.<br>3. |
|---|---|---|
| Güclü tərəflər (müəssisədaxili)<br>1.<br>2.<br>3. | SO<br>Müəssisənin güclü tərəflərini fürsətlərin təsir gücünün artırılmasına yönəltmək | ST<br>Müəssisənin güclü tərəfləri ilə təhdidlərin effektini azaltmaq |
| Zəif tərəflər (müəssisədaxili)<br>1.<br>2.<br>3. | WO<br>Fürsətlərdən istifadə edərək müəssisənin zəif tərəflərinin təsir gücünü azaltmaq | WT<br>Müəssisənin zəif tərəflərini azaldıcı və təhdidlərdən qoruyucu strategiyaları tətbiq etmək |

**Həyata keçirilə bilən strategiyaların hazırlanması**

TOWS matrisi təşkilatın daxili faktorları ilə xarici mühit arasında qarşılıqlı əlaqəni təhlil edərək, həyata keçirilə bilən strategiyaların işlənib hazırlanması üçün güclü alət kimi xidmət edir. Bu proses dörd növ strategiyanın yaradılmasını nəzərdə tutur: SO, ST, WO və WT. Hər bir strategiya növü güclü, zəif tərəflər, imkanlar və təhdidlərin xüsusi birləşməsinə diqqət yetirir.

SO strategiyaları xarici imkanlardan yararlanmaq üçün daxili güclü tərəflərdən istifadə etməyi hədəfləyir. Bu strategiyalar uğur üçün ən böyük potensiala malikdir, çünki onlar bazar imkanlarını ələ keçirmək üçün təşkilatın əsas səriştələrindən istifadə etməyə yönəlir. Məsələn, güclü texnoloji təcrübəyə (güclü tərəf) malik bir texnoloji şirkət ağıllı ev cihazlarına artan tələbatdan (imkan) yararlana bilər.

SO strategiyalarını inkişaf etdirmək üçün təşkilatlar özlərinə sual verməlidirlər:

– Güclü tərəflərimiz bu fürsətlərdən istifadə etməyimizə necə kömək edə bilər?

– Güclü tərəflərimizdən istifadə etmək üçün hansı tədbirləri görməliyik?

ST strategiyaları və ya Maksi-Mini strategiyaları xarici təhlükələrin qarşısını almaq və ya minimuma endirmək üçün daxili güclü tərəflərdən istifadə etməyi nəzərdə tutur. Bu strategiyalar çətin bazar şəraitində rəqabət üstünlüyü saxlamaq üçün çox vacibdir. Məsələn, güclü brend mövcudluğu (güclü tərəf) olan pərakəndə satış şəbəkəsi e-ticarət rəqiblərinin təhlükəsinə qarşı çıxmaq üçün onlayn alış-veriş platforması (strategiya) inkişaf etdirə bilər.

ST strategiyalarını tərtib edərkən təşkilatlar nəzərə almalıdırlar:

– Bu təhlükələrə qarşı gücümüzdən necə istifadə edə bilərik?

– Bu təhlükələri aradan qaldırmaq və ya azaltmaq üçün nə etməliyik?

Mini-Maksi strategiyaları da adlandırılan WO strategiyaları xarici imkanlardan istifadə etməklə daxili zəiflikləri yaxşılaşdırmağa yönəlmişdir. Bu yanaşma təşkilatlara eyni zamanda bazar tendensiyalarını kapitallaşdırmaqla öz məhdudiyyətlərini aradan qaldırmağa imkan verir. Məsələn, məhdud marketinq resursları (zəiflik) olan kiçik biznes bazarda iştirakını artırmaq üçün sosial mediadan (imkandan) istifadə edə bilər.

Effektiv WO strategiyalarını inkişaf etdirmək üçün təşkilatlar soruşmalıdır:

– Bu fürsətlərdən istifadə etmək üçün zəif tərəflərimizi necə güclü tərəflərə çevirə bilərik?

– Zəif cəhətlərimizi aradan qaldırmaq üçün hansı tədbirləri görməliyik?

WT strategiyaları və ya Mini-Mini strategiyaları TOWS matrisindəki ən müdafiə mövqeyini təmsil edir. Bu strategiyalar daxili zəiflikləri minimuma endirmək və xarici təhlükələrdən müdafiə etmək məqsədi daşıyır. Onlar tez-tez təşkilat çətin vəziyyətdə olduqda istifadə olunsa da, uzunmüddətli uğur üçün, ümumiyyətlə, SO, ST və WO strategiyalarına daha çox diqqət yetirmək məsləhətdir.

WT strategiyalarını hazırlayarkən təşkilatlar nəzərə almalıdırlar:

– Bu təhlükələrdən qorunmaq üçün zəif cəhətlərimizi necə yumşalda bilərik?

– Biznesimizin ən riskli tərəfləri hansılardır və biz onları necə həll edə bilərik?

Bu dörd strateji kombinasiyanı sistematik şəkildə təhlil edərək, təşkilatlar unikal vəziyyətlərinə və bazar mövqelərinə cavab verən hərtərəfli fəaliyyət strategiyaları dəsti hazırlaya bilərlər. Bu yanaşma strategiyaların təcrid olunmuş şəkildə inkişaf etdirilməməsini, lakin biznesə təsir edən real dünya faktorlarına mahiyyət etibarilə bağlı olmasını təmin edir .

**TOWS-dan əldə edilən strategiyaların həyata keçirilməsi**

Təşkilat TOWS matrisindən istifadə edərək strategiyalar hazırladıqdan sonra növbəti mühüm addım bu strategiyaları effektiv şəkildə həyata keçirməkdir. Bu proses strateji alternativlərin prioritetləşdirilməsini, onların təşkilati məqsədlərə uyğunlaşdırılmasını və həyata keçirilməsinin davamlı monitorinqini və tənzimlənməsini əhatə edir.

TOWS matrisi dörd kvadrant üzrə çoxlu strateji seçimlər yaradır: SO (Güclü tərəflər-İmkanlar), ST (Güclü tərəflər-Təhlükələr), WO (Zəif tərəflər-İmkanlar) və WT (Zəif tərəflər-Təhlükələr). Bu seçimlərə üstünlük vermək üçün təşkilatlar:

1. Hər bir strateji variantın potensial nəticələrini qiymətləndirməli.

2. Resurs bölgüsü, riskin azaldılması, vaxt qrafiki və investisiyadan gözlənilən gəlir kimi amilləri nəzərdən keçirməli.

3. Hər bir variantın təşkilatın məqsəd və vəzifələrinə uyğunluğunu qiymətləndirməli.

Məsələn, təşkilat mövcud maliyyə imkanlarından yararlanmaq üçün qrant yazmaq təcrübəsindən istifadə edən SO strategiyasına üstünlük verə bilər. Bu strategiya xarici imkanları ələ keçirmək üçün daxili güclərdən istifadə etdiyi üçün yüksək uğur potensialına malikdir.

Seçilmiş strategiyaların təşkilatın ümumi uğuruna töhfə verməsini təmin etmək üçün onları təşkilat məqsədləri ilə uyğunlaşdırmaq vacibdir. Bu uyğunlaşma prosesinə daxildir:

1. Hər bir strateji yanaşma üçün konkret və həyata keçirilə bilən addımların müəyyən edilməsi.
2. Bu tədbirlərin təşkilatın resursları və imkanları ilə uzlaşdırılmasını təmin etmək.
3. Müəyyən edilmiş strateji yanaşmaları xüsusi tədbirlərlə əlaqələndirmək üçün strateji seçimlər matrisi kimi alətlərdən istifadə.

Məsələn, əgər təşkilatın məqsədi potensial maliyyə azalmaları (ST strategiyası) şəraitində səmərəliliyi artırmaqdırsa, onlar resursdan istifadəni optimallaşdırmaq üçün könüllü idarəetmə proqramını tətbiq edə bilərlər.

TOWS-dan əldə edilən strategiyaların həyata keçirilməsi davamlı monitorinq və düzəliş tələb edən davamlı bir prosesdir. Təşkilatlar, həyata keçirilən strategiyalarla bağlı əsas performans göstəricilərini izləməli, icra zamanı yarana biləcək potensial maneələri və ya çətinlikləri müəyyən etməli və strategiyanın effektivliyini təmin etmək üçün lazımi düzəlişlər etməlidirlər.

TOWS-dan əldə edilən strategiyaları həyata keçirmək üçün bu strukturlaşdırılmış yanaşmaya riayət etməklə, təşkilatlar öz güclü tərəflərini effektiv şəkildə istifadə edə, zəif tərəflərini aradan qaldıra, fürsətlərdən yararlana və biznes mühitlərində təhlükələri azalda bilərlər.

**Nəticə**

TOWS matrisi ənənəvi SWOT analizinə yeni baxış bucağı gətirməklə strateji planlaşdırma sahəsində oyun dəyişdirici olduğunu göstərir. Təşkilatlara daxili güclü və zəif tərəflər və xarici imkanlar və təhdidlər arasında qarşılıqlı əlaqəni təhlil etməyə imkan verməklə, hədəflənmiş strategiyaların hazırlanması üçün sistemli yanaşma təklif edir. Bu üsul təkcə biznesə öz üstünlüklərindən istifadə etməyə kömək etmir, həm də potensial riskləri aradan qaldırmağa kömək edir, daha məlumatlı qərar qəbul etməyə və rəqabət mövqeyini yaxşılaşdırmağa gətirib çıxarır.

Beləliklə, TOWS-dan əldə edilən strategiyaların həyata keçirilməsi SWOT təhlilini fəaliyyətə çevirmək üçün açardır. Strateji variantları prioritetləşdirməklə, onları təşkilati məqsədlərlə uyğunlaşdırmaqla və onların effektivliyinə davamlı olaraq nəzarət etməklə, müəssisələr dəyişən bazar şərtlərinə uyğunlaşa bilərlər. Buna görə də TOWS matrisi təşkilatları strategiya-

nın formalaşdırılması və icrasının mürəkkəb prosesində istiqamətləndirmək üçün dəyərli alət kimi xidmət edir, onlara bugünkü dinamik biznes mənzərəsində çətinliklərin öhdəsindən gəlməyə və imkanlardan istifadə etməyə kömək edir.

## ƏDƏBİYYAT


1. Dandage, R.V., Mantha, S.S. and Rane, S.B. Strategy development using TOWS matrix for international project risk management based on prioritization of risk categories // International Journal of Managing Projects in Business, 2019, Vol. 12 No. 4, pp. 1003-1029. https://doi.org/10.1108/IJMPB-07-2018-0128
2. Heinz Weihrich, The TOWS matrix—A tool for situational analysis, Long Range Planning, Volume 15, Issue 2, 1982, Pages 54-66, ISSN 0024-6301, https://doi.org/10.1016/0024-6301(82)90120-0. (https://www.sciencedirect.com/science/article/pii/0024630182901200)
3. Sudjilah, & Rachmawati, E. (2021). Empowerment of Micro, Small, Medium Enterprise (MSME) Using SWOT Analysis. European Journal of Business and Management. https://doi.org/10.7176/ejbm/13-8-07
4. https://getlucidity.com/strategy-resources/an-introduction-to-tows-analysis/
5. https://www.professionalacademy.com/blogs/an-introduction-to-the-tows-matrix-putting-swot-into-action/
6. https://nonprofitbuilder.org/storage/303/TOWS-Long-Range-Planning-Heinz-Weihrich.pdf


## ПРИМЕНЕНИЕ МАТРИЦЫ TOWS ДЛЯ ЭФФЕКТИВНОГО АНАЛИЗА БИЗНЕС-СИТУАЦИИ


**Ф.Ф. САМАДЗАДЕ**


## РЕЗЮМЕ


В современных динамичных условиях ведения бизнеса организациям необходимы эффективные инструменты для анализа своей ситуации и разработки успешных стратегий. Матрица TOWS представляет собой мощную концептуальную модель, расширяющую известный анализ SWOT. Путем изучения взаимосвязей между внутренними сильными и слабыми сторонами, а также внешними возможностями и угрозами, матрица TOWS помогает предприятиям разрабатывать стратегии, позволяющие использовать их преимущества и минимизировать потенциальные риски.

В данной статье рассматриваются различные аспекты применения матрицы TOWS для эффективного ситуационного анализа, описывается процесс её построения, а также объясняется, как на основе полученных данных разрабатывать результативные стратегии.



**Ключевые слова:** матрица TOWS, SWOT-анализ, бизнес-стратегия.

## APPLICATION OF THE TOWS MATRIX FOR EFFECTIVE BUSINESS SITUATION ANALYSIS

**F.F. SAMADZADE**

**SUMMARY**

In today's dynamic business environment, organisations need effective tools to analyse their situations and develop winning strategies. The TOWS matrix offers a powerful framework that extends the well-known SWOT analysis. By examining the interrelationships between internal strengths and weaknesses and external opportunities and threats, the TOWS matrix helps businesses develop strategies that leverage their strengths and mitigate potential risks.

This article analyses various aspects of applying the TOWS matrix for effective situation analysis, explains the process of constructing the TOWS matrix, and explains how to develop effective strategies based on the insights gained.

**Keywords:** TOWS matrix, SWOT analysis, business strategy.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Əliyeva R.Z.**
Aİ-nin ətraf mühitə cavabdehlik razılaşmalarındakı rolu .................................... 5
**Səlimova L.K.**
Siyasi qrupların təxribatına qarşı atılan tədbir kimi əhalinin köçürülməsi ilə milli, etnik, irqi və ya dini qrupun məhv edilməsi üçün qəsdən törədilən əməllərin fərqi ........................................................................ 17
**Hüseynzadə H.R.**
Əmtəə nişanlarından qanunsuz istifadə etmə haqsız rəqabətə səbəb olan cinayət əməllərindən biri kimi .................................................... 34
**Mahmudov E.V.**
Əmək müqaviləsinə xitam verilməsi zamanı hüquqi təminatlar .......................... 48

## POLİTOLOGİYA

**Məmmədova A.M.**
Çin Xalq Respulikasının ərzaq təhlükəsizliyi siyasəti və bu sahədəki uğurlu təcrübəsi ............................................................ 56

## PEDAQOGİKA

**Aslanzadə N.F.**
Yetkinlik dövründə mənəvi və ümumbəşəri dəyərlərin inkişafına təsir edən amillər ........................................................................................ 79

## SOSİOLOGİYA

**Əsgərova Z.Q., Məmmədova A.M.**
Qarabağın mədəni irsi ........................................................................................ 86

## İQTİSADİYYAT

**Mirzəyev F.Ə., Abbasova A.B.**
Azərbaycanda meyvəçiliyin vəziyyəti və meyvə ixracatının proqnozlaşdırılması.... 91
**Səmədzadə F.F.**
Effektiv biznes situasiyası analizi üçün TOWS matrisinin tətbiqi ...................... 110

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Алиева Р.З.**
Роль ЕС в соглашениях об экологической ответственности ........................ 5
**Салимова Л.К.**
Отличие переселения, как меры противодействия подрывной деятельности политических групп, от умышленных деяний по уничтожению национальной, этнической, расовой или религиозной группы ........................ 17
**Гусейнзаде Х.Р.**
Незаконное использование товарных знаков как фактор недобросовестной конкуренции и преступного деяния ........................ 34
**Махмудов Э.В.**
Правовые гарантии при расторжении трудового договора ........................ 48

## ПОЛИТОЛОГИЯ

**Мамедова А.М.**
Политика продовольственной безопасности Китайской Народной Республики и успешная практика в этой области ..... 56

## ПЕДАГОГИКА

**Асланзаде Н.Ф.**
Факторы, влияющие на развитие нравственных и общечеловеческих ценностей в подростковом возрасте ..................... 79

## СОЦИОЛОГИЯ

**Аскерова З.Г., Мамедова А.М.**
Культурное наследие Карабаха ........................ 86

## ЭКОНОМИКА

**Мирзаев Ф.А., Аббасова А.Б.**
Состояние плодоводства в Азербайджане и прогноз экспорта фруктов ...... 91
**Самадзаде Ф.Ф.**
Применение матрицы TOWS для эффективного анализа бизнес-ситуации ..... 110

## CONTENTS

### LAW

**Mehtiyev N.H., Əliyeva R.Z.**
The EU’s role in environmental liability agreements .......................................... 5
**Salimova L.K.**
Distinguishing resettlement as a measure to counter subversive activities of political groups from deliberate actions to destroy a national, ethnic, racial or religious group ........................................................ 17
**Huseynzade H.R.**
Illegal use of trademarks as one of the criminal acts causing unfair competition ............................................................................................ 34
**Mahmudov E.V.**
Legal guarantees in case of termination of an employment contract .................. 48

### POLITICAL SCIENCE

**Mammadova A.M.**
Food security of the People's Republic of China and successful experience in this field............................................................................... 56

### PEDAGOGY

**Aslanzadeh N.F.**
Factors affecting the development of moral and universal values in adolescents ............................................................................... 79

### SOCIOLOGY

**Asgarova Z.G., Mammadova A.M.**
Cultural heritage of Karabakh ......................................................................... 86

### ECONOMY

**Mirzayev F.A., Abbasova A.B.**
The state of fruit growing in Azerbaijan and forecasting of fruit export............. 91
**Samadzade F.F.**
Application of the TOWS matrix for effective business situation analysis ......... 110

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktor: ***Məryəm Qədimova***

Korrektor: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 14.03.2025
Formatı: 70x100 1/16. Həcmi 7,75 ç.v. Sayı 100.
BDU Nəşr Evində çap olunmuşdur.

AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bduneshrevi@bsu.edu.az
www.bsu.edu.az